AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

## SCIENTIFIC WORK

International Scientific Journal

## ELMİ MƏNBƏLƏR
## XVII TEZİSLƏR TOPLUSU

## SCIENTIFIC SOURCES
## XVII COLLECTION OF THESES

# ELMİ İŞ

**Beynəlxalq Elmi Jurnal**

# ELMİ MƏNBƏLƏR

## XVII TEZİSLƏR TOPLUSU

https://doi.org/10.36719/2663-4619/2025/XVII

# SCIENTIFIC WORK

**International Scientific Journal**

# SCIENTIFIC SOURCES

## XVII COLLECTION OF THESES

**Bakı – Baku**
**2025**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası Ədliyyə
Nazirliyi Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

---

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

---

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 99 809 67 68
+994 99 808 67 68
+994 12 510 63 99

**e-mail**
tezis.aem@aem.az

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
huseynova.mahira@yandex.ru

**Redaktor köməkçisi**

**Magistrant Nəzakət QƏHRƏMANZADƏ**,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi / Azərbaycan
qehremanzade77@mail.ru

**ÜZVLƏR**

**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universteti / Yaponiya
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu **/** Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva

**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin “İqor Sikorski adına Kiyev Politexnik İnstitutu” / Ukrayna
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Şəhanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Daşqın QƏNBƏROV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Editor**

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
huseynova.mahira@yandex.ru

**Master student Nazakat GAHRAMANZADEH**,
Ministry of Science and Education of the Republic of Azerbaijan / Azerbaijan
qehremanzade77@mail.ru

**MEMBERS**

**Prof. Dr. Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Ibrahim JAFAROV**, ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANI**, The University of Texas at Tyler / USA
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Firat University / Turkey
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSHALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine

**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan

**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan

**Prof. Dr. Masuma DAEI**, Payame Noor University, Tabriz / Islamic Republic of Iran

**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany

**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan

**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan

**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan

**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India

**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan

**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan

**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia

**Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia

**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan

**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan

**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan

**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers' Institute / Azerbaijan

**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan

**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan

**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan

**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey

**Dr. Dashgin GANBAROV**, Nakhchivan State University / Azerbaijan

**Dr. Rovshan RAMIZOGHLU**, Selcuk University / Turkey

**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 7-11**
**Scientific Sources XVII Collection of Theses / 7-11**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Sənan Babayev**
Azərbaycan İdman Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-9815-584X
sanan.babayev@sport.edu.az
**Bayram Xəlilov**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0006-6641-9623
xelilovbayram1956@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASINDA İDMANIN İNKİŞAF PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *qədim milli mədəniyyət, idman, dövlət, cəmiyyət, ölkə*

***Keywords:*** *ancient national culture, sport, state, society, country*

Fiziki tərbiyənin cəmiyyətdə yeri və rolu olduqca böyükdür. Fiziki tərbiyə və idman cəmiyyət üçün önəmi olan və ictimai maraq doğuran insan fəaliyyətinin müstəqil növünü təşkil edir. Fiziki hərəkətlər vasitəsilə insan cəmiyyətində sağlam həyat tərzi formalaşır. Fiziki hərəkətlərdən istifadə öz növbəsində ictimai zamanında və məqamında insan orqanizminə ciddi şəkildə müsbət təsir edir.

Qədim milli mədəniyyətə, dövlətçilik ənənələrinə malik olan Azərbaycanda bədən tərbiyəsi və idman hər zaman cəmiyyətin inkişafının əhəmiyyətli faktorlarından biri olmuş-

**doi.org/10.36719/2663-4619/2025/XVII**

dur (Azərbaycanda müasir gəncliyin formalaşmasında fiziki tərbiyənin və idmanın rolu (2012, s. 7-8).

Ümummilli lider Heydər Əliyev idmanın əhəmiyyətindən bəhs edərək qeyd edirdi: «İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir». İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet qollarından birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu.



Müstəqil Azərbaycanın həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınması və olimpiya hərəkatına qoşulması geniş vüsət aldı. İdmanın üzləşdiyi problemlərin aradan qaldırılması, idmançıların maddi rifahının yüksəldilməsi, onlara gələcək qələbələr üçün stimul verilməsi, habelə ölkədə yeni idman komplekslərinin yaradılması istiqamətində gələcək prioritetlər müəyyənləşdirildi (Əliyev, Quliyev, 2005, s. 227-229).

Heydər Əliyevin Azərbaycanın idman siyasətinin həyata keçirilməsi sahəsindəki xidmətləri əvəzsizdir.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Heydər Əliyev Azərbaycanda idmanın kütləviliyinə nail olmaq, bədən tərbiyəsi və idmanı geniş coğrafi məkanda inkişaf və təbliğ etdirmək, yüksək nailiyyətlər qazanmaq və dünya şöhrətli idmançılar hazırlamaq üçün bu sahədə birbaşa məşğul olan qurumlar qarşısında konkret vəzifələr qoymuşdu. İdmanın inkişafı üçün həyata keçirilməli əsas tədbirlər sırasına mövcud idman bazalarının, stadionların, meydança və zalların qorunması, bərpası və təyinatı üzrə istifadəsinin təmin edilməsi, yeni idman bazalarının, meydançalarının, stadion və zalların tikilməsi, zəruri avadanlıqlarla təchizatı, idman klub-larının açılması, mütəxəssislərinin yetişdirilməsi, ölkə birinci-liklərinin və digər yarışların keçirilməsi, idmançılarımızın beynəlxalq yarışlarda iştirakının təmin edilməsi, yüksək nəticə-ləri olan idmançılara diqqət və qayğı göstərilməsi, Azərbay-canda beynəlxalq yarışların keçirilməsi, uşaq və yeniyetmələrin daha geniş miqyasda idmana cəlb olunması daxil edilmişdi.

Azərbaycanda fiziki tərbiyə, bədən tərbiyəsi və idmanın inkişaf mərhələləri cəmiyyət arasındsa öz geniş əksini tap-mışdır (Heydər Əliyev və Azərbaycan İdmanı” Sənədli pub-lisistika, 2004, s. 43-46).

Fiziki hərəkətlərdən istifadənin tarixi olduqca qədimdir. İnsan yarandığı gündən qida əldə etmək, özünü müdafiə etmək məqsədi ilə fiziki hərəkətlərdən istifadə etmişdir. İlk insan cəmiyyəti üçün qaçmaq, tullanmaq, çevik və güclü olmaq həyat əhəmiyyətli bir zərurət idi. Bu qabiliyyətlərə malik olmayanlar sadəcə olaraq yaşamaq imkanlarını itirmiş olurdular. İnsan cəmiyyəti inkişaf etdikcə yuxarıda qeyd olunan qabiliyyətlər üzrə insanların yarışmasına ehtiyac yaranmış oldu.

Atlı idman oyunları, qol yarışı, güləş, şahmat kimi idman növləri Azərbaycanda hələ qədim dövrlərdə geniş yayılmışdır. Qədim zamanlar nizə atma ov aləti ehasb edilirdi. Lakin hal hazırda nizə atma atletikanın mühüm növlərindən biri hesab

doi.org/10.36719/2663-4619/2025/XVII

edilir. İdmanın bir neçə növləri də bir zamanlar döyüş hazırlığı məqsədləri üçün istifadə edilmişdir. Buna sübut müxtəlif bölgələrdəki mağaralarda, o cümlədən Azərbaycanın Qobustan Təbiət Muzeyində 3-5 min il əvvəl qayalara həkk olunmuş tarixi şəkillər bir daha təsdiq edir.

Fiziki tərbiyənin elementləri ibtidai icma quruluşunda yaranmışdır. İnsanlar özlərinə qida əldə etmiş, yaşayış məskəni salmış və bu fəaliyyət zamanı onlarda qüvvə, dözümlülük, çeviklik və s. kimi fiziki hərəkət qabiliyyətləri formalaşaraq təkmilləşmişdir.



Azərbaycanın zəngin idman ənənələri dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə bədən tərbiyəsinin və idmanın müxtəlif növlərinin inkişafı üçün geniş imkanlara yol açdı. Artıq bu sahə dövlətin daxili və xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış etməyə başladı. Azərbaycan Respublikasında idmanın inkişaf perspektivlərini müəyyən edə biləcək dövlət siyasətinin və xüsusi idman strategiyasının hazırlanması ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılmasını da sürətləndirdi:

Bu gün müasir Azərbaycan idmanın kütləviliyini təmin edən, peşəkar təşkilatçılıq ənənələrinə sahib ölkədir. Artıq uzun

doi.org/10.36719/2663-4619/2025/XVII

illərdir ki, Azərbaycanda mötəbər idman yarışları keçirilir. Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Ölkəmiz dünyada idman ölkəsi kimi tanınır. Əminliklə söyləmək olar ki, idman respublikamızda dövlət siyasətidir. Zaman keçdikcə dövlət bu siyasətin bəhrəsini görmüş, ölkəmizdə idmanın hərtərəfli inkişafına nail ola bilmişdir. Ölkəmizdə bu istiqamətdə fəaliyyət göstərən bütün qurumlar idmanın Azərbaycanda inkişaf etməsi, kütləviliyin geniş vüsət alması, eləcə də idmançılarımızın respublikamızı daha yaxşı təmsil etməsi məqsədlərini güdür. Bütün bu birgə fəaliyyətin, həmin qurumlar arasında mövcud olan koordinasiyanın nəticəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır (Quliyev, s. 35-38).

## Ədəbiyyat

1. Azərbaycanda müasir gəncliyin formalaşmasında fiziki tərbiyənin və idmanın rolu. (2012). AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Elmi əsərləri». Bakı.
2. Əliyev, A., Quliyev, D. (2005). Bədən tərbiyəsi və idman tarixi: Ali məktəblər üçün dərslik / Red.: S.Allahverdiyev, S.Hüseynov. Bakı: AzDBTİA.
3. “Heydər Əliyev və Azərbaycan İdmanı” Sənədli publisistika. (2004). Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi.
4. Quliyev, D. “Azərbaycanda İdman” məqalə.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 12-15**
**Scientific Sources XVII Collection of Theses / 12-15**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Sevinc Səlimova**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-1152-2562
salimovasevinc@mail.ru

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ SEMANTİK VƏ SİNTAKTİK YOLLA SÖZ YARADICILIĞI

***Açar sözlər:*** *lüğət tərkibi, semantik yol, sintaktik yol, təkamül, zənginləşdirmə*

***Keywords:*** *vocabulary stock, semantic way, syntactic way, evolution, enrichment*

Hər bir dilin lüğət tərkibi mənsub olduğu xalqın tarixinin, keçdiyi inkişaf yolunun inikası olduğu üçün böyük bir təkamül prosesi keçirir, dəyişir və təkmilləşir. Dilin lüğət tərkibi xalqın həyatı və məişəti ilə sıx bağlıdır. Dilin lüğət tərkibinin zənginləşməsində iki mənbədən istifadə etmək olar:

1. *Dilin öz daxili imkanları hesabına*
2. *Başqa dillərdən söz almaq (alınma sözlər) hesabına*

**Dilin daxili imkanları hesabına söz yaratma** lüğət tərkibinin əsas hissəsini təşkil edir və bu sözlər dilin milli xüsusiyyətlərini, xalqın tarixi təşəkkülünü özündə əks etdirən nümunələrdir. Dilin daxili imkanları hesanına sözyaratma həm Azərbaycan , həm də İngilis dilində ən qədim dövrdən başlayır və dil mövcud olduğu müddət ərzində də davam edir. Daxili imkanlar hesabına söz yaradıcılığının, lüğət tərkibini zənginləşdirməyin də öz yolları var.

1. *Leksik yolla söz yaradıcılığı*
2. *Morfoloji üsulla söz yaradıcılığı*

**doi.org/10.36719/2663-4619/2025/XVII**

3. *Sintaktik üsulla söz yaradıcılığı*
4. *Semantik üsulla söz yaradıcılığı*

*Semantik yolla söz yaradıcılığı* – Azərbaycan dilinin lüğət tərkibinin inkişafında leksik vahidlərdə semantik dəyişmələr olmasının və yeni məzmun bildirən sözlər yaranmasının böyük rolu vardır. Bu yolla söz yaradıcılığında mənanın genişlənməsi hesabına yaranan sözlər (ziyalı ailəsi, dil ailəsi mənanın konkretləşməsi ilə yaranan yeni sözlər (iş: elmi iş, siyasi iş, buraxılış işi), sözün omonimləşməsi hesabına yaranan yeni sözlər ( it (isim) – it (fel ), gül (isim) – gül (fel), az (say)- az (fel ), düz (sifət)- düz (fel) və s.), çoxmənalı sözlər hesabına söz yaratma (ayaq – insanın ayağı, kəndin ayağı, dil – adamın dili, pianonun dili, ver – yol vermək, baş vermək, xəbər vermək) üsulları milli ədəbi dilin lüğət tərkibini daha məhsuldar edir. Çoxmənalı və omonim sözlərin zaman keçdikcə yeni anlayışlar ifadə etməsi çox vacibdir, çünki hər anlayışı yeni bir sözlə ifadə etmək həm mümkün deyil, həm də bu dili çox mürəkkəb formaya sala bilər.

Çevrilmə, dəyişmə (conversion) - İngilis dilində söz yaradıcılığının məhsuldar formalarından biri olub leksik vahidlərdə heç bir şəkilçi istifadə edilmədən semantik baxımdan məna dəyişilmələri nəticəsində yaranan yeni sözlərdir. Bu zaman sözün aid olduğu nitq hissəsində dəyişiklik olur. Azərbaycan dilində semantik yolla söz yaradıcılığı, ingilis dilində *conversion* adlandırılan bu üsul bir çox dillərdə mövcuddur

Sintaktik yolla söz yaradıcılığı_– bu dildə ən azı iki sözün iştirakı ilə əmələ gələn mürəkkəb sözlərin yaradılması üsuludur. Dildə yeni söz formalaşması prosesində mühüm payı vardır, amma morfoloji üsulla müqayisədə daha azdır. Sintaktik yolla müxtəlif nitq hissələrinə aid olan sözlər yaratmaq olur. Dilimizdə olan mürəkkəb sözlərin yaranmasında həm milli, həm alınma sözlər iştirak edir. Bu sözlər iki sadə sözün, bir

sadə, bir düzəltmə sözün və ya iki düzəltmə sözün, hətta biri leksik mənası olmayan iki sözün iştirakı ilə yarana bilər və ayrılıqda, bitişik, defislə yazıla bilər. Məsələn: ayaqqabı, yerkökü, suiti, ağacdələn, tozsoran, sülhsevər, şirindilli, qab-qacaq, al-ver, baş-ayaq, tozlu-torpaqlı, gec-gec, üz-üzə, çəkib qurtarmaq, uçub getmək, atılıb-düşmək, qəlbini qırmaq və s.

İngilis dilində yeni söz yaratmağın məhsuldar (productive) və qeyri-məhsuldar (unproductive) formaları var

Məhsuldar yolları (Productive ways): şəkilçi (affixation), mürəkkəb sözlər (compounding), dəyişmə (conversion), qısaltmalar (shortening)

Qeyri-məhsuldar yolları (Unproductive ways): səs və vurğu dəyişmələri (sound and stress interchages), səs imitasiyaları (sound imitations)

Mürəkkəb sözlər (Compounding, compound words) - Həm Azərbaycan, həm ingils dilində mürrəkkəb sözlər eyni üsulla yaranır. İki və daha artıq sözün iştirakı ilə yaranan bu sözlər ( snowhite, newspaper, sunflower, classroom, sunrise, bird-cage, world-wide, music-lover, blue-eyed, timetable, narrowminded, to fulfill, mother-in-law, blue-bell və s) dilin inkişafına xidmət edir. İngilos dilinin lüğətində mürəkkəb sözləri bütün nitq hissələrində tapçaq mümkündür, amma mürəkkəb isim və sifətlərin sayı daha çoxdur.

Qısaltmalar (shortenings) – bu üsulla sözlərin ya əvvəl, ya orta, ya da sonuncu hecası ixtisar olunur. Məsələn: doc (doctor, cycle (bicycle), maths (mathematics), plane (aeroplane). Bu sözlər artıq məişət leksikasında istifadə olunduqca lüğət tərkibinə daxil olur.

İngilis dilində söz yaradıcılığının digər qeyri-məhsuldar formaları olan daxili səs dəyişmələri: song (n)- sing (v), food (n)- feed (v), life (n) – to live (v), full(adj)- to fill (v), vurğu dəyişmələri (stress interchanges ): to ex’port (v)- ‘export (n), to

**doi.org/10.36719/2663-4619/2025/XVII**

pre’sent (v)- ‘present (n), to a’ddict (v)- ‘addict (n), etc. Leksik tərkibin inkişafına kömək edir. Vurğu dəyişmələri daha çox Latın, Fransız dilindən ingilis dilinə keçmiş sözlərdə nəzərə çarpır. Səs təqlidi və ya onomatopeya (sound imitation or onomatopeia)- söz yaradıcılığın bu növü quş, heyvan, təbiət və digər cansız əşyaların səsini təqlid etmək əsasında yeni sözlərin yaranmasıdır. *Babble (şırılıtı), gurgle (qurultu), splash (şappıltı), roar (nərilti), slide (sürüşmək), snarl (deyinmək), chuckle(gülmək), zip (düymələmək), heyvan səsi təqlidləri (howl, mew, moo, buzz, cackle, hiss, purr, crow), crash (şaqqıltı), clash (toqquşma), clink tinkle, giggle, chatter, whisper, murmur, etc.* Təqlidi səslər canlı və cansız təbiətdə olan səsləri və hadisələri xarakterizə edir, dilə obrazlılıq verir və buna görə də bədii ədəbiyyatda və ya məişət üslubunda özümnəməxsus yer tutur. Bu cür sözlər Azərbaycan dilinin lüğət tərkibində də iştirak edir, bəzən morfoloji dəyişikliyə uğrayır, yəni şəkilçi qəbul edir: fıs(ıltı), şaqq(ıltı), vız(ıltı), xış(ıltı), cır(ıltı), qaqq(ıltı), qurr(ultu).

Elmi Mənbələr XVII Tezislər Toplusu / 16-19
Scientific Sources XVII Collection of Theses / 16-19
doi.org/10.36719/2663-4619/2025/XVII

**Sevda İsmayılova**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-4450-6153
sevdaismayilova@rambler.ru

# 1930-CU İLLƏRİN REPRESSİYALARI VƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN ASPİRANTLARI (1933-1936)

***Açar sözlər:*** *repressiya, aspirantlar, sosial mənşə, əksinqilabçı-trotskiçi fəaliyyət, Salamzadə, Gül*

***Keywords:*** *repressions, graduate students, social origin, counter-revolutionary-Trotskyist activity, Salamzadeh, Gul*

Sovet hakimiyyətinin Azərbaycanda milli-mənəvi sahədə həyata keçirdiyi siyasətin tərkib hissəsi olan 1930-cu illər repressiyaları Baki Dövlət Universitetinin (bəhs edilən dövrdə Azərbaycan Dövlət Universiteti) tələbələrindən yan keçmədiyi kimi, aspirantlarından da yan keçməmişdi. Onlar sosial mənşələrini gizlətmək, əksinqilabçı-trotskiçi fəaliyyət, hakimiyyət çevrilişi və s. kimi ittihamlarla müxtəlif cəzalara məhkum edilmişdilər. Aspirantların sosial mənşələrini gizlətmək halları ilə, əksinqilabçı-trotskiçi-zinovyevçi fəaliyyətləri ilə bağlı işlərin sayı daha çoxdur. Universitet rektorları (xüsusən, Balabəy Həsənbəyov. (O özü də 1937-ci ildə repressiyaya məruz qaldı)) aspirantlar haqqında müxtəlif ünvanlara göndərilən sorğuların təşkilatçısı olmuşlar. Sorğular tələbələr haqda göndərilən sorğuların eyni idi: aspirantın atası inqilaba qədər, sonra və indi nə işlə məşğul olub; hansı təsərrüfata malik olub; rayonda nüfuzlu şəxsdirmi; mülkədar zümrəsinə mənsubdurmu (ARDA: 201). ADU-nun rektoru B.Həsən-

doi.org/10.36719/2663-4619/2025/XVII

bəyovun Elmlər Akademiyasının məxfi şöbəsinə məxfi qriflə akademiyanın aspirant Əbdül Əziz Salamzadənin sosial mənşəyi ilə bağlı 17 oktyabr 1935-ci il tarixli məlümatından aydın olur ki, Ə.Salamzadənin atası Şamaxı şəhərində böyük tacir, şox saylı ev və dəyirman sahibi olmuşdur.O, qardaşları ilə birlikdə atasından qalan mirasa yiyələnmişdir. Qardaşları isə dəfələrlə Dövlət Siyasi İdarəsi tərəfindən həbsə məhkum edilmişlər.Salamzadə özü isə 1921-ci ildə sovet Gürcüstanına qarşı əksinqilabı üsyana rəhbərlik etmiş Ömər Fankla əlaqə saxlayır. Əbdül Əziz və Ömər Fankın təhriki ilə qardaşları Şamaxı şəhərində Dövlət Siyasi İdarəsi orqanları tərəfindən güllələnməyə məhkum edilmiş üç nəfər quldurun vəziyyətini asanlaşdırmağa çalışmışlar. Rektor bildirir ki, Salamzadə bütün bunları ADU-ya daxil olarkən gizlətmişdir. Bunları həmçinin AzGETİ-yə də daxil olarkən gizlətmişdir. Onu aspiranturaya göndərərkən ADU ilə bağladığı müqavilədə də gizlətmişdir. Məlümatda göstərilir ki, Azərbaycan Dövlət Universiteti Salamzadə ilə bağlanmış müqaviləni ləğv edir, ona ödənilən təqaüdü də dayandırır (ARDA: 159). Rektorun Əbdül Əziz Salamzadə haqqındakı arayışında aspirant barədəki məlumatlar daha geniş şərh edilmiş, acar üsyanlarına rəhbərlik etmiş Ömər Fankın keçmiş müsavatçı nazir Əhməd Pepinovun əmisi olduğu, özünün də Azərbaycan Cümhuriyyəti dövründə polis inspektoru vəzifəsində çalışdığı göstərilmişdir (ARDA: 160).

Rektor Həsənbəyovun 1934-36-cı illərdə ADU-nun tarix fakültəsinin dekanı olmuş, 1936-cı il dekabrın 2-də trotskiçi-zinovyevçi təşkilatın üzvü kimi həbs edilmiş B.N.Tixomirovun işi ilə bağlı artıq həbsdə olan Tarix fakültəsinin aspirantı Qasım Gül haqqında DİXK İdarəsinin müstəntiqi Şerə 26 dekabr 1936-cı il tarixli məxfi qrifli məlumatında aspirantın şərləndiyi görünür. Həsənbəyovun məlumatına görə, Gül N.Tixomirovun iki zəmanəti ilə ADU aspiranturasına qəbul

**doi.org/10.36719/2663-4619/2025/XVII**

edilmişdir. Gülün Tixomirov tərəfindən ona verilən iki təqdimatı haqda ərizəsi var. Tarix fakültəsinin dekanı Tixomirovun təqdimatı əsasında Gül Həsənbəyovun 1.XII. 1936-cı il tarixli əmri ilə SSRİ xalqları tarixi kafedrasına aspiranturaya qəbul edilmişdir (ARDA: 31). Gül və Biləndərli tanışlar olmuşlar, rektor onların dəhlizdə çox yaxından söhbət etdiklərinin də şahidi olmuşdur (ARDA: 30). "Əksinqilabi trotskiçi fəaliyyətə" və bu kimi ittihamlara görə dindirilmə əsasən erməni müstəntiqlər tərəfindən iki mərhələdə aparılırdı. İlk dindirilmədə müttəhimlər uydurulmuş ittihamları inkar edir, lakin son dindirilmələrdə amansız işgəncələr nəticəsində "günahlarını" "etiraf" edirdilər. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin dekanı, Moskvada Qırmızı Professorlar İnstitutunu bitirmiş Boris Tixomirov da dəhşətli içgəncələrdən sonra istintaqa lazım olan ifadələr verməyə məcbur edilmişdi. H.Biləndərli 1937-ci il yanvarın 26-da əksinqilabçı-trotskiçi fəaliyyətdə ittiham edilərək həbs edilmişdi. Boris Tixomirov da dəhşətli içgəncələrdən sonra H.Biləndərli əleyhinə ifadələr verməyə məcbur edilmişdi. Bu ifadələrdə göstərilirdi ki, H.Biləndərlini əksinqilabçı-trotskiçi təşkilata o cəlb etmişdir. Müstəntiq Şer H.Biləndərlini həbs etməmişdən bir ay əvvəl onun fəaliyyət göstərdiyi müəssisədən bu şəxsin BDU-ya necə işə girməsi, bu zaman kimlərin himayəsindən bəhrələnməsi, hansı müəllim və tələbələrlə yaxınlıq etməsi, bu yaxınlığı yaradan səbəblər və s. barədə qərəzli olduğu ilk baxışdan görünən məlumatlar toplamışdı (Əziz, Əmiraslanov, 2024, s. 8). Aspirant Gül də sovet işğal rejimi ideologiyasının günahsız qurbanı olaraq ADU üzrə əmrə əsasən dekabrın 1-dən, qəbul edildiyi gündən dərslərə gəlmədiyi və bunun səbəbi haqda sənəd təqdim etmədiyinə görə SSRİ xalqları tarixi üzrə aspirantlıqdan xaric edilmişdi. Əsas kimi Həsənbəyovun şifahi göstərişi göstərilmişdi (ARDA: 31).

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Göründüyü kimi, sovet işğal sisteminin 1930-cu illərdə Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi repressiyalar milləti ziyalılardan, parlaq zəkalardan məhrum etməyə, sovet sisteminin ideologiyasına uyğun manqurt kadrların yertişdirilməsinə yönəlmiş, xalqımızın milli ruhunu məhv etmək üçün onun milli-mənəvi dəyərlərindən biri olan təhsil sisteminə böyük zərbə vurmuşdu.

## Ədəbiyyat

1. ARDA, f. 1640, siy.2, iş 4
2. ARDA, f. 1640, siy.2, iş 4
3. ARDA, f. 1640, siy.2, iş 4
4. ARDA, f. 1640, siy.2, iş 8
5. ARDA, f. 1640, siy.2, iş 8
6. ARDA, f. 1640, siy.2, iş 8
7. Əziz, B., Əmiraslanov, V. (2024). Bakı Dövlət Universitetinin repressiyaya məruz qalmış müəllim və tələbələri (1937-1940-cı illər). I hissə. Bakı: "Çapar" yayınları, 540.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 20-23**
**Scientific Sources XVII Collection of Theses / 20-23**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Aynur Quliyeva**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1078-8535
aynurmurad@yahoo.com

# C. MOYESİN "SƏNDƏN ƏVVƏL MƏN" ƏSƏRİNDƏ OLAN METAFORLAR

***Açar sözlər:*** *bədii dil, məcazi məna, personaj, metafor, emosiya*
***Keywords:*** *literary language, figurative meaning, personage, metaphor, emotions*

Metaforlar yazıçıların ən çox istifadə etdiyi nitq vasitəsidir və ədəbiyyatda güclü vasitə hesab olunur, çünki mürəkkəb ideyaları və duyğuları daha canlı və təsəvvürlü şəkildə çatdırmağa yazıçılara imkan verir. Bu leksik-üslubi vasitədə müqayisəni "Love is a battlefield" cümləsində olduğu kimi açıq şəkildə ifadə etmək olar. Yazıçıların istifadə etdiyi metaforlar məcazi xarakter daşıdığı - sözlərinin hərfi mənalarından kənarda məna yaratdığı üçün yaradılan müqayisələr hərfi mənada qəbul olunmur. Məsələn, qeyd etdiyimiz nümunədə sevginin əslində döyüş meydanı olduğu və ya insanın sevgidən fiziki zədə aldığı nəzərdə tutulmur, əksinə,sevginin necə mübarizə, ağrılı, hətta rəqiblər arasında qarşıdurma ola biləcəyini daha yaxından əlaqələndirir, dünyanı görməyin yeni yollarını açırlar, və ya tanış vəziyyətlərə yeni perspektivlər təklif edə bilərlər. Onlar gündəlik nitqdə və bütün yazı formalarında, povestdən tutmuş şeirə, məntiqi ardıcıllığı olan yazıya qədər geniş yayılmışdır.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Metaforlar C.Moyesin “Səndən əvvəl mən” əsərində çox üstünlük təşkil edən üslub xüsusiyyəti olmasa da, personajların emosional vəziyyətlərini və povestin əsas mesajlarını çatdırmaqda mühüm rol oynayırlar. Yazıçı xanım metaforlar vasitəsilə personajlarının daxili emosional aləmlərini ələ keçirir və tez-tez həyatın vurduğu zərbə, çaşqınlıq, həsrət hisslərini oxucuların asanlıqla əlaqələndirə biləcəyi şəkildə ifadə etmək üçün metaforlardan istifadə edir. Məsələn, əsərin əsas qəhrəmanından biri olan Luiza tez-tez özünü başqalarının fikiri ilə tələyə düşmüş və ya məhdudlaşdırılmış kimi hiss edir ki, bu da qəfəsdə “bird”, “cracked open” (“quş” və ya “yaralı” hiss etmək) kimi metaforik şəkildə ifadə olunur. Bu əsərdə istifadə olunan metaforlar oxuculara personajların tələyə düşmə, itki hissi və inkişaf edən münasibətlərini anlamağa kömək edir.

*"I am not a bird, and no net ensnares me."* Burada Luizanın müstəqillik arzusu ifadə edilir. Quşun azad və qeyri-məhdud olması metaforu, vəziyyətinin tələyə düşdüyünü hiss etdiyi əvvəlki həyatı ilə ziddiyyət təşkil edir. Bu, onun azadlığa və özünü gücləndir-məyə şəxsi səyahətini çatdırmaq üçün bir yoldur.

*"The past is a different country."* Bu fikir Luiza keçmiş həyatı ilə indiki vəziyyətini düşünəndə ortaya çıxır. Bu ifadə Uill ilə görüşdükdən sonra dünyasının necə kəskin dəyişdiyini və özünün əvvəlki, daha sadə həyatı ilə bağlı hiss etmədiyini vurğulayır. Bu, onun keçmişinin uzaq və yad olduğunu, çox fərqli bir yerə bənzədiyini göstərir.

*"Like a flower growing in a field of weeds."* Əsəri oxuyarkən bu cümlə ilə Luizanın etibarsızlığını və həmişə ona bu imkanları təqdim etməyən bir dünyada məna tapmaq və yerinə yetirmək istəyini vurğuladığını anlayırıq. Luiza öz yersiz hisslərini təsvir etmək üçün bu cümləni işlədir. O, özünü ətrafdakı “alaq otlarının” simvolizə etdiyi sərt mühitdə

**doi.org/10.36719/2663-4619/2025/XVII**

böyüyən gözəl, lakin kövrək bir çiçək kimi hiss edir. Bu, onun məhdudlaşdırıcı bir dünyada öz yerini tapmaq uğrunda mübarizəsini ifadə edir. O, yeni yollarla çiçəklənməyə başlayanda roman boyu onun şəxsi inkişafını da əks etdirir.

*"I'm not going to let you be a prisoner of your own body."* Bu fikir Uill'in öz vəziyyətinə verdiyi cavabdır və iflic səbəbiylə bədənində tələyə düşməsini təsvir edir. Bu, onun sərbəstliyinin itirilməsi ilə daxili mübarizəsini əks etdirir və metafor onun həbs hissini vurğulayır. Uill'in iflicinin metaforik təsvirləri onun hərəkətliliyini və müstəqilliyini itir-məsi ilə şəxsi mübarizəsini çatdırdığı üçün çox təsirlidir. Bu metafordan istifadə oxucuya əlilliyi olan insanların üzləşdiyi fiziki və emosional problemləri anlamağa kömək edir.

*"You are a glass of water and I am a flame."* Bu cümlədə ifadə olunan məcazi məna Uillə Luiza arasındakı dinamikanı təsvir etmək üçün istifadə edilir. Luizanın mehribanlığı və istiqanlılığı,bir stəkan suyun alovu söndürdüyü kimi, tez-tez onun qəzəbini söndürür və ya sakitləşdirir. Bu, onların münasibətlərindəki emosional ziddiyyətlərdən bəhs edir.

*"You are the sun in my world."* Əsərin əsas qəhrəmanlarının bir-birinə necə baxdığını və münasibətlərinin xarakterini yazıçı bu metaforik fikirlə əks etdirir. Luizanın işlətdiyi bu cümlə, günəşin Yerdəki həyat üçün nə qədər vacib olduğu kimi, Uillin də onun həyatında nə əqdər vacib, müəyyənedici fiqura çevrildiyini göstərir.

*"A life worth living."* Bu metaforik fikir romanın seçim, muxtariyyət və həyat keyfiyyətinin araşdırılmasının mərkəzində dayanır. Uill'in həyatı və ölümü ilə bağlı qərar bu metafor ilə bağlıdır və onu əsəri idarə edən əsas tematik element halına gətirir.O, əzablar qarşısında həyatın dəyərini sorğulayır, ləyaqətlə, məqsədlə yaşamağın nə demək olduğunu sual altına alır. Uill, güzəştə getmiş vəziyyətdə yaşamaq ideyası ilə

**doi.org/10.36719/2663-4619/2025/XVII**

mübarizə aparır, asılılıq və məhdudiyyət həyatının davam etdirilməsinin dəyərinin olub olmadığını soruşur.

*"My heart feels like it's been cracked open."* Yazıçı bu cümlə ilə oxuculara Luizanın dərin kədərini və onun dramatik dəyişikliyin dərinliyini anlamağa kömək edir. Bu, Uillin qərarının ona necə dərindən təsir etdiyini və bir növ daxili parçalanmaya səbəb olduğunu göstərir. Luiza Uillə olan sevgisi və onun həyatına son qoymaq qərarı ilə bağlı çətinliklərlə mübarizə apararkən hiss etdiyi emosional məhvini ifadə etmək üçün bu metaforik cümləni işlədir."Cracked open" dərin emosional yara ideyasını çatdırır, onun həssaslığını və onunla münasibətlərinin çətin emosional relyefi ilə hərəkət edərkən özünü necə məruz qaldığını simvollaşdırır.

Araşdırmadan belə qənaətə gəlirik ki, C.Moyes dərin emosional vəziyyətləri, münasibətləri və şəxsi dəyişiklikləri araşdırmaq üçün bu əsərdə metaforlardan səmərəli istifadə edir. Metaforlar təkcə personajların daxili aləmlərini canlandırmağa kömək etmir, həm də oxucularda daha dərin səviyyədə rezonans yaradır, başqasının hisslərini başa düş-məyi və bölüşmək bacarığı yaradır. C.Moyes metafor vasitəsilə yaratdığı bu əsərinə zənginlik əlavə edərək, ona sevgi, itki, fədakarlıq və özünü kəşf kimi mürəkkəb mövzuları həm təsirli, həm də yaddaqalan şəkildə çatdırmağa imkan verir.

doi.org/10.36719/2663-4619/2025/XVII

**Vaqif Dadaşzadə**
Hərbi Elmi-Tədqiqat İnstitutu
doktorant
https://orcid.org/0009-0003-7805-3866
vaqif.d@bsu.edu.az

# AZƏRBAYCAN-ÇİN ƏMƏKDAŞLIĞININ ƏHƏMİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *Çin, ikitərəfli əməkdaşlıq, İpək Yolu, Şərq-Qərb nəqliyyat dəhlizi, strateji tərəfdaşlıq*
***Keywords:*** *China, bilateral cooperation, Silk Way, East-West transport corridor, strategic partnership*

Azərbaycanın xarici siyasət prioritetlərinə milli maraqların qorunması, regional sabitliyin təmin edilməsi və beynəlxalq əməkdaşlığın artırılması daxildir. Bu siyasət çərçivəsində ölkəmizin Çin Xalq Respublikası ilə əlaqələri xüsusi əhəmiyyət kəsb edir. BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü, iqtisadiyyatın həcminə görə dünyada ikinci dövlət olan Çin ilə müxtəlif sahələrdə inkişaf edən əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm yer tutur və həm regional, həm də qlobal proseslərdə balanslaşdırılmış yanaşmanın göstəricisidir.

Azərbaycan və Çin arasındakı münasibətlərin başlanğıcı qədim İpək Yolu dövrünə təsadüf edir. Ölkəmiz həmin dövrdə regional ticarət mərkəzlərindən biri olaraq İpək Yolu şəbəkəsində mühüm rol oynamışdır. Bu tarixi ticarət yolu iki ölkəni iqtisadi baxımdan birləşdirmiş, ikitərəfli əməkdaşlığı əsrlər boyu ticarət, mədəniyyət və diplomatiya sahələrində qarşılıqlı faydalar ilə zənginləşdirmişdir.

Müasir dövrdə Azərbaycan ilə Çin arasında diplomatik münasibətlər 1992-ci ildə qurulmuşdur. Azərbaycan Çin Xalq

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Respublikasının "Vahid Çin prinsipi"ni dəstəkləmiş, Çin isə Azərbaycanın ərazi bütövlüyünü tanımışdır. Sonrakı illərdə tərəflər arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələr sürətlə inkişaf etmişdir.

Bu gün Azərbaycan öz geosiyasi və iqtisadi potensialından istifadə edərək, Asiya və Avropa arasında bir körpü rolunu oymaqdadır. Azərbaycanın geosiyasi mövqeyi onun Çinlə əməkdaşlığını daha da vacib edir. Mərkəzi Asiya və Yaxın Şərqə yaxın olan Azərbaycan regional təhlükəsizlik və əməkdaşlıq məsələlərində Çinin maraqları ilə üst-üstə düşən mövqeləri bölüşür. Ölkəmizin coğrafi mövqeyi Çini Avropa ilə birləşdirən əsas tranzit xəttlərindən biri (Orta Dəhliz) kimi hazırda xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan 2015-ci ildə Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə Azərbaycanın qoşulması ölkəmiz üçün yeni perspektivlər açmışdır. Bu təşəbbüs çərçivəsində Çin ilə əlaqələr strateji əməkdaşlıq səviyyəsinə çataraq müxtəlif sahələrdə, xüsusilə ticarət, enerji və nəqliyyat sahələrində dərinləşmişdir.

"Bir kəmər, bir yol" təşəbbüsü Çinin 2013-cü ildə irəli sürdüyü qlobal miqyaslı infrastruktur və iqtisadi layihədir. Bu təşəbbüs qədim İpək Yolu marşrutlarının bərpasını və yeni ticarət əlaqələrinin qurulmasını hədəfləyir, qlobal iqtisadi inteqrasiyanı təşviq edərək Asiya, Avropa və Afrika ölkələri arasında əməkdaşlıq üçün unikal platforma təqdim edir. Azərbaycan bu təşəbbüsdə xüsusi əhəmiyyətə malikdir, çünki ölkəmiz Avropa ilə Asiya arasında beynəlxalq nəqliyyat və logistika qovşağı kimi çıxış edir.

Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin inkişafında son illər ərzində mühüm addımlar atılmışdır. İkitərəfli ticarət dövriyyəsi hər il artmaqdadır. Çin Azərbaycan üçün əsas ticarət tərəfdaşlarından biri olmaqla yanaşı, müxtəlif məhsulların, o cümlədən texnologiya, maşınqayırma və istehlak mallarının

**doi.org/10.36719/2663-4619/2025/XVII**

təchizatçısıdır. Eyni zamanda, Azərbaycanın qeyri-neft sektoru məhsulları da Çin bazarına ixrac edilir. Çindən Azərbaycana sərmayə axını ölkəmizin iqtisadi dayanıqlığını artırır. Bakı-Tbilisi-Qars dəmiryolu və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı kimi infrastruktur layihələri "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycanın tranzit potensialını artırır, ölkənin regional iqtisadi mərkəz kimi mövqeyini gücləndirir.

Bütün bunlar hər iki ölkənin strateji əməkdaşlığının yeni mərhələyə keçməsinə şərait yaratmışdır. 2024-cü ilin 3 iyul tarixində Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında "Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" imzalanmışdır. Beləliklə, iki ölkə arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Bu saziş iki ölkə arasında diplomatik münasibətlərin qurulduğu 1992-ci ildən bəri müxtəlif sahələrdə əldə edilmiş nəticələri vurğulayır və gələcək əməkdaşlığın inkişafı üçün yeni istiqamətlər müəyyən edir. Tərəflər qarşılıqlı hörmət, bərabərlik, etimad və qarşılıqlı dəstək prinsiplərinə əsaslanaraq strateji tərəfdaşlıq qurduqlarını bəyan edir. Bəyannamədə siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyətin gücləndirilməsi və regional sülhün təmin edilməsi istiqamətində birgə fəaliyyətin artırılması nəzərdə tutulur.

Bəyannamənin əsas istiqamətləri aşağıdakılardır:

- Siyasi dialoq və beynəlxalq əməkdaşlıq: saziş iki ölkə arasında siyasi dialoqun dərinləşdirilməsini əsas tutur, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilir, iki ölkə beynəlxalq platformalarda müttəfiq kimi çıxış edir.
- İqtisadi əməkdaşlıq və nəqliyyat: Çin Azərbaycanın qeyri-neft sektoru üçün mühüm investor kimi çıxış edir, yeni

doi.org/10.36719/2663-4619/2025/XVII

texnologiyaların Azərbaycana gətirilməsi reallaşır, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycan Orta Dəhlizin əsas tranzit mərkəzi kimi möhkəmlənir.

- Enerji layihələri: SOCAR və Çinin enerji şirkətləri arasında yeni layihələr nəzərdə tutulur, təmiz enerji və yaşıl texnologiyalar sahəsində əməkdaşlıq gücləndirilir.
- Humanitar əlaqələr: mədəniyyət, təhsil və elm sahələrində mübadilələr aparılır, o cümlədən ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulur.

Nəticə etibarilə, 2024-cü ildə imzalanmış strateji tərəfdaşlıq sazişi Azərbaycan və Çin arasında əməkdaşlığın tam yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bu əməkdaşlıq hər iki ölkənin milli maraqlarına uyğun olaraq regional və qlobal səviyyədə iqtisadi inteqrasiya, qarşılıqlı siyasi dəstək və hərtərəfli inkişafın təmin edilməsinə töhfə verəcəkdir. Nəzərə alsaq ki, Çin iqtisadiyyatının qlobal təsiri getdikcə artır, bu Azərbaycanın iqtisadiyyatı üçün, o cümlədən ölkənin Şərq-Qərb nəqliyyat dəhlizində mühüm mövqe tutması üçün əlverişli imkanlar yaradır.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 28-30**
**Scientific Sources XVII Collection of Theses / 28-30**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Şəbnəm Seyidova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
https://orcid.org/0009-0007-2836-186X
elchinseyidov@gmail.com

# BİOLOGİYANIN TƏDRİSİNDƏ PROBLEMLİ SUALLARIN TƏTBİQİ İLƏ ŞAGİRDLƏRİN TƏDQİQATÇILIQ FƏALİYYƏTİNƏ CƏLB EDİLMƏSİ

***Açar sözlər:*** *şagird, bilik, ümumtəhsil məktəbləri, tədris, bacarıq*

***Keywords:*** *student, knowledge, secondary schools, teaching, skills*

Ümumtəhsil məktəblərinin, o cümlədən biologiyanın tədrisinin əsas vəzifələrindən biri şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsidir. Bilik və bacarıqlar şagirdin idrak fəaliyyətinin, xüsusilə tədqiqatının məhsuludur. Ona görə də fənlərin tədrisində şagirdlərin idrak fəallığı artırılır, tədqiqatçılıq bacarıqları inkişaf etdirilir.

Şagirdlərin tədqiqatçılıq bacarıqlarına:

- Tədqiqat aparmaq, alınan nəticələri müqayisə və təqdim etmək;
- Müşahidə, eksperiment aparmaq, qərar qəbul etmək;
- Mövzuya uyğun təqdimat, layihə hazırlamaq;
- Təcrübə qoymaq, nəticələri ümumiləşdirmək, biliklərini praktikada tətbiq etmək və başqaları aid edilir.

Şagirdlərin tədqiqatçılıq fəaliyyətinə cəlb edilməsində problemli təlimin, xüsusilə problemli sualların tətbiqi çox faydalıdır. Belə ki, təlim fəaliyyətində informasiyalı və problemli suallardan istifadə edilməsi zərurəti meydana çıxır. Təbiidir ki,

**doi.org/10.36719/2663-4619/2025/XVII**

dərsdə müəllim uşaqlara müntəzəm olaraq suallar verir. Bu çox vaxt əvvəlki biliklərin şagird tərəfindən necə mənimsədildiyini öyrənmək məqsədilə həyata keçirilir.

Şagirdlərin idrak fəallığının yüksədliməsində problemli sualların rolu böyükdür. O suallar problemlidir ki, onların cavabı şagird üçün müəyyən dərəcədə intellektual çətinlik törədir. Problemli sual adi informasiyalı sualdan fərqlənir, özündə açılmamış problemi, məlum olmayan yeni bilikləri, onların əldə olunması üçün hər hansı zəruri intellektual fəaliyyəti, müəyyən məqsədə istiqamətlənmiş əqli prosesi saxlayır. Bu isə şagird tədqiqatının təşkili ilə həyata keçirilir.

Problemli sual problemin şifahi ifadə olunması olub, özündə müəyyən məntiqi-psixoloji məzmun daşıyır. Belə ki, problemli suallar:

- əvvəllər əldə olunmuş anlayışlarla, təsəvvürlərlə, mövzularla (mənimsəmənin yerinə yetirilməsində iştirak edən) məntiqi əlaqəyə malik olur, müəyyən tədris situasiyasında belə proseslər yaranır:
- özündə idrak çətinliyini saxlayır, onun cavabı bir sıra əqli əməliyyatlarla (mübahisə, ümumiləşdirmə, sistemləşdirmə və s.) əldə edilir;
- şagirdlərin emosiyaları ilə bağlanır, əvvəl məlum olanlarla yeninin müqayisəsi zamanı, mövcud bilik, bacarıq və vərdişlərin ehtiyatının kifayət etməsi təəccüb hissi yaradır.

Problemli suallar bir sıra ümumi qaydalar əsasında hazırlanır. Belə ki, müəllimin müəyyən tədris situasiyasında elə suallar qoyulur ki, onlar şagirddən əvvəlcə öyrənilmiş materialı yaddaşda periodik olaraq bərpa etmək, aktuallaşdırmaq, öyrənilmiş bilikdəki əsas fikri ayırmaq (yeni mövzu üzrə verilən suallarda əhatə olunan) tələb olunur.

Sualların mənimsənilmiş biliklərə münasibətdə sadəcə onların bərpa edilməsi yox, yeni problemin həlli üçün keçmiş

doi.org/10.36719/2663-4619/2025/XVII

biliklərdən yaradıcılıqla istifadə olunması tələbini özündə saxlaması zəruridir. Belə yaradıcı cavab şagirddən mühakimə və əqli nəticə, fakt və hadisələrə tənqidi yanaşmağı, müstəqilliyi və tədqiqat aparmağı tələb edir. Problemli suallar şagird əqlini baxılan cisim və hadisələrin, faktların mahiyyət cəhətlərinə yönəltməli, dialektik təfəkkürün formalaşmasına istiqamətləndirməlidir.

Belə suallar elə şəkildə müəyyənləşdirilir ki, şagird fakt və hadisələrə qarşılıqlı əlaqədə, həm də bunlara hissələr, elementləri üzrə yox, bütövlükdə, tam halda baxmağa məcbur olur. Sualların qoyuluşunun effektliyinin dəyişməz şərti məntiqin qayda və qanunauyğunluqlarının gözlənilməsidir. Bütün bunlar şagirdin tədqiqatçılığına stimul verir.

Elmi Mənbələr XVII Tezislər Toplusu / 31-35
Scientific Sources XVII Collection of Theses / 31-35
doi.org/10.36719/2663-4619/2025/XVII

**Məhəmməd Əsgərov**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0000-0003-2512-9903
mahammadasgarov@sport.edu.az
**Arif İbrahimli**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0000-0003-1624-7246
arifibrahimli@sport.edu.az

# AZƏRBAYCANIN QƏDİM QOBUSTAN ƏRAZİSİNDƏ FİZİKİ HƏRƏKƏTLƏRİN MEYDANA GƏLMƏSİ

***Açar sözlər:*** *Azərbaycan, qədim Qobustan, qayaüstü təsvirlər, ov ovlamağ, at çapma, heyvandarlıq, kollektiv rəqslər, fiziki hərəkətlər*

***Keywords:*** *Azerbaijan, ancient Gobustan, rock carvings, hunting, horseback riding, animal husbandry, collective dances, physical movements*

Qədim zamanlardan oyunlar Azərbaycan xalqının mənəvi mədəniyyətinin tərkib hissəsi olmuş və İnsanların gündəlik həyatında böyük rol oynamışdır. Xalqlar oyunlar vasitəs ilə insanın daxili aləminin və dünya görüşünün inkişaf etdirilməsinə nail olmuşlar. Azərbaycanın qədim oyunlarının ibtidai başlanğıcı əsasən Qobustan və digər qayaüstü təsvirlərdə öz əksini tapmışdır. Qobustan həmçinin açıq havada muzey adlanır. Qobustan mənzərəsi baxanları heyran qoyur. Böyük Qafqaz Dağlarının cənub-şərq ətəklərində yerləşən Qobustan dağ mənzərəsi, Xəzər dənizinin yaxınlığında, qədim Şirvan yolu boyunca tikilən müasir magistral yolun kənarında yerləşir. Qobustan şərqi Azərbaycanda, Qafqaz dağlarının cənub-şərq ətəkləri ilə Xəzər dənizi arasında 100 km-ə qədər diametri olan,

doi.org/10.36719/2663-4619/2025/XVII

çoxlu qobularla (qədim çay yataqları və yarğanlar) kəsilən, yarımsəhra dağətəyi böyük coğrafi rayondur (Gözəlov, İmanov, 2017, s. 5-7).

Coğrafi baxımdan, bu ərazi əlverişli şəraitdə yerləşmişdir. Qobustan ərazisində çoxsaylı daş rəsmləri, qədim insan məskənləri və qəbirüstü abidələri aşkar edilmişdir. Bu daşlar, regionun 15.000 illik həyat tarixini əks etdirir. Qobustan Azərbaycanın tarixi hadisələrini zaman ardıcıllığı ilə əks etdirən varlığdır. Qobustan ərazisinin tarixi-incəsənət qoruğu, tariximizin layiqli qədim məkandır. Qobustan, Azərbaycan tarixinin bir vizit kartıdır. Qobustan rayonunun 16 kilometr şimal-qərbində, əkin sahələrindən ibarət münbit yaylaların qoynunda yerləşən Sündü kəndinin qədim tarixi var. Sündü kəndində yerləşən mağaralar (şəkil-1) kəndin qədim dövürlərə məxsus olduğunu xəbər verir.



(Şəkil - 1)

Qobustan sözü Türk dillərində "qobu-kobu" sözü "yarğan, boşluq, yarısəhra" anlamına gəlir. Digər bir verisyaya görə isə Qobustan sözünün ilkin forması ***Gavistan*** şəklində olmuşdur. Başqa bir versiyaya görə isə bu yerin adı *Kəbristan* olmuşdur. "Kəbr" oda sitayiş edən, "stan" isə diyar anlamında kimi qəbul

**doi.org/10.36719/2663-4619/2025/XVII**

edildikdə söz oda sitayiş edənlərin diyarı kimi anlaşılmaqdadır. Bu versiyaya görə, bu yerlərdə atəşpərəstlər yaşamış, ona görə də ərazi Kəbrstan adlandırılmışdır.

Qobustanda Kiçikdaş dağında «Qaya arası», Böyükdaş dağında «Ana zağa» (şəkil-2) və «Kənizə dağ» (şəkil-3) düşərgələrində hələ yuxarı paleolit dövründən başlayan həyat təbii hadisələrlə əlaqədar qısa müddətlərdə dayansa da, yenidən canlanıb və orta əsrlərə qədər davam etmişdir (The geography of the Republic of Azerbaijan in 3 Vol., 2014, s. 19-20).


(şəkil-2)


şəkil-3)

Qobustanı dünyaya tanıdan da onun qədim sakinlərinin yaratdıqları, 15-20 minillik tarixi dövrü əhatə edən qədim qayaüstü təsvirlər və müxtəlif tarixi - arxeoloji abidələrdir. Buradakı üzəri 10-15 metr qalınlığında əhəngdaşı təbəqəsi ilə örtülü, zirvəsi mizin üstü kimi düz, daş dövründə sürək üsulu ilə ov etmək üçün təbii tələ, tunc dövründə kənar qüvvələrdən (qəbilələrarası basqın və vuruşmalardan) qorunmaq üçün təbii qala olmuşdur.

Qobustanda arxeoloji qazıntı aparılmış daşaltı sığınacaqlarda düşərgənin divarlarını təşkil edən qayaların mədəni təbəqə örtmüş aşağı səthlərində də yüzlərlə qədim təsvirlər

doi.org/10.36719/2663-4619/2025/XVII

aşkar edilmişdir. Qayaüstü təsvirlərin öyrənilməsi və xüsusən, dövrlərinin müəyyənləşdirilməsi işində mədəni təbəqə altından aşkar edilmiş bu kimi daşlar üzərindəki qədim rəsmlərin elmi əhəmiyyəti qədərsizdir. Göstərilən daşlardakı rəsmlər bu ərazidə oxşar təsvirlərin bir növ doğum şəhadətnaməsi sayıla bilər. Ona görə də Qobustanın qədim qayaüstü təsvirlərini xalqımızın qədim mədəniyyətinin və tarixi inkişaf yolunun güzgüsü saymaq olar.

Qobustan çox geniş mövzulu, dərin məzmunlu 15-20 minillik tarixi dövrdə tarixin inkişaf yollarını işıqlandıran şəkillər qalereyasıdır. Bu ərazidə ilk dəfə aşkar edilən daş oyma vasitələri ilə tətbiq edilən alətlərdən düzəldilmiş daş rəsmləridir. Bu rəsmlərdə balıqçılıq, ev təsərrüfatı səhnələri, heyvandarlıq, kollektiv rəqslər, günəş simvolları hesab edilən svastika(ucları düzbucaq şəklində qatlanmış xaç nişanı), spiral, xaç, ulduza bənzər müxtəlif elementlər daşlara həkk olunub. Rəsimlərdə daşlara həkk olunmuş kişi və qadın təsvirləri də mövcuddur. O dövrlərdə qadınlarda kişilərlə birgə ov edirdilər.

Burada, həmçinin dağ keçiləri, aslanlar, öküzlər, qayığ və insan ayaq izlərinin təsvirləri də görünür. Qobustanda qeyri-adi "qazanlar" da var ki, bunlar daşlara oyulmuş və naxışlarla bəzədilmiş çuxurlardır (Quliyev, 2021, s. 24-26).

Son zamanlar aparılan tədqiqatlar göstərir ki, hələ qədim zamanlarda Azərbaycan ərazisində nizə və ox atmaqla, qılınc oynatmaqla, güləşmə və s. ilə məşğul olmuşlar. Bütün bunlar Azərbaycanda fiziki tərbiyənin meydana gəlməsinə təkan vermiş, müdafiə və hücum xarakterli müxtəlif növ fiziki hərəkətlərdə öz əksini tapmışdır. Atçapma, nizə tullamaq, cürbəcür oyunlar öz inkişafı mərhələsinə qədəm qoymuşdur.

Tarixi mənbələrə və arxeoloji qazıntılara istinad edərək qeyd etmək lazımdır ki, qədim qobustan ərazisində ox, nizə atanlar və atlılardan ibarət dəstələr yaradılmışdır. Azərbaycan

Zərdüştülüyün vətəni olduğu kimi ən qədim dövürlərdən milli oyunların vətənidir. Qədim Azərbaycanlıların müqəddəs saydığı Avesta kitabındakı məlumatlara görə cəngavərlik, igidlik, pəhləvanlıq, at çapmaq, güləş, ox atma yarışlarında iştirakının tarixi ən qədim dövürlərə təsadüf edərək bu günə qədər dəyişmədən qalmaqda davam edir. Şifahi xalq ədəbiyyatının bütün janrlarında fiziki tərbiyənin öz əksini tapdığını müşahidə edirik. Qeyd etməliyik ki, dastanlardakı xalq qəhrəmanlarının igid, cəsur, dözümlü, mübariz və qorxmaz olmaları onların müxtəlif növ oyunlarla, fiziki hərəkətlərlə iradə və bədənlərini möhkəmləndirmələrinə səbəb olmuşdur (Muxtarlı, 2023, s. 89-95).

Hazırda Gobustan, UNESCO-nun Ümumdünya Siyahısına daxil edilməsi üçün namizəd göstərilib. Qobustan ərazisi Azərbaycanın ən qədim tarixi məkanlarından hesab edilir.

## Ədəbiyyat

1. Gözəlov, F., İmanov, M. (2017). Qarabağ xalq oyunları və meydan tamaşaları. Bakı.
2. Muxtarlı, E. A. (2023). Tarix, insan və cəmiyyət, (38).
3. The geography of the Republic of Azerbaijan in 3 Vol. (2014). Vol. I. Baku, Europe Publ.
4. Quliyev, D. (2021). Qarabağın idman tarixi. Bakı.

Elmi Mənbələr XVII Tezislər Toplusu / 36-43
Scientific Sources XVII Collection of Theses / 36-43
doi.org/10.36719/2663-4619/2025/XVII

**Sədyar Bağırov**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0001-1370-9989
sadyar.baghirov@sport.edu.az
**Elxan Cabbarov**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0001-9250-1640
elkhan.jabbarov@sport.edu.az

# QARABAĞIN MƏDƏNİYYƏT TARİXİ

***Açar sözlər:*** *Qarabağ, Mədəniyyət, Milli idman oyunları*
***Keywords:*** *Karabagh, Culture, National sports games*

Azərbaycan qədim mədəniyyətə malik ölkələrdəndir. Arxeoloji qazıntılar təsdiq edir ki Azərbaycanda ibtidai insanlar hələ paleolit dövründə peyda olmuşdurlar. Insanlar həmişə təbii qüvvələrin təsirinə məruz qalmaqla mübarizədə bərkimişdir. Mövcudluq uğrunda gündəlik mübarizədə fiziki keyfiyyətlər və hərtərəfli hərəkət fəaliyyəti tələb edirdi. Qədim insan fəaliyyətinin əsas cəhəti ovçuluq idi. Neolit dövründə kaman və ox meydana gəlir. Ovçuluq alətlərinin meydana gəlməsi, həmçinin təkminləşdirilmiş daş silahlarının tədbiq edilməsi, heyvanların əhilləşdirilməsinə keçid və yeni mədəniyyət formalarının inkişafına şərait yaradır. İnsan cəmiyyətinin təşkilat formaları daha sabit şəkil alır. Bu dövürdə fiziki təmrinlər tərbiyənin əsas vasitəsinə çevrilir.

Arxeoloji kəşiflər xəbər verir ki, Azərbaycanın tarixi ərazisində yaşayan qəbilələr əla döyüşçülər olmuşlar. Azərbaycanın cənub hissəsində Urmiya (Urmiya gölü-İranın Şərqi Azərbaycan və Qərbi Azərbaycan vilayətləri arasında, Türkiyə ilə sərhəddən bir qədər aralıda yerləşən qapalı, duzlu göl)

**doi.org/10.36719/2663-4619/2025/XVII**

gölündən cənubda və şərqdə ölkənnin ən qədim qəbilələrindən biri olan manneylər (Manna, Minni və ya Manas e.ə. IX əsr-e.ə. VI əsrlərdə tarixi Azərbaycan ərazisində, indiki Cənubi Azərbaycanın şimal-qərbindəki Urmiya gölünün sahilində qədim dövlət) yaşayırdı. Onların yaşadığı ərazi Manna adlanırdı.

Artıq eradan əvvəl IX əsrdə manney qəbilələrinin birləşməsi baş baş verdi və Manna dövlətinin rüşeyimi yarandı. Manna dövlətində əkinçilik və maldarlıq geniş inkişaf edirdi. Manna atları böyük şöhrət qazanmışdır. Həmin atlar öz gücü və dözümü ilə şöhrət qazanmışdır. Tarixi Azərbaycanın qəbilələri at cıdırlarına xüsusi əhəmiyyət verirdi. Herodort (Herodot yun. Hērodotos Halikarnāsseus; təq. e.ə. 484, qədim yunan tarixçisi) göstərirdi ki, Azərbaycan qəbilələri uşaqlara 5-yaşdan 25-yaşına kimi yalnız üç fənn təlim eirdilər: at çapmaq, kamandan ox atma və dürüstlük. Qobustandakı arxeoloji kəşflər həm də cıdır və qaçışların populyarlığından xəbər verir.

Qədim dövürlərdə və orta əsirlərdə Azərbaycanda fiziki tərbiyə məsələlərinin öyrənilməsi üçün dini ayinlər toplusu olan "Avesta" mühüm mənbə sayılırdı. Elmi tədqiqatların nəticələri göstərir ki, mədəniyyət və bədən tərbiyəsi Azərbaycanda başqa ölkələrdən geri qalmayaraq inkişaf edirdi. Azərbaycanın mədəniyyəti, ovçuluğu kaman və oxun ən erkən təsvirləri Qobustan qayaüstü rəsimlərində öz əksini tapmışdır (Mərcanlı, Hacıyev, Əhmədov, 2018, s. 6-7).

XI-XII əsirlərin xarakterik xüsusiyyəti Azərbaycan ölkəsinin və şəhərlərinin intensiv inkişafı idi. Qarabağın ədəbi tarixi çox qədimdir. Qarabağ bölgəsi nəinki, Azərbaycanın, həmçinin dünya ölkələrinin bir çox bölgələrindən fərqli olaraq daha qədim tarixə malik olan bir ərazidir. Məhz, Qarabağ bölgəsi özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Qarabağın bədii təfəkkür və yaradıcılığına bölgənin gözəl

**doi.org/10.36719/2663-4619/2025/XVII**

təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də böyük təsir göstərmişdir.

Bu bölgə zaman-zaman bəşər mədəniyyətinə böyük dahilər, istedadlı sənətkarlar bəxş edib. Musiqinin, təsviri sənətin, şeirin, el nəğmələrinin beşiyi olan qədim Qarabağ haqqında müxtəlif qaynaqlarda, xüsusən də qədim Suriya mənbələrində maraqlı məlumatlar var.

Azərbaycan xalqının fiziki inkişafı onun humanisliyi, öz torpağının sədaqəti, əməksevərliyi barədə XII-əsrin şair mütəfəkkiri Nizami Gəncəvi kifayət qədər əhatəli yazmışdır. Xalq şairi Nizami qəhrəmanları heyrətamiz gücə, dözümə, mətinliyə və s. malikdirlər. Azərbaycan xalq şairi Nizami gəncəvi fiziki tərbiyəyə bir ehkam kimi yox, inkişaf prosesində formalaşan anlayış kimi baxırdı. Nizaminin əsərlərində Azərbaycan milli oyunları və əyləncələri barədə hekayələr böyük yer tutur ki, nəticə etibarı ilə bu da mənəvi və fiziki tərbiyənin vahid xalq sistemini yaradırdı. At idman oyunu "Çövqan" Azərbaycanda qədim zamanlardan bəri çox geniş yayılmış bir oyun idi. Azərbaycan zadəganları üçün bu oyun gənclərin tərbiyəsinin ayrılmaz bir hissəsi idi və xalq bayramları proqramına daix idi. Çövqan oyunları zamanı qaliblər mükafatlar alırdılar. Azərbaycanın özünəməxsus xalq fiziki tərbiyə sistemi gənclərin fiziki gücünü, onların iradə və xarakterinin möhkəmlənməsinə, bütün həyat çətinliklərinə dözmək bacarığının tərbiyə olunmasına, əmək fəaliyyətində və hərbi hazırlıqda zəruri olan tədbiqi vərdişlərinin əldə edilməsinə yönəldilmişdir. Fiziki tərbiyənin bu forması əmək fəaliyyəti prosesində və hərbi hazırlıq zərurətindən yaranırdı.

Tarix Azərbaycanda elmin və ədəbiyyatın inkişafı, bədən tərbiyəsinin cəmiyyət həyatındakı əhəmiyyətini müəyyənləşdirir və xalqın bədən tərbiyəsinin ümumi inkişafına kömək edirdi. Azərbaycan xalqının mənəviyyatının və ədəbiyyatının

**doi.org/10.36719/2663-4619/2025/XVII**

inkişafında dahi şair Məhəmməd Füzulinin rolu çox böyükdür. Füzuli öz əsərlərində Azərbaycan uşaqlarının tərbiyəsində fiziki tərbiyənin əhəmiyyətini və inkişafını xüsusilə qeyd edirdi. Orta əsirlərdə hərbi əməliyyatlarınn nəticəsi döyüşçülərin və cəngavərlərin qabiliyyətlərindən aslı idi. Bununla əlaqədar Azərbaycanda feodallar arasında (Feodalizm dövründə torpaq mülkiyətçisi idi. Qərbdə Feodallar, krallar, hersoqlar, qraflar, baronlar, markizlər, vikontlar və sadəcə cəngavərlər sayılırdı. Şərqdə analoji olaraq xaqanlar, şahlar, xanlar, bəylər, məliklər və s. feodallara aid idi.) qılıncoynatma geniş yer almışdır. Azərbaycanın bir çox şəhərlərində qılıncoynatma yarışları keçirilirdi. Qılıncoynadanların yarışına qatılmaq üçün xüsusi qılınclar sifarış edilir, mürəbbilərin (mürəbbi keçmişdə: dövlətli ailələrində uşaqların təlim və tərbiyəsi ilə məşğul olan şəxs; tərbiyəçi, xüsusi müəllim.) rəhbərliyi altında məşqlər, yarlışlar keçirilirdi.

Fiziki hazırlığın və idmanın müxtəlif növləri üzrə ayrışların keçirildiyi üstüörtülü binalar “Zorxana” adlanırdı. “Zorxanada” təkcə idmanın ayrıca növləri üzrə yarışlar keçirilmirdi. “Zorxanada” akrobatların teatırlaşdırılmış çıxışları və rəqqasalrın tamaşaları da göstərilirdi.

Qarabağ iki sözün anlayışından ibarətdir. Qara sözü boyük, möhtəşəm, geniş mənasında işlənmişdir. Qarabağ sözünün mənası böyük bağ deməkdir. Sahəsi 50%-dən çox meşə və bağlarla örtülü olan ərazidir. Qarabağ şəhərinin tarixi VII-əsirdən başlayır. Qarabağ xanlığı (1747-1822) Pənahəli xan və İbrahimxəlil xanın hakimiyyəti dövründə öz suverenliyini saxlaya bilən Azərbaycan feodal dövləti idi. Onun paytaxtı Şuşa şəhəri olmuşdur. Qarabağ dağlarının birində ən yüksək zirvədə yerləşən Şuşa şəhəri mühüm strateji mövqe tutmuşdur (Qurbanov, 2002, s. 76-77).

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Azərbaycanın Qarabağ ərazisində nizə və ox atmaq, qılınc oynatmaq, pəhləvanlıq və güləşlə məşğul olmuşlar. Qısa tarixi dövürdə Şuşa şəhərində çoxlu istedadlı şairlər, alimlər, müəllimlər, pəhləvanlar və sənətkarlar yetişmişdir.

Bu baxımdan aparılan tədqiqatlar sübut edib ki, Azərbaycan mədəniyyətinin, tarixinin, ədəbiyyatının, o cümlədən milli idman oyunlarının tarixinin inkişafında və təkamülündə doğma vətənimizin ayrılmaz bir hissəsi olan Qarabağ mühiti əvəzsiz və böyük rolu oynayıb. Azərbaycan Sovet Ensiklopediyasının III-cü cildində yazılaraq məlumat verilmişdir ki, “Qarabağ” - Azərbaycanda tarixi vilayətdir.

Kiçik Qafqaz dağlarından başlamış, Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Keçmiş SSRİ ərazisində ən qədim insan məskənlərindən biri Azərbaycanın Qarabağ zonasında aşkar olunub (Mərcanlı, Hacıyev, Əhmədov, 2018, s. 67-71).

XVII-XIX-əsirlərdə Azərbaycanda qüvvətli və adlı sanlı pəhləvanlar çox olmuşdur. Azərbaycan milli idman oyunları XIX-əsirdə geniş inkişaf etmişdir. Respublika əlyazmalar fondunda saxlanılan “Əhvalati Qarabağ” adlı əlyazma əsəri diqqəti cəlb edir. “Əhvalati Qarabağ” əsərində İbrahim xanın məşhur saray xadimi Mirzə Vəlinin nəvəsi Baharlı 1888-ci ildə öz əsərlərinin birində yazmışdır ki: Şuşada Nabat adlı bir pəhləvan vardır. Heç kəs ona qalib gələ bilməmişdir. Şuşalı Nabat pəhləvan Təbrizdən, Badigubədən, Şəkidən, və digər şəhərlərdən Şuşaya gələn pəhləvanlara qalib gəlmişdir. “Əhvalati Qarabağ” əsərində Şuşalı nabat pəhləvanın Təbrizdə İran şahının məşhur saray pəhləvanına qalib gəlməsi səs-küyə səbəb olmuşdur.

Həmin dövürlərdə Azərbaycan pəhləvanları böyük şöhrət qazanmışdırlar (Acalov, 2002, s. 85-86). Atçılıq idman növüdə Azərbaycanda qədim zamanlardan inkişaf etmişdir. Əsas idman oyunlarından biri sayılan at üzərində ox atıb hədəf vurmaq

doi.org/10.36719/2663-4619/2025/XVII

idmanı Qarabağda yaranaraq Avropa ölkələrinin yarışlarında bu idman növü keçirilməyə başlamışdır. Azərbaycan idman oyunları və atları təkcə ölkəmizdə deyil xaricdə də qədim zamanlarda böyük şöhrətə malik olmuşdur (Qurbanov, 2002).

Qarabağın zəngin, özünəməxsus və maraqlı folklor nümunələrindən biri də milli mütəhərik xalq oyunlarıdır. Milli mütəhərrik xalq oyunlarının tarixi çox qədimlərə getməklə yanaşı, xalqın müxtəlif dövrlərdə adət-ənənələrini, etnoqrafiyasını özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarına, bütövlükdə xalqın oyun-tamaşa mədəniyyətinə dair ilk məlumatlara bir sıra qədim mənbələrdə rast gəlinir. Milli mütəhərrik xalq oyunların bir neçəsi Azərbaycanın Qarabağ zonasında inkişaf etmişdir (Əhmədova, 2020, s. 17-23).

Milli mütəhərrik xalq oyunları uşaq və yeniyetmələrdə sağlamlıq, vətənin müdafiəsinə hər zaman hazır olmaq kimi keyfiyyətləri özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarında qadınlarda kişilər kimi at çapma, çövgən, qılınc oynatma, ox atma kimi yarışlarda iştirak edirdilər. Qarabağda geniş yayılan xalq oyunlarından biri də “Dirədöymə” oyunudur. Bu oyunun oynanılması qaydası isə belədir: Uşaqlar iki dəstəyə ayrılıb, bir dairəvi cizgi çəkir və qürrə (püşk) atırlar. Qürrə hansı dəstəyə düşsə o dəstə mərəyə (dairəyə) girir. Uşaqlar hərəsi ayağının altına bir toqqa qoyur. Dairədən kənarda qalanlar toqqanı götürməyə çalışırlar. Dairədəkilər isə ayaqla vurur, toqqaları götürməyə yol vermirlər. Dairənin içərisində olanlar kənardakılardan birini ayaqla vursa, dairədəki uşaqlar kənara çıxır, kənardakılar dairəyə girirlər. Dairədən kənardakı uşaqlardan biri toqqanı ələ keçirsə, dairənin içərisində olan uşaqları toqqa ilə vurur, ayaqları altındakı toqqaları kənara çıxarıb götürməyə çalışırlar. Hansı dəstə toqqaları tamam ələ keçirsə qələbə qazanır. Dairədəkilərin ayaqlarından biri cızıqdan çıxmamaq şərti ilə kənardakılardan birini digər ayağı

**doi.org/10.36719/2663-4619/2025/XVII**

ilə vurana qədər kənardakılar içəridəkiləri toqqa ilə oyundan kənarlaşdırırlar. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır və yiyəsiz qalmış toqqanı götürməyə cəhd edir. Bu zaman içəridəkilər həm öz toqqalarını, həm də kənardakı yoldaşlarının toqqasını qorumalı olurlar. Yaxud əksinə, içəridəkilər kənardakılardan birini fəndlə tutub dairəyə salsalar, dəstələr yerlərini dəyişməli olurlar. Qarabağda məşhur olan bəzi xalq oyunları isə şeirlə ifa olunurdu. Bu isə, heç şübhəsiz ki, oyunu daha maraqlı edirdi (Mərcanlı, Hacıyev, Əhmədov, 2018, s. 34-48). Qarabağda geniş yayılmış oyunlardan biridə "Baharbənd" və "Papaq" oyunudur. At çapanlar bahar aylarının əvvəllərində çəmənliyə toplaşaraq oyuna başlayırlar. Azərbaycan bayramlarında əsas yeri milli mütəhərrik idman yarışları tuturdu. Bu bayramlarda milli xalq idman oyunları, güləş, nizə atmaq, oxatmaq və s. kimi idman növlərindən istifadə edilirdi. Öz qüvvəsi, çevikliyi, dözümlülüyü ilə fərqlənənlər yeniyetmə və gənclər həmin oyunlarda bacarıqlarını nümayiş etdirirdilər. Belə bayramalrdan biri də Novruz bayramıdır.

Bayram mərasimində musiqinin müşayəti ilə oğlanlar arasında güləş, cıdır, tonqal üzərindən tullanmaq yarışları, papaq oyunu kimi oyunlar keçirilirdi. Milli mütəhərrik xalq oyunları Azərbaycanın mədəniyyətini və tarixini inkişaf etdirir (Acalov, 2002, s. 107-108).

XVIII əsrin ikinci yarsında görkəmli Azərbaycan şairi Molla Pənah Vaqif Azərbaycan xalqının maariflənməsi, Qarabağda ədəbiyyat və incəsənətn inkişafı üçün çox işlər görmüşdür. Şüşa şəhərində yeni-yeni mədrəsələr açılır, ədəbi məclislər təsis olunurdu.

Görülən işlər xalqın bədən tərbiyəsinin əhəmiyyətinin düzgün başa düşülməsinə kömək edirdi. Qarabağ musiqisi, abidələri, mədəniyyəti və milli xalq idman oyunları bizim təkcə

**doi.org/10.36719/2663-4619/2025/XVII**

maddi-mədəniyyət abidələri deyil, eyni zamanda mədəniyyət tariximizin arxivi və sərvətidir (Sevda Əskər, 2022, s. 107-108).

## Ədəbiyyat

1. Acalov, E. F. (2002). Azərbaycanda fiziki tərbiyə və idmanın inkişafı. Monoqrafiya. Bakı.
2. Qurbanov, X. K. (2002). Milli güləşin klassik ədəbiyyatda tərənnümü. (Beynəlxalq elmi praktik konfransın materiallı). Bakı.
3. Mərcanlı, M., Hacıyev, Q., Əhmədov, S. (2018). "Qarabağ əsrlərin salnaməsi". Bakı.
4. Sevda Əskər. (2022). Qarabağ – tarixi-mədəni irsimizdən. Bakı.
5. Əhmədova, S. (2020). “Qarabağ ədəbi-mədəni mühiti. Monoqrafiya. Bakı.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 44-49**
**Scientific Sources XVII Collection of Theses / 44-49**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Xatirə Qocayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-5027-8970
qocaevaxatire199@gmail.com
**Zərəngiz Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0003-3917-7030
zerengizqasimova5@gmail.com

# AZƏRBAYCANIN QARABAĞ DİYARINDA QƏDİM MƏDƏNİYYƏTİN, MUSİQİNİN MİLLİ XALQ OYUNLARININ VƏ TAMAŞA OYUNLARININ TARİXİ

***Açar sözlər:*** *oyun, xalq teatrı, təsnifat, musiqi, qədim xalq idman oyunları*
***Keywords:*** *game, folk theater, classification, music, ancient folk sports games*

Xalq mahnıları, musiqi, zəngin mədəni-tarixi abidələr, xalçaçılıq, qədim milli xalq və idman oyunları, Azərbaycan xalqının mənəvi mədəniyyətinin tərkib hissəsi olmuş və həyatında böyük rol oynamışdır. Xalqlar mahnıları, oyunlar, xalçaçılıq, mədəniyyət, insanların daxili, ruhi aləmi ilə bağlı olan mənəviyyat və mənəvi dəyərlər vasitəs ilə insanın daxili aləminin dünya görüşünün inkişaf etdirilməsinə nail olmuşlar. Azərbaycanın qədim mədəniyyəti və milli xalq oyunlarının ibtidai başlanğıcı əsasən Qobustan və digər qayaüstü təsvirlərdə öz əksini tapmışdır. Qədim Azərbaycan mədəniyyət, incəsənət, milli xalq oyunları, tamaşa oyunları sahəsində həmişə fərqlənmişdir. Qədim dövürdə yaşayan insanlar at çapmağı, ov ovlamağı sevirdilər. Qobustan sözü Türk dillərində "qobu-kobu" sözü "yarğan, boşluq, yarısəhra" anlamına gəlir. Digər

bir verisyaya görə isə Qobustan sözünün ilkin forması ***Gavistan*** şəklində olmuşdur. "gav" farsca öküz, inək, "stan" isə diyar anlamında yer bildirən şəkliçidir. Azərbaycanın qədim Qarabağ ərazisi xalq mahnılarının, mədəni-tarixi abidələrin, xalçaçılığın, milli xalq idman oyunlarının, tamaşa oyunlarının flora, fauna kimi sərvətləri ilə Azərbayvcanın dünyada məşhur olan bir bölgəsidir (Quliyev, 2013, s. 37-39).



20-dən çox kitabın müəllifi Vasif Quliyev (*publisist, Vasif Quliyev 1954-cü il yanvarın 17-də Dağlıq Qarabağın Şuşa rayonundakı Malıbəyli kəndində anadan olmuşdur. Orta təhsilini Xankəndidə 4 saylı məktəbdə almışdır. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışmışdır (1982-1984). Hazırda "Günəş" uşaq jurnalının baş redaktoru və "Şuşa" nəşriyyatının direktorudur. Ədəbi yaradıcılığa tələbəlik illərindən başlamışdır. "Ulduz", "Qobustan", "Müxbir" jurnallarında və qəzetlərdə publisist məqalələrlə çıxış etmişdir. 2015-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub.*) Qarabağ tarixi, qədim diyarın etnoqrafiyası barədə bildirir ki, geniş yayılan xalq mahnılarından biri olan "Sarı bülbül"ün maraqlı tarixi var: "İran hökmdarı Ağa Məhəmməd şah Qacar Şuşada qətlə yetiriləndən sonra Qarabağ şahı İbrahimxəlil xan Cavanşir İran dövləti ilə münasibətləri qaydasına qoymam məqsədi ilə öz

**doi.org/10.36719/2663-4619/2025/XVII**

sevimli qızını Ağabəyim ağanı (Ağabəyim ağa İbrahimxəlil xan qızı Cavanşir) hakimiyyətə yeni gəlmiş Fətəli xan Qacara ərə verir. Bununlada Ağabəyim ağa qərib ölkədə vətən həsrəti ilə yaşayır. Ağabəyim ağa bir gün Fətəli şahdan xahiş edib ki, Tehranda Qarabağda bitən gül-çiçəklərdən, kollardan və meyvə ağaclarından ibarət bir bağ saldırsın. Şah bu xahişi yerinə-yetirərək gözəl bir bağ saldırır və bağbanı da Şuşadan gətizdirir. Ağabəyim ağa bağın adını "Vətən bağı" qoyur. Şahın saldırdığı bağda Qarabağın bütün ağac və gülləri bitsə də, yalnız Qarabağ torpağını özünə vətən seçmiş xarıbülbül bitmir.



Qarabağda idman oyunları, meydan tamaşalarının toplanması və tədqiqi bu bölgədə musiqinin, oyun növlərinin zənginliyi, onların türk dünyası ilə paralelliyi barədə geniş təsəvvür yaradır. Bu bir daha sübutdur ki, Azərbaycan türkləri bölgədə ölkə ərazisində ən qədim zamanlardan yaşayan əhali qrupu olduğundan xəbər verir (Qasımov, 2006, s. 56-40).

Qarabağın mədəniyyətinə musiqisinə və xalq oyunlarına əsaslanaraq Azərbaycanda geniş miqyasda türk dünyasında oyunun və meydan tamaşalarının milli duyğuların formalaşmasında, milli kimliyin şəkillənməsindəki rolunu anlamaq mümkündür. Qarabağda rast gəlinən oyun və meydan

doi.org/10.36719/2663-4619/2025/XVII

tamaşaları çox az fərqlə Azərbaycanın başqa bölgələrində də mövcuddur. Bu oyunların əksəriyyətinə Türkiyədə, Orta Asiyada rast gəlinir. Azərbaycanın və türk dünyasının ayrı-ayrı bölgələrindən yazıya alınmış oyun və meydan tamaşalarının çoxu regional növləri və çeşidləri səviyyəsindədir.

Qədim Qarabağ diyarında rast gəlinən xalq oyunlarının böyük əksəriyyəti nəinki Azərbaycanın digər bölgələrində, həmçinin türk dünyasında müştərəkdir.

Təqribi aparılan hesablamalar və tədqiqatlara görə Azərbaycanda dialoq və monoloqlardan ibarət süjetli şifahi və ya yazılı mətni olmayan güc, çeviklik, əyləncə və öyrətmə-öyrənmə, məşq xarakterli oyunların sayı iki yüzə yaxındır. Təbii ki, bu oyunların da qısa və ya düzgü, təkərləmə tipində sözləri vardır, ancaq bunlar süjetli, teatral elementli olmayıb, sadəcə istiqamətləndirici xarakterdədir (Nəbiyev, 1988, s. 77-81).



Qədim Qarabağ diyarında çoxsaylı meydan tamaşaları və ya xalq teatrlarından bu günlərdədə fəaliyyətdədir. Dəyişən sosial, mədəni şəraitdə və əhalinin böyük hissəsinin məcburi köçə zorlanması nəticəsində oyunların və meydan tamaşalarının əksəriyyəti oynanılmaz olmuşdur. Bir vaxtlar Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Cəbrayılda geniş oynanılan Şəbih teatrı tamamilə unudulmuşdur. Qarabağ muğam

**doi.org/10.36719/2663-4619/2025/XVII**

məktəbinin, Azərbaycan teatr sənətinin inkişafında, aktyor kadrlarının yetişməsində əvəzedilməz rolu olan Şəbihlər haqqında yalnız yaddaşlarda bəzi detallar qalmışdır. Azərbaycanda geniş yayılan Şəbihin də əski türk yas törənləri ilə bağlılığı vardır. Şəbih meydan tamaşalarını bir vaxtlar qədim türklərdə yas mərasimlərində musiqinin müşayiəti ilə oxunan lirik şeir ritualı ilə bağlılıqı vardır. Oynama formasının və məqsədinin müxtəlifliyinə, rəngarəngliyinə baxmayaraq xalq teatrının qaynağı türk mifologiyası, ritualları idi. Burada kölgə və kukla oyunları da ritual səciyyə daşıyırdı. Qədim Qarabağ diyarında idman oyunları, teatr və tamaşalarda kukla və kilimarası oyunlarının ritualla bağlılığı onların struktur-semantik təhlilindən də görünür. Bu oyunların arxitektonikası, simvolları da ritual mahiyyətlidir. Qarabağdan toplanmış idman oyunu və meydan tamaşalarının kökündə tarixən formalaşmış sosial-mədəni münasibətlərin, dini görüşlərin əks olunduğu mərasim durduğu məlumdur.

Qədim Qarabağ diyarında xalq musiqisi oyun və meydan tamaşaları Azərbaycan türklərinin həyatının müxtəlif inkişaf mərhələlərini, yaşam tərzlərini, sosial və mədəni şəraitini, dünyagörüşlərini, etiqadlarını, inanc və tarixən formalaşmış sosial-mədəni münasibətlərin, dini görüşlərin psixologiyasını, əhvalruhiyyəsini, dosta və düşmənə münasibətini əks etdirir (Ağayev, 1992, s. 99-101).



doi.org/10.36719/2663-4619/2025/XVII

Azərbaycanın qədim Qarabag diyarının musiqisi, oyun və meydan tamaşaları insanın ictimai quruluşa və ictimai münasibətlərə aid varlıq olmasının, estetik dünyasının danılmaz simvollar və siqnallar sistemidir.

## Ədəbiyyat

1. Ağayev, H. (1992). Azərbaycan milli xalq oyunları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.
2. Quliyev, D. Q. (2013). Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf istiqamətləri (1970-1990). Monoqrafiya. Bakı: «Təknur» MMC-nin mətbəəsi. Bakı.
3. Qasımov. (2006). Azərbaycan xalq oyunları. Bakı: Bakı Universiteti Nəşriyyatı.
4. Nəbiyev, A. (1988). El nəğmələri, xalq oyunları. Bakı: Azərnəşr.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 50-57**
**Scientific Sources XVII Collection of Theses / 50-57**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Vəliyəddin Müsəllimov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-6556-0901
veliyəddinmusalimov1962@gmail.com
**Nizami Ağayev**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0004-4958-6302
nizamim538@gmail.com
**Eldar Muxtarlı**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0000-0001-6894-3214
eldar.mukhtarli@sport.edu.az

# AZƏRBAYCAN MİLLİ XALQ OYUNLARININ FORMALAŞMASI

***Açar sözlər:*** *Azərbaycanın qədim oyunları, Qobustanda qədim oyunlar, qədim mədəniyyəti, Qobustan ərazisində arxeoloji abidələr*

***Keywords:*** *ancient games of Azerbaijan, Ancient games, ancient culture in Gobustan, Archaeological monuments in the territory of Gobustan*

Qədim zamanlardan oyunlar Azərbaycan xalqının mənəvi mədəniyyətinin tərkib hissəsi olmuş və İnsanların gündəlik həyatında böyük rol oynamışdır. Xalqlar oyunlar vasitəs ilə insanın daxili aləminin və dünya görüşünün inkişaf etdirilməsinə nail olmuşlar. Azərbaycanın qədim oyunlarının ibtidai başlanğıcı əsasən Qobustan və digər qayaüstü təsvirlərdə öz əksini tapmışdır.

Azərbaycanda ən geniş yayılmış qədim oyunlardan biridə at üstü oyunlar hesab edilir. Bu oyunlar tunc dövürdən başlanır.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Qobustanın “Böyük daş” adlanan sahəsində (45 və 46 №-li) daş üzərində bir sürü vəhşi heyvanların torla qarşısı alınması təsvir edilmişdir.

**DAŞ № 45-46** «Ceyranlar» düşərgəsindən 240° altında 100 metrə qədər məsafədə, daş № 43a -dan 50° altında, 30 metr məsafədə, 44 №-li daşdan 335° altında 8 metr məsafədə, 52 №-li daşın şərq tinindən 110° altında 7 metr məsafədə şimal-cənub uzunluğu 9 metr, üstü 2 çatlı 3 hissədən ibarət daşdır. Onun cənub hissəsinin şərq üzündə bir neçə ədəd sxematik, iri buynuzlular baş yerindən çıxıb yuxarı qalxaraq, qırıq xətlərlə dala əyilib quyruğa qədər uzanan keçi (şəkil-1), daşın orta hissəsinin şərq üzündə bir ədəd sxematik olduqca kobud və savadsız çəkilmiş maral (şəkil-2) daşın şimal hissəsinin şərq üzündə yönləri sağa və sola olmaqla, bir-birinə əks tərəfə baxan keçilər və aralarında əlləri onlara tərəf açılmış adam şəkli daşın orta hissəsinin qərb üzündə də çox sxematik keçilər, atlar və başqa heyvanlar təsviri qeydə alınmışdır Ümumi baxışda 45 və 46 №-li daşlardakı şəkillərlə bir dövr çərçivəsində 18-19-cu əsrlərdə çəkildiyini söyləmək olar. Qədim Qobustan sakinləri atların sürətli qaçışına həsədlə baxırdılar (Ağayev, 1989, s. 3-5).

Qədim dövürdə yaşayan insanlar atların belinə qalxaraq ov ovlamaq istəyirdilər. Lakin ilk dövürlərədə atalrı ələ keçirmək hər insana nəsib olmurdu. Bunu yalnız fiziki cəhətdən güclü olan insanlar edə bilərdi. Bir sıra arxeoloji materiallar və tarixi mənbələrdən fiziki tərbiyənin yaranması tarixi barədə ümumi məlumat əldə etməyə imkan verir.



(Şəkil-1)



(Şəkil-2)

Qobustan şərqi Azərbaycanda, Qafqaz dağlarının cənub-şərq ətəkləri ilə Xəzər dənizi arasında 100 km-ə qədər diametri olan, çoxlu qobularla (qədim çay yataqları və yarğanlar) kəsilən, yarımsəhra dağətəyi böyük coğrafi rayondur.

Qobustan sözü Türk dillərində "qobu-kobu" sözü "yarğan, boşluq, yarısəhra" anlamına gəlir. Digər bir verisyaya görə isə Qobustan sözünün ilkin forması ***Gavistan*** şəklində olmuşdur. "gav" farsca öküz, inək, "stan" isə diyar anlamında yer bildirən şəkliçidir. Bu halda söz "Öküzlər diyarı" şəklində şərh edilməkdədir. Bu versiyanın da irəli sürülməsi təsadüf olmamışdır. Çünki, vaxtilə Qobustan ərazisində çoxlu çöl öküzü yaşamışdır. Min illər keçdikcə onların bir hissəsi ölmüş, bir hissəsi isə əhliləşdirilmişdir. Başqa bir versiyaya görə isə bu yerin adı *Kəbristan* olmuşdur. "Kəbr" oda sitayiş edən, "stan" isə diyar anlamında kimi qəbul edildikdə söz oda sitayiş edənlərin diyarı kimi anlaşılmaqdadır. Bu versiyaya görə, bu yerlərdə atəşpərəstlər yaşamış, ona görə də ərazi Kəbrstan adlandırılmışdır. Böyük Qobustanın ərazisi şərqdə Xəzər dənizi, şimalda Sumqayıtçay, qərbdə ğamaxı rayonu Pirsaatçay,

doi.org/10.36719/2663-4619/2025/XVII

cənubda Hacıqabul və Ələtə qədər ərazini əhatə edir (Dadaşzadə, 1985, s. 19-20).

Qobustanda Kiçikdaş dağında «Qaya arası», Böyükdaş dağında «Anazağa» və «Kənizə» düşərgələrində hələ yuxarı paleolit dövründən başlayan həyat təbii hadisələrlə əlaqədar qısa müddətlərdə dayansa da, yenidən canlanıb və orta əsrlərə qədər davam etmişdir. Qobustanı dünyaya tanıdan da onun qədim sakinlərinin yaratdıqları, 15-20 minillik tarixi dövrü əhatə edən qədim qayaüstü təsvirlər və müxtəlif tarixi - arxeoloji abidələrdir. Buradakı üzəri 10-15 metr qalınlığında əhəngdaşı təbəqəsi ilə örtülü, zirvəsi mizin üstü kimi düz, daş dövründə sürək üsulu ilə ov etmək üçün təbii tələ, tunc dövründə kənar qüvvələrdən (qəbilələrarası basqın və vuruşmalardan) qorunmaq üçün təbii qala olmuşdur.

Qobustanda arxeoloji qazıntı aparılmış daşaltı sığınacaqlarda düşərgənin divarlarını təşkil edən qayaların mədəni təbəqə örtmüş aşağı səthlərində də yüzlərlə qədim təsvirlər aşkar edilmişdir. Qayaüstü təsvirlərin öyrənilməsi və xüsusən, dövrlərinin müəyyənləşdirilməsi işində mədəni təbəqə altından aşkar edilmiş bu kimi daşlar üzərindəki qədim rəsmlərin elmi əhəmiyyəti qədərsizdir. Göstərilən daşlardakı rəsmlər bu ərazidə oxşar təsvirlərin bir növ doğum şəhadətnaməsi sayıla bilər. Ona görə də Qobustanın qədim qayaüstü təsvirlərini xalqımızın qədim mədəniyyətinin və tarixi inkişaf yolunun güzgüsü saymaq olar. Qobustan çox geniş mövzulu, dərin məzmunlu 15-20 minillik tarixi dövrdə tarixin inkişaf yollarını işıqlandıran şəkillər qalereyasıdır (Quliyev, 2021, s. 24-26).

Son zamanlar aparılan tədqiqatlar göstərir ki, hələ qədim zamanlarda Azərbaycan ərazisində nizə və ox atmaqla, qılınc oynatmaqla, güləşmə və s. ilə məşğul olmuşlar. Bütün bunlar Azərbaycanda fiziki tərbiyənin meydana gəlməsinə təkan vermiş, müdafiə və hücum xarakterli müxtəlif növ fiziki

hərəkətlərdə öz əksini tapmışdır. Atçapma, nizə tullamaq, cürbəcür oyunlar öz inkişafı mərhələsinə qədəm qoymuşdur. Tarixi mənbələrə və arxeoloji qazıntılara istinad edərək göstərmək lazımdır ki, Midiya dövlətinin yarandığı dövrdə hərbi reforma keçirildi, qoşunların hərbi-fiziki hazırlığı daha da artırıldı, nizə tullayanlar, ox atanlar və s. süvari dəstələr yarandı. Midiya hərbi süvariləri qoşun növü kimi ilk dəfə meydana gələn ölkələrdən biri oldu. Midiya dövlətinin süqutundan sonra yerli əhali, qoşun hissələri yadellilərə qarşı amansız olmuş, torpaq uğurunda böyük qəhrəmanlıq nümayiş etdirmişlər. Şifahi xalq ədəbiyyatının bütün janrlarında fiziki tərbiyənin öz əksini tapdığını müşahidə edirik. Qeyd etməliyik ki, dastanlardakı xalq qəhrəmanlarının igid, cəsur, dözümlü, mübariz və qorxmaz olmaları onların müxtəlif növ oyunlarla, fiziki hərəkətlərlə iradə və bədənlərini möhkəmləndirmələrinə səbəb olmuşdur.

Orta əsr mütəfəkkürlərindən Nizami, Xəqani, Tusi, Əhvədi, M.Naxçivani kimi ddünya şöhrəti qaznmış klassiklərin əsərlərində fiziki tərbiyənin böyük əhəmiyyətindən bəhs edən epizodlara tez-tez rast gəlinir. Xəqanini əsərlərində çövkən oynamaq, şahmat oynamaq, qılınc oynatmaq və s. oyunların adlarına rast gəlinir.

XII - əsrdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvi öz əsərlərində “Çövgən” oyununu geniş təsvir etmişdir. Nizami Gəncəvi 1180-cı ildə yazdığı “Xosrov və Şirin” poemasında “Çövgən” oyununu xüsusi təsvir edirdi. Böyük Azərbaycan yazıçısı M.S.Ordubadi “Qılınc və qələm” romanında XII-əsrdə baş verən hadisələri təsvir edərkən yazaırdı: Xəlifət Bağdadda “Top və cövgən” oyunu üzrə yarış təşkil etmişdir. Bu yarışda dünyanın 200-dən artıq 10-yaxşı oyunçu atçapan iştrak etmişdir. Yüksək iradi keyfiyyətlərə və fiziki hazırlığa malik olan Azərbaycan oyunçusu Fəxrəddin bu yarışda Qarabağ

cinsli atı ilə bütün yarış iştirakçılarına qalib gələrək birinci yerə laiq görülmüşdür. Azərbaycan dünyada ən yaxşı at cinsi yetişdirən ölkələrdən biri olmuşdur.

XIX-əsrdə D.Dubenski (atçılıq üzrə mütəxəsis) demişdir ki, Zaqafqaziyadan olan atlar hamısı Qarabağ atının törəməsidir. Qarabağ adlı kitabda qeyd edilmişdir ki, (1866, 1869 və 1873) ci illərdə Moskvada keçirilən at sərgisində Qarabağ cinsindən olan atlara rusiyalı mütəxəsislər tərəfindən yüksək qiymətləndirilmişdir (Gözəlov, İmanov, 2017, s. 60-63).

Çövgən yarışlarının Azərbaycanda çox qədimdən məşhur olduğu faktlarla təsdiqlənir. Azərbaycanda çövgənın tarixi, hətta VI-VII əsrlərə və bəlkə ondan da qabaqlara gedib çıxır.




(Çövgən oyunu)

doi.org/10.36719/2663-4619/2025/XVII



(Polo oyunu)

Azərbaycanda çövgən oyununda təkçə kişilər deyil, qadınlar da iştirak edirdilər. İngilislərin təşəbbüsü ilə bu oyun "polo" adı altında ilk dəfə 1890-cı ildə Parisdə keçirilən II Olimpiya Oyunlarının proqramına daxil edilmiş və beləliklə, Qərb sivilizasiyasında bu ad təsdiqlənmişdir. Çövgən - polo son dəfə 1936-cı il Berlin Olimpiya proqramına daxil edilmişdir. Azərbaycanda oynanılan çövgən oyunu, ümumiyyətlə, dünyada polo adı ilə tanınan oyundan bir qədər fərqli qaydalar əsasında keçirilir (Əliyev, 1991, s. 27-30).

Azərbaycan Zərdüştülüyün vətəni olduğu kimi ən qədim dövürlərdən milli oyunların vətənidir. Qədim Azərbaycanlıların müqəddəs saydığı Avesta kitabındakı məlumatlara görə cəngavərlik, igidlik, pəhləvanlıq, at çapmaq, güləş, ox atma yarışlarında iştirakının tarixi ən qədim dövürlərə təsadüf edir.

doi.org/10.36719/2663-4619/2025/XVII

## Ədəbiyyat

1. Ağayev, H. (1989). Azərbaycan xalq məişət oyunları. Bakı.
2. Dadaşzadə, M. (1985). Azərbaycan xalqının qədim mənəvi mədəniyyəti. Bakı.
3. Əliyev, A. E. (1991). Azərbaycan milli idman oyunları. Bakı.
4. Gözəlov, F., İmanov, M. (2017). Qarabağ xalq oyunları və meydan tamaşaları. Bakı.
5. Quliyev, D. (2021). Qarabağın idman tarixi. Bakı.

Elmi Mənbələr XVII Tezislər Toplusu / 58-62
Scientific Sources XVII Collection of Theses / 58-62
doi.org/10.36719/2663-4619/2025/XVII

**Səbinə Məmmədova**
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0001-6649-9375
sabina_mamedova_73@mail.ru

# DİLÇİLİKDƏ TƏKRARLARIN TƏDQİQİ

***Açar sözlər:*** *təkrar, üslub, nitq, təsnifat, dil*
***Keywords:*** *repetition, style, speech, classification, language*

Həm söz xiridarları, həm də natiqlər öz nitqlərində obrazlılıq və emosional ifadə yaratmaq üçün müxtəlif bədii və üslub vasitələrindən istifadə edirlər. Bu vasitələr arasında ən qədimlərindən biri olan təkrarlar, öz işləkliyi ilə xüsusilə seçilir. Təkrarlar həm ləksik, həm də sintaktik strukturlarla özünü göstərir; yəni leksik təkrarlarla yanaşı, söz birləşmələri, cümlələr (həm sadə, həm də mürəkkəb) və bütöv abzasların təkrarı kimi sintaktik təkrarlar da mövcuddur. Qədim üslubi vasitə olaraq təkrarların üslubi-semantik funksiyaları və əlavə poetik çalarları müxtəlifdir. Dilçilikdə təkrarlar, fikrin və mənanın qüvvətləndirilməsi, emosional təsirin artırılması üçün istifadə olunur. Eyni zamanda, hərəkətin davamlılığını göstərmək, onu ətraflı şəkildə təqdim etmək və dinləyicinin diqqətini mətnin əsas ideyası və məzmununa yönəltmək məqsədilə də istifadə edilir. Şairlər və yazıçılar, müəyyən hadisə, fikir və hissləri təkrarlarla daha təsirli şəkildə ifadə edirlər. Bu üslubi fiqur bədii ədəbiyyatda, xüsusilə poeziyada, ifadəyə ritm və melodiya gətirir, şeirin intensivliyini artırır (Abdullayev, 1988).

Təkrarlar, əslində, mövzuya yeni məlumat əlavə etmir. Lakin, onların əsas xüsusiyyəti, "məna və mətn əlaqəsinin

**doi.org/10.36719/2663-4619/2025/XVII**

mühüm vasitəsi" olması, "subyektiv-modal mənaların" ifadə formalarından biri kimi tanınmasıdır. Bəzi bədii əsərlərin, xüsusilə nəzm nümunələrinin quruluşu, təkrarlar əsasında formalaşır. Təkrarların müxtəlif növləri vardır: sərbəst (qaydasız) təkrar, geminasiya (qoşalaşma), anafora, epifora, əks (tərs) sıra üzrə təkrar, dəqiqləşdirici təkrar (orta sıra) və cümlənin təkrarı və s. Bir çox müəllif, əsərlərində təkrarın müxtəlif növlərini və ifadə formalarını ələ almışdır. Lakin, bu tədqiqatların əksəriyyətində təkrar növlərinin yalnız az bir hissəsi qeyd olunmuş, müəlliflər isə onların sadəcə tərifini verərək bir neçə nümunə ilə kifayətlənmişlər. Bədii əsərlərdə təkrarların istifadəsi, əsasən, üslubi məqsəd güdən, uyğun şəraitdə işlədilən növlərdən ibarətdir. I.M. Astafyeva da yazır ki, "uğursuzluğa və nitq səhvlərinə (aleonazm, tautologiya) səbəb olan təkrar əsassızdır. Lakin, xüsusi bir ünsürün zəruriliyi, nəzərə çatdırılması məqsədilə müəllif tərəfindən yaradılan, ustalıqla təşkil edilmiş təkrar bədii üslub halına gəlir.". “Təkrar” və “təkrir” arasındakı fərqi H.A. Həsənov belə deyir: “Bu terminlər bir-biri ilə bağlıdır”. “Təkrar” dedikdə, əsər boyu eyni söz və ifadələrin düşünülmüş və məharətlə işlədilməsi nəzərdə tutulur. “Təkrar” terminləri artıq sözlərdən fərqli olaraq bir-biri ilə bağlıdır. Sənət əsəri təkrarla məna qazanır ki, bu da onun dilini və üslubunu gücləndirir (Abdullayev, 1969, s. 245).

Bədii ədəbiyyatda təkrarlanma hallarına gəlincə, T.A. Maksimova müşahidə edir ki, “Qəhrəmanın nitqi nə qədər ifadəli olarsa, yazıçı təkrardan bir o qədər çox faydalanır”.

“Reprise” X.R.-nin işlətdiyi başqa bir termindir. Kurbatov və O.S.Axmanova təkrarı belə təsvir edir. N.P.-ə görə. Pototskayabundan istifadə edərək “Təkrar və ya təkrarlama sözün, sintaktik quruluşun və eynicümlə üzvlərinin bir neçə

**doi.org/10.36719/2663-4619/2025/XVII**

dəfə, bəzən bir dəfədən çox təkrarlanmasına əsaslananüslubi cihazdır...”

Konkret üslub məqsədi daşıyan əsər daxilində eyni sözün, ifadənin, cümlənin və ya abzasın qəsdən təkrarlanması təkrarın üslub fiqurunun əsasını təşkil edir.

Təkrarlama bir neçə formada olur. Formal yanaşmaya diqqət yetirən E. Rizel təkrarın üç formasını nümayiş etdirir: hərfi təkrar, sözün dəyişdirilməsi ilə təkrar və sinonim ifadələrin təkrarı. Bu növlərin çox saylı alt növləri var (Abdullayev, 1968).

B.V.Tomaşevski Nin fikrincə, bu komponentlərin təsnifatı artıqdır. Anafora onun tərəfindən paralellik forması kimi də qəbul edilir.Bununla belə, onun fikri ilə razılaşmaq çətindir. çünki hər bir təkrar növünün təmsil etdiyi emosional yüklənmə onun forması kimi dəyişir. Yuxarıda qeyd olunan təkrar növlərindən bəziləri ədəbiyyatşünaslıqda və dilçilikdə kifayət qədər köklü olsa da, digərləri isə qeyri-müəyyən şəkildə tanışdır. Aşağıda müzakirə olunan müxtəlif təkrarformalarının yaratdığı stilistik fərqləri və nüanslı məna çalarlarını göstərmək üçün sənət əsərlərindən nümunələr verilmişdir. Bədii yaradıcılıqda ən çox yayılmış təkrar formalarından biri sərbəst və ya “qaydasız” təkrardır. Sərbəst təkrarlama, tatar dilçisi X.R. Kurbatov, "eyni sözün və ya ifadənin ardıcıl və ya fərqli şəkildə təkrarlanmasıdır.

Nəticədə, eyni tipdə iki müxtəlif təkrar formasını göstərmək düzgün deyil. Geminasiya və ya reduplikasiya müəllifin nitq vahidlərində “ardıcıl” adlandırdığı təkrar formasıdır. Eyni nitq vahidinin bir və ya bir neçə bitişik ifadənin müxtəlif hissələrində təkrarlanması sərbəst təkrar kimi tanınır. Məsələn (Kurbatov, 1978):

- Ay uşaqlar, gətirin bu dağ keçisini, bu pirdə kabab edək, yeyək və bu pirdə adama bir niyyət tutaq, görək yuxuda kim nə görür («Qurbani» dastanı).

İngilis dilində bu cür təkrarlar ayrıca bir növ kimi qeyd olunmasa da, nümunələrdə rast gəlmək çətindir:

- Let it snow, let it snow, let it snow.

- “Oh wonderful, oh wonderful, wonderful, wonderful day!” (-Shakespeare, "Romeo and Juliet")

- “And miles to go before I sleep, and miles to go before I sleep.” (Robert Frost, “Stopping by Woods on a Snowy Evening”)

Bu nümunələr ingilis dilindəki təkrarların da digər dillərdə olduğu kimi işlənə biləcəyini göstərir.

Bədii ədəbiyyatda təkrarlamanın ən çox yayılmış formalarından biri, çox vaxt reduplikasiya kimi tanınan geminasiyadır. Bu cür təkrara rus dilçiliyində və ritorikasında “udvoenie” deyirlər ki, bu da dilimizdə “ikiqat” deməkdir. Geminasiya fiquru bir neçə mətndə keçərkən qeyd edilmişdir. Cümlənin əvvəlində belə təkrarlar R.Y. Xəlilov anafora, sonda olanlar isə epifora kimi.Bununla belə, bu fikri dəstəkləmək çətindir. Çünki anafora və epifora hər ikisi müvafiq olaraq eyni başlanğıcı və nəticəni bildirir. Söz ardıcıl və ya bir-birinə yaxın olan misraların, bəndlərin, cümlələrin və ya abzasların əvvəlində yaranan leksik anafora və sözün bir sıra söz və ifadələrin sonunda meydana çıxması zamanı yaranan sintaktik anafora hər ikisi hesab edilir. Eyni nitq vahidi misra və ya cümlənin əvvəlində, ortasında və ya sonunda ardıcıl olaraq geminasiya və ya reduplikasiya kimi tanınan təkrar texnikasında təkrarlanır ki, bu da həmin ifadəyə özünəməxsus mənəvi çalar verir (Tomashevskiy, 1959).

doi.org/10.36719/2663-4619/2025/XVII

## Ədəbiyyat

1. Abdullayev, K. (1988). "Azərbaycan dilinin sintaksisinin nəzəri problemləri". Bakı, 191.
2. Abdullayev, S. Ə. (1969). "Nəqli cümlələrin funksional və ekspressiv üslub rəngləri". ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası, № 5-6, 102-107.
3. Abdullayev, A. S. (1968). "Nitq mədəniyyəti və natiqlik məharəti haqqında". Bakı: Azərnəşr.
4. Tomashevskiy, B. V. (1959). "Stilistika i stikhoslozheniye". L.: Uchpedgiz, 282.
5. Kurbatov, Kh. R. (1978). "Tatarskaya lingvisticheskaya stilistika i poetika". M.: Nauka.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 63-66**
**Scientific Sources XVII Collection of Theses / 63-66**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Zeynəb Əsədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0002-5426-1372
asadovazeynab@mail.ru

# YENİ NƏSİL ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ (X-XI SİNİFLƏR) MONOQRAFİK MÖVZULARIN ÖYRƏDİLMƏSİ YOLLARI

***Açar sözlər:*** *monoqrafik mövzu, yazıçı, yaradıcılıq, ədəbi təkamül, bədii əsər*

***Keywords:*** *monographic topic, writer, creativity, literary evolution, artistic work*

Ədəbiyyat yalnız müəyyən dövrün bədii təzahürü kimi deyil, həm də cəmiyyətin sosial, mədəni və tarixi inkişafını əks etdirən bir sahə kimi öyrənilməlidir. Ədəbiyyatın məktəbdə öyrənilməsi məsələsi ilə bağlı elmi-metodik ədəbiyyatda bir sıra nəzəri və metodoloji problemlər araşdırılmışdır. Bu məsələnin ən önəmli aspektlərindən biri ədəbiyyat dərslərində sənətkarın həyat və yaradıcılıq yolunun öyrənilməsi problemidir.

Sənətkarın tərcümeyi-halı, bədii yaradıcılığının tədrisi problemləri ədəbiyyat tədrisi metodikası üzrə bir sıra alimlər tərəfindən geniş şəkildə araşdırılmışdır. Bu metodist alimlər arasında Əlyar Qarabağlı, Camal Əhmədov, Ağadadaş Babayev, Aydın Hacıyev, Soltan Hüseynoğlu, Bilal Həsənli və Fəxrəddin Yusifovun tədqiqatları mühüm yer tutur. Metodist alimlərin araşdırmalarında ədəbiyyat dərslərinin təşkili və görkəmli sənətkarların həyat və yaradıcılığının öyrənilməsinin vacibliyi vurğulanır.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Yeni nəsil ədəbiyyat dərsliklərində (X-XI siniflər) monoqrafik mövzular yazıçının şəxsiyyətini, xarakterini, dünyagörüşünü, həyat hadisələrinə münasibətini, hiss və düşüncələrini öyrənmək üçün mötəbər mənbə hesab olunur. Sənətkarın həyat və yaradıcılıq yolunun öyrənilməsi yazıçının şəxsiyyətinin, həyata baxışının, ideoloji mövqeyinin, yaradıcı fəaliyyətinin orijinallığını dərk etməyə imkan verir. Söz ustadlarının həyat və yaradıcılığının öyrənilməsi şagirdlərin estetik tərbiyəsinin formalaşmasında mühüm rol oynayır. Monoqrafik mövzuların tədrisi zamanı yazıçının həyat mövqeyinə, ictimai və yaradıcı fəaliyyətinə diqqətin artırılması şagirdlərin mənəvi dünyasını zənginləşdirir. *"Bədi söz nə qədər qiymətli və mənalı olsa da, sənətkarın ömür yolunun səhifələrini vərəqləmək, ibrətamiz hadisələri, faktları öyrənmək və bunların əsasında şagirdləri tərbiyə etmək ikiqat dəyərlidir"* (Aslanov, 2011, s.79).

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ümumtəhsil məktəblərində ədəbiyyat aşğıdakı mərhələlərdə öyrədilir:

1. Ümumi orta təhsil pilləsi (V-IX siniflər)
2. Tam orta təhsil pilləsi (X-XI siniflər)

V-IX siniflərdə əsas diqqət sənətkarın yaradıcılığına və bədii əsərlərinin mənimsənilməsinə verilir. Müəllimin şərhi və müsahibə vasitəsilə şagirdlərə sənətkarın həyatı və yaradıcılığı haqqında qısa, lakonik məlumatlar təqdim olunur. Tam orta təhsil pilləsində isə görkəmli sənətkarların həyat və yaradıcılığı daha geniş və əhatəli tədris olunur. Yuxarı siniflərdə sənətkarın həyat və yaradıcılıq yolunun tədrisi aşağı siniflərdə əldə edilən biliklər üzərində qurulur və öz məzmununa, təlim üsullarına görə fərqlənir.

Təlim prosesində sənətkarın şəxsiyyətinin orijinallığının və həyat hadisələrinə münasibətinin aydınlaşdırılması onun

**doi.org/10.36719/2663-4619/2025/XVII**

yaradıcılıq məramı və idealları barədə daha dolğun təsəvvür yaradır. Yazıçının yaradıcılığını onun həyat yolundan təcrid edilmiş şəkildə təqdim etmək doğru olmaz. Çünki hər bir bədii əsər yazıçının şəxsiyyətinin, dünyagörüşünün və mənəvi mövqeyinin bir əksidir. Şagirdlər bədii əsər vasitəsilə yazıçının həyatını, onun qarşılaşdığı çətinlikləri, bu çətinliklərə necə qalib gəldiyini, bir sözlə mübarizə və inkişaf yolunu nəzərdən keçirirlər. Yazıçının həyat yolu, qarşılaşdığı çətinliklər, şahid olduğu hadisələr və şəxsi təcrübələri əsərlərində öz əksini tapır. *"Tərcümeyi-hal hər şeydən əvvəl şəxsiyyətin yaradıcılıq inkişafının tarixidir. Buna görə də hər hansı yazıçının tərcümeyi-halı mütləq onun yaradıcılığı ilə sıx əlaqədə öyrədilməlidir"* (Qarabağlı, 1968, s.59).

Sənətkarın həyat və yaradıcılıq yolunun öyrədilməsi müəllimdən geniş dünyagörüşü və pedaqoji ustalıq tələb edir. Təcrübə göstərir ki, dərsdə eyni metodlardan istifadə şagirdlərin dərsə marağının azalmasına səbəb olur. Ədəbiyyat müəllimi dərs formasını seçərkən şagirdlərin maraqlarını diqqət mərkəzində saxlamalı, dərsə yaradıcı yanaşma sərgiləməli və məzmun standartlarına əsasən dərsin məqsədini müəyyənləşdirməlidir. Sənətkarın həyat və yaradıcılığının öyrədilməsində yalnız müəllimin nitqi ilə kifayətlənmək olmaz, çünki şagirdləri hadisələrin quru deyil, canlı və emosional təqdimatı daha çox maraqlandırır. Buna görə müəllim şagirdləri sadə dinləyicidən aktiv iştirakçıya çevirmək üçün yeni təlim texnologiyalarından istifadə etməyi bacarmalıdır. *"İKT-nin multimediya imkanlarından şagirdlərin fəal istifadə etməsi onların təlim prosesinin əsas siması olmasına, müəllimin isə yardımçı, məsləhət verən, istiqamətləndirən rəhbər kimi fəaliyyət göstərməsinə şərait yaratmışdır"* (Süleymanova, 2009, s.80).

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Azərbaycan ədəbiyyatınının təbliğində müstəsna xidmətləri olan M.F.Axundzadə və C.Məmmədquluzadənin həyat və yaradıcılıq yolunun tədrisi kurikulum üzrə ədəbiyyat dərslərində mühüm yer tutur. Belə ki, müxtəlif dövrlərdə yaşayıb-yaratmış görkəmli sənətkarların həyat və yaradıcılığı, zəngin bədii irsi ədəbiyyatımızın tarixini, inkişaf mərhələlərini, xarakterik xüsusiyyətlərini öyrənməkdə çox böyük əhəmiyyətə malikdir. Bu proses sənətkarın mədəniyyətə və incəsənətə qoyduğu dəyərin qiymətləndirilməsində və bədii irsinin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır.

## Ədəbiyyat

1. Aslanov, Y. (2011). Ədəbiyyat tədrisi: Ənənə və müasirlik. Bakı: ADPU nəşriyyatı, 162.
2. Qarabağlı, Ə. (1968). Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Maarif, 349.
3. Süleymanova, A. (2009) Ədəbiyyat dərslərində İKT-dən istifadənin yolları. Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Əlyazması hüququnda. Bakı, 136.

Elmi Mənbələr XVII Tezislər Toplusu / 67-70
Scientific Sources XVII Collection of Theses / 67-70
doi.org/10.36719/2663-4619/2025/XVII

**Rəşad Novruzov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0000-5884-3084
novruzovrsd@gmail.com

# "FİZİKANIN TƏDRİSİNDƏ NİZAMİ GƏNCƏVİ İRSİNDƏN İSTİFADƏ"

***Açar sözlər:*** *hərəkət, sürət, təcil, fırlanma, kainat, cism, cövhər, gövhər*

***Keywords:*** *motion, speed, momentum, rotation, universe, body, ore, ore*

Fizika fənni şagirdlərdə bilik bacarıqları formalaşdırmağa, əqli və məntiqi təfəkkürü inkişaf eləməyə yönəlmişdir. Qədim Şərq fəlsəfəsi və münəccimlik elmi fizika elminin inkişafına böyük təkan vermişdir. Şərq mütəfəkkirlərinin əsərlərində fiziki ideyalara elmi baxışlar mühüm yer tutur. Bu mütəfəkkirlər içərisində dahi şair, filosof Nizami Gəncəvinin yeri çox əhəmiyyətlidir və onun bədii fəlsəfi irsində təbiət qanunları ilə əlaqəli bir çox elmi fikir, düşüncə və məntiqi təfəkkür elementlərinə rast gəlmək olar. Onun əsərlərində əldə olan biliklərin nisbi xarakter daşıdığını, insan şüurundan uzaq olmayan, elmi biliklərin qazanılmasını zəruri edən, kainat və elmin eyni dərəcədə sonsuz olduğunu başa düşən və dərk edən məntiqə əsaslanır.

O şey ki, bizlərə lap aşikardır,
Orda da gizli bir xəzinə vardır.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Fizikanın öyrənilməsinə başlayarkən şagirdlər hər şeydən öncə materiya, kainat və bizi əhatə edən maddi aləm haqqında müəyyən biliklərə sahib olmalıdırlar. Bu məsələdə dahi şairin yaradıcılığında öz əksini tapmış və aşağıda ifadə etdiyi misralar yuxarıdakı fikirlərə açıqlıq gətirə bilər. Çünki N.Gəncəvinin əsərlərində antik yunan və şərq fəlsəfəsinin əsasını təşkil edən od, su hava, torpaq, materiya, kainat, onun tərkibi bitki aləmi və canlı həyatın yaranması anlayışları üstünlük təşkil edir.

Onlardan birinci –işıqlı oddur,
İkinci küləkdir, hərəkətdədir.
Üçüncü sudur ki, təravət verir,
Dördüncü torpaqdır, tapdayır əyyam.

Bu ecazkar cümlələrdə kainatın yaranmasında və təşəkkül tapmasında böyük rol oynayan od, su, hava-külək və torpaq anlayışlarında bir tamlıq, bütövlük, vahidlik fəlsəfəsi vardır. Əlavə ediləcək bir şey yoxdur.

Çünki N.Gəncəvinin əsərlərindəki başqa bir misralarda materiya, kainat, onun tərkibi bitki aləmi və canlı həyatın yaranmasından bəhs edilir və bunlar şagirdlərə fizikanın öyrənilməsində çox böyük dəstək ola bilər. Aşağıdakı misralarda dörd tərkibin, dörd gövhərin birləşərək yer üzündə bitki, heyvanat aləminin, kainatın əsasnı təşkil edən və bu gün malik olduğumuz həyatın yaranması ifadə edilir.

Qatdı bir-birinə onları həyat,
Yaratdı bunlarda bitki, nəbatat,
Dörd tərkib birləşib ahəngdar olmuş,
Dörd gövhər birləşib həyat var olmuş.

Dahi şairin başqa bir misralarında maddə və tərkib, zaman və məkan, hərəkət və sürət anlayışlarından bəhs edilir və bu

**doi.org/10.36719/2663-4619/2025/XVII**

anılayışlar şagirdlərə fizikanın öyrənilməsində faydalı ola bilər. N.Gəncəvi öz sələflərindən daha uzağa gedərək materiyanın, kainatın yaranmasını hərəkət və onun dəyişməsi, hərəkətin konkret olaraq müəyyən məkanda və zamanda dəyişməsini ifadə edir-yəni kainatın mövcudluğunu birbaşa hərəkətin mövcudluğu ilə bağlı olduğunu səsləndirirdi. Fizikanın tədrisində hərəkət və sürət mövzusunun öyrənilməsində dahi şairin cism, hərəkət və onun sürəti barədə dediyi əsrarəngiz misralardan bəhrələnmək yerinə düşər. Ona görə də mövzunun yaxşı dərk edilməsində dahi şairin aşağıda misralarının tədris əhəmiyyətinə söz ola bilməz:

Əvvəl mövcud oldu tək bir hərəkət,
Onu iki yerə ayırdı sürət.
Bu iki hərəkət gəlib bir yerə
Yeni bir hərəkət doğurdu hərə.

Göründüyü kimi burada hərəkət başlıca amildir və yaranan hərəkətin özünün başqa bir hərəkəti doğurmasına, yəni sürət dəyişməsini-təcilli yaratmasına işarə edir. Fizikanın adı çəkilən mövzusunun öyrəınilməsində bərabər sürətli hərəkətin dəyşən sürətli hərəkətə keçməsi ilə təcilin yaranması dahi şairin misralarında yerini tapmış və sözsüz ki, bunlara tədris prosesində nəzər salmaqda həqiqətən çöx böyük bir fayda vardır:

Əvvəlki hərəkət ayrıldı yenə,
Bu üçü qoşuldu biri-birinə.
Üç xətt zahir oldu üç hərəkətdən,
Üç dövrə yarandı ondakı xətdən.

Yaranmış hərəkətdə sürət dəyişməsi və onun təsiri altında dəyişən sürətli hərəkətin-təcilin yaranmasını göstərir. Bu

**doi.org/10.36719/2663-4619/2025/XVII**

bəndin 3-cü və 4-cü misralarında hərəkət, sürət və təcilin əvvəlcə əyrixətli və sonda fırlanma fərəkətinin əsasnı qoyması ifadə edilir. Dövrə sözü burada fırlanma hərəkəti anlamında işlədilir. Şairin fikrincə bu hərəkət dəyişməsinin nəticəsində cövhər- yəni hərəkətdə olan cism-materiya, bizi əhatə edən maddi aləm yaranmışdır və onun aşağıdakı misralarında bu belə ifadə olunur:

Mərkəzdən ayrıldı həmin dövrələr,
Yaranıb ortaya çıxdı bir cövhər.
Cövhər keşməkeşdən doğub parladı,
Hərəkət eyləyən cism oldu adı.

Bu kəlmələr həqiqətən dahiyanə deyilmiş kəlmələrdir. Fizikanın tədrisində şagirdlər öyrənirlər ki, düzxətli, bərabər sürətli hərəkət zamanı təcil yaranmır, çünki təci sürətin qiymət və istiqamətinin vahid zaman ərzində dəyişməsini ifadə etdiyindən zamandan asılı olaraq sürət həm qiymətcə, həm də istiqamətcə dəyşmir. Lakin hərəkət dahi Nizaminin dediyi kimi çevrə, dövrə boyunca fırlanma hərəkəti kimi baş verərsə, düzxətli bərabər sürətli hərəkətdən fərqli olacaq və çevrə boyunca bərabər sürətli fırlanma hərəkətində hərəkətin istiqaməti zaman keçdikcə dəyişir və cism təcilə malik olur və dahi şair qeyd olunan misralarda bu məsələyə açıq eyham vurmuşdur. Ədəbiyyatımızın tənəzzül yaşadığı bir dövrdə fzikanın tədrisində N.Gəncəvinin irsinnə müraciət edilməsi çox faydalı olardı, çünki gənclər daha”Leyli və Məcnun” kimi məhəbbət əsərləri ilə maraqlanmır  və onlara Azərbaycanın dünyaya bəxş etdiyi dühaları fizika üzərindən tanırmaqla, çatdrımaqla, gənclərimizdə milli ruhu oyatmağa nail olarıq.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 71-74**
**Scientific Sources XVII Collection of Theses / 71-74**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Aysun Həşimi**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0004-2908-2609
hesimia@gmail.com

# "HÜSEYN CAVİDİN ƏSƏRLƏRİNİN LAYİHƏ ƏSASLI TƏDRİS YANAŞMASINDA TƏDRİSİ: YARADICILIQ, DÜŞÜNCƏ VƏ DƏYƏRLƏR MƏKTƏBİ"

***Açar sözlər:*** *H. Cavid, layihə əsaslı tədris, ədəbi maarifləndirmə, komanda işi, fəlsəfi dərinlik, tənqidi düşüncə, təhsil innovasiyası*
***Keywords:*** *H. Javid, project-based learning, literary enlightenment, teamwork, philosophical depth, critical thinking, educational innovation*

Hüseyn Cavid türk və Azərbaycan ədəbiyyatının ən önəmli simalarından biridir. Şair, dramaturq və mütəfəkkir Cavid öz əsərlərində insan təbiətindən, ictimai ziddiyyətlərdən, ümumbəşəri dəyərlərdən bəhs etmişdir. Əsərlərinin fəlsəfi dərinliyi, estetik cəhəti və milli kimliyə verdiyi töhfələr onun ədəbiyyatdakı əhəmiyyətini daha da artırır. Cavidin yaradıcılığı xüsusilə layihə əsaslı tədris metodunda tələbələrin tənqidi təfəkkürünü, tədqiqatını və yaradıcı həlli bacarıqlarını inkişaf etdirmək üçün effektiv vasitədir. Layihə əsaslı tədris tələbələrin fəal öyrənənlərə çevrildiyi, tədqiqat və tətbiqi iş vasitəsilə bilik əldə etdiyi təhsil modelidir. "The Science Technology Society (STS) Course Attitude Scale" tədqiqatında Afacan və Aydoğdu (2006) qeyd edir: STS yanaşması şagirdlərdə tənqidi düşüncə və ictimai problemləri anlamaya yönəlmiş müsbət münasibət yaradır (Afacan, Aydogdu, 2006). Məsələn, layihə əsaslı

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 71-74**
**Scientific Sources XVII Collection of Theses / 71-74**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

öyrənmədə şagirdlərə Hüseyn Cavidin əsərlərində mövcud olan ictimai və mənəvi problemləri müzakirə etmək, onların müasir dövrdəki əks-sədasını araşdırmaq tapşırığı verilə bilər. STS yanaşması bu layihədə əsərlərin ictimai əhəmiyyətini vurğulamağa və şagirdlərin fərqli baxışlardan mövzuları təhlil etməsinə imkan yaradar. Bu üsulda tələbələr Hüseyn Cavidin əsərlərini təhlil edərək ədəbi bilik əldə etməklə yanaşı, həm də fərdi və ictimai dəyərlər haqqında dərindən düşünmək imkanı əldə edirlər. Layihə əsaslı tədrisdə yaradıcılıq mərkəzi elementdir. Tələbələr fərdi və ya qrup halında layihələr hazırlayaraq həm öyrənə, həm də istehsal edə bilərlər. Layihəyəsaslı öyrənmə (LƏÖ) öyrənməmərkəzli təlim modellərindən biri olub, sorğuya əsaslanan aktiv öyrənməni vurğulayan konstruktivist yanaşmadır. LƏÖ fərqli fənləri, real situasiyalara vahid edir. Bu metodun fəaliyyətində nəzəri biliklərin praktiki təcrübələrinə tətbiq olunan bacarıqlara nail olmaq durur. Eyni şəkildə Cavidin əsərləriniə uyğun layihələr tərtib etməklə tədris prosesi təşkil oluna bilər:

1. “Şeyx Sənan” Layihəsi: İnam və insanın iradəsi. Mövzuda Cavidin "Şeyx Sənan" əsərində iman və sevgi arasındakı ziddiyyətdən bəhs edilir. Layihə ideyaları olaraq əsərdəki personajların motivasiyasının təhlili; iman anlayışının fərdi və sosial ölçülərini müzakirə edən hesabatın hazırlanması; əsərdəki mövzuların müasir cəmiyyətlə əlaqəsinin araşdırılması kimi məsələlər qoyula bilər. Nəticədə tələbələr iman və iradə anlayışlarını daha yaxşı başa düşür və bu dəyərləri müasir kontekstdə şərh etmək bacarığı qazanırlar.

2. “Peyğəmbər” Layihəsi: Ümumdünya Sülh və Əxlaq. Mövzu ümumbəşəri əxlaq və sülh ideyasının tədqiqinə həsr olunar. Layihə ideyaları olaraq da sülh mövzusunda poster dizaynı və təqdimat hazırlanması; Cavidin sülh haqqında verdiyi mesajların dünya ədəbiyyatının digər əsərləri ilə müqa-

yisəsi; sülh və əxlaq mövzusunda debat təşkil etmək kimi məsələlər təklif oluna bilər. Nəticələ etibarilə tələbələr sülh və əxlaq kimi dəyərləri təhlil edərək universal perspektiv inkişaf etdirirlər. Chen (2004) tədqiqatı: Layihə əsaslı öyrənmə əməkdaşlıq bacarıqlarını və kompleks problemlərin həllində tənqidi düşüncə qabiliyyətlərini inkişaf etdirir (Chen, 2004).

**Peyğəmbər Layihəsi** üçün bu yanaşmadan istifadə edərək tələbələrə sülh və əxlaq mövzusunda interaktiv tapşırıqlar təqdim edilə bilər. Məsələn, tələbələr real sosial problemlərlə bağlı müzakirələr təşkil edərək ümumdünya sülh və əxlaq anlayışlarını araşdırmaq, həmçinin mövzu ilə əlaqəli posterlər və təqdimatlar hazırlamaq kimi fəaliyyətlərə cəlb oluna bilərlər. Bu üsul, həm Chen-in əməkdaşlıq əsaslı öyrənmə ideyasını tətbiq edir, həm də tələbələrin fəal öyrənmə prosesində iştirakını artırır. Layihə əsaslı tədrisdə Hüseyn Cavidin əsərləri bu proseslərlə işlənə bilər: Planlaşdırma-müəllim şagirdlərlə birgə işin mövzusunu müəyyənləşdirir. Məsələn, “Şeyx Sənan” əsəri üçün iman, sevgi, fədakarlıq mövzularını seçmək olar. Tədqiqat və Təhlil-şagirdlər Hüseyn Cavidin əsərlərini oxuyur və onların məzmununu təhlil edirlər. Dövrün sosial, mədəni və siyasi xüsusiyyətləri araşdırılır. Yaradıcılıq işləri-əsərlərdən ilhamlanaraq yazılar, səhnə tamaşaları və ya şəkillər yaradılır. Əldə edilən məlumatlar sinifdə müzakirə edilir və ümumi layihə məhsulu yaradılır. Təqdimat zamanı tələbələr öz layihələrini sinifdə və ya sərgidə afişa, video çarx və ya teatr tamaşaları şəklində edə bilərlər. Qiymətləndirmə-layihə prosesləri və nəticələri müəllim və digər tələbələr tərəfindən qiymətləndirilir. Bu prosesdə həm fərdi, həm də qrup işi nəzərə alınır. Hüseyn Cavidin əsərlərini layihə əsaslı tədris metodu ilə araşdırmağın bir çox faydası var: Yaradıcı düşüncə-əsərlərdəki dərin mövzular tələbələrə yaradıcı ideyalar yaratmağa imkan verir. Tənqidi Düşüncə-şagirdlər Cavidin

əsərlərini təhlil edərək müxtəlif perspektivlər inkişaf etdirə bilərlər. Mədəni Maarifləndirmə-Cavidin əsərləri tələbələrin milli-mənəvi dəyərlərə həssaslığını artırır. Komanda işi-qrup layihələri tələbələrin əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Ədəbi biliklər-şagirdlər həm Hüseyn Cavid, həm də dövr ədəbiyyatını daha yaxşı başa düşürlər. Beləliklə, Hüseyn Cavidin əsərləri təkcə ədəbi mövzu kimi deyil, həm də layihə əsaslı tədris metodunda düşüncə və dəyərlər məktəbi kimi dəyərləndirilə bilər. Bu yolla tələbələr həm keçmişi dərk edə, həm də gələcəyə yeni perspektivlər yarada bilərlər.

## Ədəbiyyat

1. Afacan, Ö., Aydogdu, M. (2006). “The Science Technology Society (STS) Course Attitude Scale.” International Journal of Environmental and Science Education, 1(2), 189- 201.
2. https://arti.edu.az/2024/01/24/d%C9%99rsd%C9%99-layih%C9%99-%C9%99sasli-oyr%C9%99nm%C9%99-modeli-nec%C9%99-t%C9%99tbiq-olunur/
3. Chen, L. (2004). “Cooperative Project-Based Learning and Students’s Learning Styles on Web Page Development.” J. Educational Technology Systems, 32(4), 363-375.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 75-79**
**Scientific Sources XVII Collection of Theses / 75-79**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**İnci Hüseynzadə**
Azərbaycan Universiteti
magistrant
https://orcid.org/0009-0002-8088-2113
incisultanova01@gmail.com

# KEYS MENECMENT SOSİAL İŞ MÜDAXİLƏSİ KİMİ. AZƏRBAYCANDA SOSİAL İŞ SİSTEMİNDƏ KEYS MENECMENTİN MÖVCUD VƏZİYYƏTİ

***Açar sözlər:*** *keys menecment, sosial iş, benefisiar, nəzəriyyə*
***Keywords:*** *case management, social work, beneficiary, theory*

Keys menecment anlayışı XIX əsrin sonlarında Amerikada meydana gəlmişdir. Bununla yanaşı Avstraliya, İngiltərə və.s kimi ölkələrdə də mövcud olmuşdur. Keys menecment anlayışı sosial işçilər tərəfindən benefisiarın rifahını artırmaq üçün çoxsaylı əlaqələri özündə birləşdirərək, koordinasiya edən bir prosesdir. Keys menecment fərdi səviyyədə, bununla yanaşı, cəmiyyət səviyyəsində istifadə olunan inteqrativ yanaşma hesab olunur. Dövrümüzə nəzər salsaq görərik ki, psixo-sosial problemlər zaman keçdikcə artır, bu baxımdan perspektivli və vahid şəkildə problemlərin həlli üsulları araşdırılmalıdır. Keys menecment anlayışı yarandığı zamanlarda ilkin olaraq, xüsusilə psixologiya və sosial iş sahəsində istifadə olunsa da, zaman keçdikcə artıq bütün sahələrdə bu anlayışa rast gəlmək mümkündür. Hətta sahələrin mərkəzində yerləşən bir anlayış hesab olunur. Moxleyə görə keys menecment anlayışının 3 əsas məqsədi var. İlkin olaraq, benefisiarın bacarığını inkişaf etdirmək, benefisiarın funksionallığını və rifahını dəstəkləmək,

doi.org/10.36719/2663-4619/2025/XVII

son olaraq isə göstərilən xidmətin effektivliyini və səmərəliliyini dəstəkləmək (Michael, 2017).

Keys menecment yanaşması qiymətləndirmə, planlaşdırma, xidmətlərin koordinasiyası, monitorinq və qiymətləndirmə, müdaxilənin sonlandırılması mərhələlərindən ibarətdir. İlkin olaraq qiymətləndirmə mərhələsində,benefisiarın ehtiyacları, problemləri, imkanları müəyyən edilir. Bununla yanaşı fərdin sosial, emosional vəziyyəti təhlil olunur. Planlaşdırma mərhələsinə əsasən benefisiarın problemləri araşdırılır, iş planı qurulur və resurslara çıxış yolları müəyyən olunur.

Xidmətlərin koordinasiyası mərhələsində isə problemin həlli yolunda, qurumlar ilə əməkdaşlıq yaradılır, eləcə də əlaqələr idarə olunur. Digər mərhələdə isə prosesin gedişatı daimi olaraq izlənilir. Son olaraq isə benefisiarın müstəqilliyinə nail olduğu halda iş sonlandırılır, lazım olduğu halda isə benefisiar əlavə xidmətlərə yönləndirilə bilər.

Sosial iş müdaxiləsi olaraq, keys menecment anlayışını səmərəli şəkildə qurmaq üçün bu 10 addıma diqqət yetirmək lazımdır.

1. Formatı dizayn etmək
2. Hədəf əhalinin seçmək
3. Fənlərarası komandanı təşkil etmək
4. Komandanı hazırlamaq
5. Mövcud prosesi araşdırmaq
6. Ədəbiyyat icmalı
7. Planın müddətini müəyyən etmək
8. Məzmunu inkişaf etdirmək
9. Pilot tədqiqat aparmaq
10. Planı standartlaşdırmaq

Sosial işçi benefisiarlara birbaşa və ya dolayı xidmətlər göstərə, asılılığa məruz qalmış gənclərə kimi müəyyən bir sahədə ixtisaslaşa və yaxud siyasət islahatları ilə bağlı məsləhət

doi.org/10.36719/2663-4619/2025/XVII

verə bilər. Sosial iş fərdlərə və icmalara kömək etməyə yönəlmiş geniş spektrli tapşırıqları təmsil etsə də, keys menecment öz növbəsində daha məqsədyönlü və praktiki yanaşma təmin edir. Bununla belə belə bir sual ortaya çıxır, bəs keys menecerlər kimdir?

Keys menecerlər benefisiarlara mürəkkəb sosial xidmət sistemləri vasitəsilə rəhbərlik etmək, lazımi resurslara və xidmətlərə çıxışı təmin etmək üçün məsuliyyət daşıyırlar. Keys menecerlər ilkin mərhələdə benefisiar ilə onların vəziyyətini başa düşmək üçün müsahibə götürməyi, daha sonra onlara vacib olan həyati məqamlara kömək etmək üçün onlarla birlikdə işləməyi tələb edir.

Keys menecmentin tətbiqində müsbət dinamikanı görmək üçün nəzəriyyələrin tətbiqi benefisiarlarla daha effektiv işləməyə kömək edir. Sosial öyrənmə nəzəriyyəsinə görə, insanlar davranışlarını müşahidə və modelləşdirmə yolu ilə öyrənirlər. Bu nəzəriyyə sosial işçilərin müsbət nümunələr göstərərək benefisiarlarla düzgün davranışlara yönəltməsinə imkan verir. Sistemlər nəzəriyyəsi insanların davranışlarının ailə, dostlar və sosial mühit kimi sistemlərin təsiri ilə formalaşdığını izah edir. Sosial işçilər bu təsirləri analiz edərək benefisiarların problemlərini daha yaxşı başa düşə bilirlər. Psixososial inkişaf nəzəriyyəsinə əsasən, insan həyatının hər mərhələsində fərqli problemlərlə üzləşir. Sosial işçilər bu nəzəriyyəni istifadə edərək benefisiarların spesifik mərhələ problemlərini həll etməyə çalışırlar. Psixodinamik nəzəriyyə isə insan davranışlarının şüursuz proseslər və uşaqlıq təcrübələrindən qaynaqlandığını vurğulayır. Bu nəzəriyyə sosial işçilərə benefisiarın keçmiş təcrübələrinin indiki davranışlarına təsirini araşdırmağa imkan yaradır (3).

Keys menecerlərin, resursları təqdim etmək, benefisiar ilə mövcud olan resurslar haqqında söhbət etmək, terapiya ilə

**doi.org/10.36719/2663-4619/2025/XVII**

təmin etmək və.s kimi funksiyaları var. Burada terapiya dedikdə sosial işçinin peşəkar hazırlığı, professionallığı nəzərdə tutulur. Bütün bu araşdırma və fikirlərdən belə bir qənaətə gəlmək olar ki, keys menecment anlayışının məqsədlərinə nəzər saldıqda fikirlər arasında eynilik və müxtəliflik mövcuddur. Keys menecmentin məqsədlərinə vaxt, hədəf qrup, mənbələr və.s kimi anlayışlar daxildir. Nəticə olaraq belə bir qənaətə gəlmək olarki, sosial işdə keys menecmentin əsas məqsədi, benefisiarın problemini ən sürətli və effektiv şəkildə həll etməkdir.

Azərbaycanda keys menecment anlayışı insan resurslarının idarə edilməsində, xüsusilə sosial iş sahəsində istifadə olunan bir yanaşmadır. Azərbaycanda keys menecment daha çox sosial xidmətlər, tibbi-sosial xidmətlər, insan resursları və məşğulluq, təhsil sahəsində istifadə olunur. Keys menecmentin sosial xidmətlər sahəsində tətbiq edilməsi nəticəsində fərdi ehtiyaclar qiymətləndirilir, sosial proqramlar təşkil edilir, eləcə də resurslar əlaqələndirilir. Hədəf qrupları isə aztəminatlı ailələr, qaçqın və məcburi köçkünlər, əlilliyi olan şəxslər,sosial müdafiəyə ehtiyac olan uşaqlar aiddir. Tibbi-sosial xidmətlər sahəsində keys menecmentin tətbiq olunması isə, xəstələrin ehtiyaclarının reinteqrasiyasında rol oynayır. Həmçinin insan resursları və məşğulluqda da keys menecment yanaşmasından istifadə olunur. Beləki, ƏMAS və İSB.AZ platformalarının istifadəsi ilə işsiz şəxslərin təmin edilməsi və işə uyğunlaşdırıılmasında, iş axtaranların fərdi məsləhət və istiqamət xidmətlərinin göstərilməsi məhz keys menecment nəticəsi olaraq həyat keçirilir. Bununla yanaşı ölkəmizdə keys menecmentin tətbiqində bir sıra problemlər də mövcuddur. Nümunə olaraq, peşəkar mütəxəssislərin çatışmazlığı, texnologiyaların məhdud tətbiqi, resurs çatışmazlığı və zəif əlaqələndirməni göstərmək olar (5).

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Keys menecmentin inkişaf etdirilməsi ölkəmizdə müsbət nəticələrə gətirib çıxara bilər. Bu yanaşmanın tətbiq edilməsi insanların fərdi ehtiyaclarının daha yaxşı nəzərə alınmasını, xidmətlərin məqsədyönlü şəkildə təqdim olunmasına səbəb olacaqdır. Ümumiyyətlə, keys menecment resursların təkrar-lanmasının qarşısını alır, və onların daha səmərəli şəkildə bölüşdürülməsinə imkan yaradır. Bununla yanaşı müxtəlif dövlət qurumları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı gücləndirir. Ən çox yardıma ehtiyacı olan şəxslər və qrupların cəmiyyətdə sosial bərabərliyinin təmin edilməsində də keys menecmentin mühüm rolu vardır. Eləcə də fərdlərin hüquq və ehtiyaclarını müdafiə edir (6).

Azərbaycanda keys menecmentin tətbiqi sosial xidmətlərin effektiv, sistemli və eləcə də insana yönümlü olmasına gətirib çıxarır. Keys menecment dövlət resurslarının səmərəliliyini artırmaqla yanaşı, insanların həyat keyfiyyətini, o cümlədən sosial sahədə davamlı inkişafa təkan verir. Bununla yanaşı nəticələrə tam nail olmaq üçün peşəkar kadrların yetişdirilməsi, resursların düzgün planlaşdırılması və yenilikçi texnologiyaların daha geniş istifadəsi zəruridir.

## Ədəbiyyat

1. Julius, R., Ballew, G., Mink. (1997). Case management in social work. USA. Publisher, LTD.
2. Michael, J. H. (2017). Social work case management. Publisher, SAGE Publications.
3. https://caseworthy.com/articles/what-is-case-management-in-social-work/
4. https://sosial.gov.az/media/xeberler/post_431809?hl=az
5. https://e-qanun.az/framework/55044
6. Sosial xidmət haqqında Qanun https://e-qanun.az/

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 80-82**
**Scientific Sources XVII Collection of Theses / 80-82**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Nazim Hüseynov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0007-4101-4045
nazimhuseynov259@gmail.com

# FİZİKANIN TƏDRİSİNDƏ LAYİHƏ METODUNUN TƏTBİQİ

***Açar sözlər:*** *fizika, metod, layihə, təlim, tətbiq*
***Keywords:*** *physics, method, project, training, application*

Fizika fənninin tədrisi zamanı şagirdlərdən nəinki müəyyən biliyə malik olmaları, bununla yanaşı əldə etdikləri bilikləri praktiki məsələlərin həllində tətbiq etmələri, eyni zamanda gələcək fəaliyyəti üçün lazım olan bilikləri müstəqil əldə etmək tələb olunur. Şagirdlərdə bu cür bacarıq və vərdişlər formalaşdırmaq üçün ən effektiv üsullardan biri layihə metodunun tətbiq edilməsidir. Layihə metodunun tətbiqi zamanı şagirdlər qarşılarına çıxan praktiki problemləri həll etmək imkanı əldə edirlər. Fizika dərslərində layihə metodundan istifadə şagirdlərin təlimə olan maraqlarını artırır, onları yeni biliklər əldə etməyə həvəsləndirir. Layihənin icrası zamanı şagirdlər komanda ilə işləmək vərdişləri qazanır, problemin həlli üçün lazım olan məlumatları axtarmaq bacarıqlarını əldə edirlər. Bu proses zamanı şagirdlər sistemli, analitik və yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirirlər. Layihə metodu əsas etibarilə şagirdmərkəzli bir təlim metodudur və sorğuya əsaslanaraq şagirdlərdə aktiv öyrənməni təmin edir. Fizika dərslərində də layihə metodu şagirdlərin əldə etdikləri nəzəri bilikləri real situasiyalarla əlaqələndirmələrinə imkan verir. Şagirdlər öyrəndikləri nəzəri biliklərini praktiki təcrübələrə tətbiq edirlər.

doi.org/10.36719/2663-4619/2025/XVII

Layihənin digər təlim metodlarından fərqi, onun müddətinin bir dərsdən, bir neçə həftəyə qədər ola bilməsidir. Bu layihənin məqsədindən asılıdır. Layihə metodunun mərhələləri aşağıdakılardır:

- Problemin müəyyən edilməsi
- Problemin həll yollarının təklif edilməsi
- Həll prototipinin hazırlanması
- Təqdimat
- Mütəxəssislərin, müəllimlərin və ya həmyaşıdların rəyi əsasında təkmilləşdirmə

Layihə metodunun tətbiqi zamanı müəllimlər, şagirdləri komandalara bölür. Komandalar hər biri öz maraq dairələrinə uyğun mövzu seçə bilirlər. Əvvəlcə ümumi bir mövzu seçilir, daha sonra isə seçilən mövzuya uyğun olaraq alt mövzular müəyyən edilir. Proses zamanı müəllim problemi müəyyən etmək üçün aparıcı suallar seçir. Müəllimin bu sualları şagirdləri problemin müəyyən edilməsi və həllinə istiqamətləndirir. Bu suallar aşağıdakı kimi ola bilər:

- Mövzunu nəyə əsasən seçmisiniz?
- Bu problem hansı səbəbdən yaranır?
- Layihənin sonunda hansı nəticələrə nail olmağı planlayırsınız?

Daha sonra problemin həlli ilə bağlı şagirdlərə söz verilir. İmkan yaradılır ki, hər bir şagird öz fikrini səsləndirsin. Bu zaman şagirdlərin fikri mühakimə olunmur. Şagirdlərin səsləndirdikləri fikirlər müəllimlə birgə müzakirə edilir. Sonrakı mərhələ həyata keçiriləcək layihənin prototipinin hazırlanma mərhələsidir. Prototiplər müxtəlif formada ola bilər: maketlər, rollu oyun, hekayə lövhəsi və s. Prototipin hazırlanmasında əsas məqsəd təklif edilən ideyaların, mövcud problemin həllinə uyğun olub-olmadığını müəyyən etməkdir. Prototipi hazırlandıqdan sonra, şagirdlər öz işlərinin necə

olduğunu müəyyən etmək üçün onu sınaqdan keçirirlər. Sınaq şagirdlərə öz işləri ilə bağlı rəy verir və buna əsasən onlar işlərini təkmilləşdirirlər. İndi isə fizikada layihə metodunun tətbiqində çətinliklər və onun həllərinə baxaq.

**Vaxtın idarə edilməsi.** Layihələr ənənəvi dərslərdən daha uzun çəkə və şagirdlərin fikri digər fənlərdən yayına bilər. Bu səbəbdən də layihələri mərhələləri və son tarixləri ilə daha kiçik mərhələlərə bölmək lazımdır. Layihə təqvimi, vaxtı səmərəli idarə etməyə və hər bir şagirdi nəzarətdə saxlamağa imkan verir.

**Sinif nəzarəti.** Şagirdlər layihənin müxtəlif hissələrini işləyərkən nizamsızlıq göstərə bilir. Burada müəllim səs-küy, davranış qaydaları və əməkdaşlıq üçün aydın təlimatlar hazırlamalıdır. Qrup daxilində hər bir şagirdə müəyyən rollar və tapşırıqlar vermək olar. Yaxşı təşkil olunmuş qrup işi, şagirdlərə araşdırma və yaradıcılıq üçün imkan verərkən, nəzarəti də qorumağa kömək edir.

**Layihənin qiymətləndirilməsi.** Layihənin qiymətləndirilməsi asan görünsə də, çətin bir prosesdir. Həm prosesi, həm də ortaya çıxan işi qiymətləndirən zaman ətraflı rubrikadan istifadə etmək lazımdır. Yəni yalnızca son nəticəni deyil, komanda işini, şagirdlərin əməkdaşlığını və problemlərin həllini də qiymətləndirmək lazımdır.

Beləliklə, layihə metodu dərsi daha maraqlı və əyləncəli edir. O, şagirdləri öyrəndikləri bilikləri qarşılarına çıxan problemin həllinə tətbiq etməyə, tənqidi düşüncəyə və öyrənmələrinə cavabdeh olmağa istiqamətləndirir. Şagirdlərin daha fəal, yaradıcı, istəkli olmaları üçün layihə metodundan istifadə edə bilərik. Bu metoddan istifadə edərək, şagirdlərimizdəki inkişafı gördükcə, biz müəllimlər öyrətməyin sevincini yenidən kəşf edəcəyik.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 83-86**
**Scientific Sources XVII Collection of Theses / 83-86**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Nərgiz İsgəndərova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
https://orcid.org/0009-0004-5199-9819
nergizisgenderova7@gmail.com

# AZƏRBAYCANDA DİNİ TURİZMİN MÖVCUD VƏZİYYƏTİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *Azərbaycan turizmi, dini turizm, mövcud vəziyyət, gələcək perspektivlər, dini abidə və ziyarətgahlar*
***Keywords:*** *Azerbaijan's tourism, religious tourism, current situation, future prospects, religious monuments and shrines*

Turizm, insanların müxtəlif məqsədlərlə- istirahət, mədəniyyət, təhsil, əyləncə, iş və ya şəxsi məqsədlərlə bir yerdən başqa yerə hərəkət etməsi, eyni zamanda bu proses nəticəsində bir regionun iqtisadiyyatı, mədəniyyəti və cəmiyyəti üzərində yaratdığı təsirlər ilə əlaqəli olan bir sahədir. Bu sahə həm sosial, həm də iqtisadi baxımdan dünya miqyasında mühüm əhəmiyyətə malikdir. Belə ki, turizm təkcə iqtisadiyyat üçün deyil, həmçinin, insanların fərdi inkişafı, beynəlxalq və mədəni əlaqələrinin gücləndirilməsi baxımından da əhəmiyyətlidir.

Azərbaycan zəngin tarixi, qədim mədəniyyəti, yerləşdiyi coğrafi mövqe və təbii gözəllikləri ilə turizm üçün olduqca əlverişli şəraitə malikdir. Ölkəmizin həm Avropa, həm də Asiya mədəniyyətlərinin qovuşduğu yer olması onun həm mədəni, həm də dini turizm üçün cəlbedici məkan olmasına şərait yaradır (Qasımov, 2018).

Dövlətimiz turizm sektorunun inkişafına önəm verərək son illərdə bir çox beynəlxalq layihələrə imza atmış, mötəbər tədbirlərə ev sahibliyi etmişdir. Məhz bu sayədə paytaxtımız

doi.org/10.36719/2663-4619/2025/XVII

dünya miqyasında keçirilən müxtəlif tədbirlər, festivallar ilə tanınan bir mədəniyyət mərkəzi olmuşdur. Paytaxtımızla yanaşı, ölkəmizin bir çox bölgələri, xüsusilə də, Quba, Şəki, Gəncə, Şamaxı, Qəbələ kimi rayon və şəhərlərində də turizm infrastrukturu inkişaf etməkdədir (Hüseynov, 2019).

Turizmin bir digər istiqamətlərindən olan dini turizm sektoru da ölkəmizdə özünəməxsus xüsusiyyətlərə malikdir. Azərbaycan həm islam, həm də digər dünya dinlərinə aid çoxsaylı abidələr və ziyarətgahlarla zəngindir. Bu cəhət ölkəyə davamlı olaraq yerli və xarici turistlərin səfər etməsinə və dini turizmin inkişafına şərait yaradır.

Azərbaycanda müxtəlif dini və etnik qrupların birgə yaşaması ölkəmizdə dini turizmin inkişafı baxımından olduqca önəmli bir hadisədir. Bu da həm daxili, həm də beynəlxalq səviyyədə turizm sənayesinin inkişafına təkan verir (Məmmədova, 2021).

Azərbaycanda dini turizmin mövcud vəziyyətini və gələcək perspektivlərini təhlil edərkən bir sıra vacib məqamları nəzərə almaq lazımdır. İlk olaraq mövcud vəziyyətlə bağlı olan məqamları incələyək:

1. Coğrafi və mədəni mövqe: Azərbaycanda dini turizmin inkişafının əsas səbəblərindən birincisi ölkənin coğrafi və mədəni mövqeyidir. Azərbaycan ən qədim zamanlardan bu günə kimi müxtəlif dinlərin bir arada birlik və bərabərlik içərisində yaşadığı yerdir. Bu da turizmin inkişafını şərtləndirən vacib faktorlardandır.

2. Dini abidə və ziyarətgahlar: Ölkəmizdə islam dini ilə yanaşı, digər dinlərə də aid bir çox abidə və ziyarətgahlar yerləşir. Şəkidəki Alban kilsəsi, Qubadakı Quba Yəhudi qəbiristanlığı, Gəncədəki Cümə məscidi, Şamaxıdakı Yeddi gözəl və Bakı şəhərindəki Təzəpir məscidləri dini turizmin əsas mərkəzlərindəndir.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

3. Ziyarətçi sayı: Hazırda dini turizm məqsədilə çoxsaylı xarici turistlər Azərbaycana səfərlər edir. Həmin turistlər arasında dünya miqyasında müsəlmanlar üçün vacib olan Məkkə və Mədinəyə yaxınlıq səbəbilə Azərbaycana səfər edən ziyarətçilər də var.
4. Dini turizm potensialı: Azərbaycanda dini turizm sahəsi gündən-günə inkişaf etməkdədir. Ölkəmizin dini irsi, abidə və məkanları, ziyarətgahları, təbii gözəllikləri turistlərin diqqətini daha çox cəlb edir.

Azərbaycanda dini turizmin gələcək perspektivlərinə nəzər salsaq, bu sahənin inkişafı üçün müxtəlif istiqamətlər mövcuddur. Bunun üçün də həm dövlət, həm də özəl sektorların təşəbbüsünə ehtiyac vardır (Mustafayev, 2019):

1. Dini turizm ifrastrukturunun inkişafı: Azərbaycanda dini turizmin inkişafı üçün infrastruktura sərmaye yatırmaq çox vacibdir. Bu da abidə və ziyarətgahların təmir və bərpası, turizm xidmətinin gücləndirilməsi, bələdçi və informasiya mərkəzlərinin yaradılması, eləcə də nəqliyyat və yerləşmə imkanlarının yaxşılaşdırılması ilə mümkün olar.
2. Müqəddəs yerlərə hörmət və təhlükəsizlik: Ziyarətçilərin dini adət və ənənələrə hörmət etməsi dini turizmin inkişafı baxımından olduqca önəmlidir. Bu baxımdan ziyarətə gələnlərə dini abidələrin əhəmiyyəti haqqında məlumatlar vermək, bununla bağlı təlimlər təşkil etmək olar.
3. Beynəlxalq əlaqələr: Ölkəmizin dini turizm potensialını dünya səviyyəsində tanıtmaq üçün beynəlxalq əlaqə və əməkdaşlıqlar mühüm rol oynayır. Azərbaycanın İslam dünyasında, xüsusən də Orta Şərq, Qafqaz və Mərkəzi Asiya ölkələrində tanınması məqsədilə müxtəlif dini qrupların maraq dairəsini nəzərə alaraq genişmiqyaslı bir reklam kompaniyası keçirilə bilər.

doi.org/10.36719/2663-4619/2025/XVII

Azərbaycan dini turizm sahəsində ciddi potensiala sahibdir ki, ölkənin dini irsi, qədim ziyarətgahlarının çoxluğu bunu sübuta yetirən göstəricilərdir. Bütün bunlarla yanaşı, geniş infrastruktur inkişafı, beynəlxalq əməkdaşlıq və dövlətin dəstəyi ilə də Azərbaycanda dini turizm böyük bir iqtisadi və mədəni potensiala sahib ola bilər (Səfərova, 2020).

**Ədəbiyyat**

1. Hüseynov, F. (2019). Dini turizm və onun inkişafı. Bakı: Elm və Təhsil nəşriyyatı.
2. Qasımov, E. (2018). Azərbaycanın turizm sənayesi:cari vəziyyət və inkişaf perspektivləri. Bakı: İqtisad Universiteti nəşriyyatı.
3. Məmmədova, S. (2021). Azərbaycanın dini turizmi:gələcək perspektivlər və inkişaf yolları. Bakı: Qanun nəşriyyatı.
4. Mustafayev, A. (2019). Turizm və Mədəniyyət: Azərbaycanın dini turizmi. Bakı: Nurlan nəşriyyatı.
5. Səfərova, M. (2020). Azərbaycanın dini turizm potensialı və inkişaf perspektivləri. Azərbaycan Turizm jurnalı, 45-55.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 87-89**
**Scientific Sources XVII Collection of Theses / 87-89**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Gülay Əlizadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0000-3511-5623
elizadegulay15@gmail.com

# İYERARXİK SİSTEMLƏR

***Açar sözlər:*** *iyerarxik sistemlər, struktur, səviyyə, şəbəkə, element*
***Keywords:*** *hierarchical systems, structure, stage, network, element*

**İyerarxiya** (yunanca "hierarchia" sözündən gəlir, mənası "müqəddəs hökmranlıq") strukturlarda və ya sistemlərdə elementlərin müəyyən bir sıra və ya tabeçilik prinsipi əsasında düzülməsini ifadə edir (Max Weber - "The Theory of Social and Economic Organization"). İyerarxiyalı strukturlar eyni səviyyəli strukturlardan fərqli olaraq onlar eyni hüquqlara sahib olmur. İyerarxiyalı sistemlerdə elementlər və ya obyektlər əvvəlcədən müəyyən edilmiş qayda və ya standartlara əsasən səviyyələndirilir. İyerxik sistemlərdə yuxarı səviyyəli yerdə duran elementlər özündən aşağıda yerləşən elementlərdən güclü hesab edilir. İyerarxik sistemlərdə hər səviyyənin özünə məxsus funksiyası olur. Yuxarı səviyyəli elementlər tabe edən aşağı səviyyəli elementlər tabe olan hesab edilir. Belə sistemlərin tətbiq sahəsi kimi idarəetmə sistemlərini təbiəti və cəmiyyəti göstərmək olar. İyerarxik sistem və ya struktur

doi.org/10.36719/2663-4619/2025/XVII

dedikdə ilk ağıla gələn nümünələrdənioridə internet şəbəkəsidir. İnternet şəbəkəsinin əsasını server və klyent kompüterlər təşkil edirki buda iyerarxik sistemlərə bariz nümunədir. Beləki şəbəkədəki klyent istifadəçilər serverdən aslı olur. Rəqəmsal iyerarxik sistemlərin istifadəsi eyni səviyyəli sistemlərə görə daha geniş yer tutur. Buna səbəb onun eyni səviyyəli vəya birranqlı sistemlərlə müqaisədə üstünlüklərinin çox olmasıdır. Məsələn: səviyyəlilik- sistem bir neçə səviyyədən aslı olduğundan hər-hansı əmri yuxarı səviyyəli obyektlər özündən aşağıdakılara tətbiq edə bilir. Lakin eyni səviyyəli sistemdə hər bir elementin özündə bütün əmrləri tək-tək yerinə yetirmək lazımdır. İyerarxik sistemlərdə sistemin məhsuldarlığı yüksək olur. İyerarxik sistemlərə misal kimi: rektor → dekan → bölmə rəhbəri → müəllim → tələbə kimi göstərilə bilər (Mintzberg, 1979). Tutaq ki hər-hansı şirkətdə yeni işçi daxil olub və onun komputerini sazlamaq lazımdır. Belə sistemlərdə idarə edici serverlər vasitəsiilə həmin istifadəçi üçün yeni sistem yaradır və lazım olan bütün qaydaları onada tətbiq edir. İyerarxiya çox vaxt mürəkkəb sistemlərdə tətbiq edilir. İyerarxik birləşmə imkan verirki kompleks sistemlərlə işləmək daha sadə olsun. Bununla belə iyerarxik sistemlərin bəzi üstünlükləri və çatışmayan cəhətləri vardır. Üstünlükləri – Qərar qəbuletmə prosesinin effektiv olması, idarəetmənin strukturlaşdırılmış olması. Çatışmayan cəhətləri- müstəqilliyin azad olmaması, səviyyəlilik artdıqca sistemin kordinasiyasının çətinləşməsi və s.Bundan başqa iyerarxik sistemlər tətbiq sahəsindədə böyük istifadə kəsiminə sahibdir. Məsələn komputer elmləri sosiologiya idarəetmə və təşkilat və s. İyerarxik sistemlərin tədqiqi müxtəlif sahələrdə, o cümlədən idarəetmə, bioloji sistemləri komputer elmləri və sosiologiyada geniş tətbiq olunur (Tanenbaum).

doi.org/10.36719/2663-4619/2025/XVII

## Ədəbiyyat

1. Max Weber - "The Theory of Social and Economic Organization".
2. Mintzberg, H. (1979). The Structuring of Organizations: A Synthesis of the Research. Prentice-Hall.
3. Tanenbaum, A. S. "Computer Networks".

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 90-92**
**Scientific Sources XVII Collection of Theses / 90-92**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**İsmayıl Teymurov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0001-3315-6912
ismayilteymurov.444@gmail.com

# OPTİMAL KLASTERLƏRİN TƏRİFİ VƏ HƏLL ALQORİTMLƏRİNİN ANALİZİ

***Açar sözlər:*** *klaster, data, alqoritm, maşın, sferik*
***Keywords:*** *cluster, data, algorithm, machine, spherical*

Klasterləşmə (qruplaşdırma) metodologiyası müasir mültidisiplinar sahələrdə geniş şəkildə tətbiq edilir. Verilənlər dəstəsinin daxili strukturunu öyrənmək, verilənləri qruplaşdırmaq və gizli münasibətləri üzə çıxarmaq üçün bu yanaşmadan istifadə olunur. Optimal klaster də maksimum klaster daxilindəki elementlər oxşar, xaricindəkilər fərqli və klasterlərin sayı verilənlərin xarakteristikalarına uyğun olaraq optimallaşdırılacaq şəkildə qruplaşdırılır (Rousseeuw, 1990).

Optimal klasterlər üç əsas addım da təyin olunur:

- **Klasterlərin sayının (“k”) təyini**:
  - Elbow metodu
  - Silhouette skoru
  - Gap statistikasi
- **Klaster keyfiyyətinin qiymətləndirilməsi**:
  - Klaster daxilindəki oxşar münasibətlərin analizi
  - Klasterlərarası məsafələrin ölçülməsi
- **Klasterlərə həll axtarışı**:
  - Alqoritmlər vasitəsilə optimal qruplaşdırma (Rousseeuw, 1987).

**doi.org/10.36719/2663-4619/2025/XVII**

*Klasterləşmə alqoritmləri Süni Alqoritmlər və Model Mənsubu Alqoritmlər olaraq 2 yerə ayrılır. Həm maşın öyrənməsi yanaşmalarında həm də klasterləşmə prosesində istifadə edilən texnikalar süni alqoritmlər haqqında məlumat verilərkən nəzərdə tutulur.*

- **K-Means Klasterləşməsi**:

Dataları istifadəçinin müəyyən etdiyi sayda klasterə bölmək üçün istifadə edilir. Sadə və sürətli olduğu üçün üstündür. Həmçinin kiçik və orta ölçülü verilənlərdə daha effektivdir. Amma kənar dəyərlərə həssasdır və klasterlərin fərqli ölçüdə olması zamanı problem yaranır (Kaufman, Rousseeuw, 1990).

- **Hierarşik Klasterləşmə**:

Data lar arasındakı iyerarxik əlaqəni aşkara çıxarır. Həm klasterlərin sayını əvvəlcədən təyin etməyə ehtiyyac yoxdur həmdə dendrogram-dır. Amma böyük datalar üçün hesablama resursları tələb edir (Jain, Murty, Flynn, 1999).

**Model mənsubu** klasterlərin formalaşdırılmasını alqoritmlər verilənlər dəstəsini ehtimal modelləri ilə təsvir edərək həyata keçirir.

- Gaussian Mixture Models (GMM)

Klasterləşmədə ən çox istifadə edilən model mənsubu yanaşmalardan biridir. Daha çevik yanaşma olması ilə yanaşı qeyri-sferik formada olmasına imkan yaradır və hər bir nöqtənin mənsubiyyət ehtimalını müəyyən edir.

- Hidden Markov Models (HMM)

Biologiya, nitq tanıma və maliyyə sahələrində geniş tətbiq olunur və zaman ardıcıllığına malik datalar üçün çox uyğundur.

- Dirichlet Process Mixture Models (DPMM)

Qeyri-parametrik modeldir. Klasterlərin sayını əvvəlcədən təyin etməyə ehtiyac yoxdur. Buna görədə elastik yanaşmadır. Qeyri-parametrik yanaşma müxtəlif tiplərdə datalar üçün geniş

doi.org/10.36719/2663-4619/2025/XVII

uyğunlaşır. Parametrlərin düzgün şəkildə təyin edilməsi mürəkkəbdir və hesablama baxımından ağırdır (Hastie, 2009).

## Ədəbiyyat

1. Kaufman, L., & Rousseeuw, P. J. (1990). Finding Groups in Data: An Introduction to Cluster Analysis. Wiley.
2. Rousseeuw, P. J. (1987). Silhouettes: A Graphical Aid to the Interpretation and Validation of Cluster Analysis. Computational and Applied Mathematics.
3. Jain, A. K., Murty, M. N., & Flynn, P. J. (1999). Data Clustering: A Review. ACM Computing Surveys.
4. Hastie, T., Tibshirani, R., & Friedman, J. (2009). The Elements of Statistical Learning: Data Mining, Inference, and Prediction. Springer.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 93-95**
**Scientific Sources XVII Collection of Theses / 93-95**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Kənan Eyvazzadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0000-8561-0673
eyvazzadekenan@gmail.com

# KLASTER-ANALİZ MƏSƏLƏSİNİN HƏLLİ ÜÇÜN QİYMƏTLƏRİN HESABLANMASINA ƏSASLANAN ALQORİTMLƏR

***Açar sözlər:*** *struktur, analiz, rekursiv, klaster, oxşarlıq*
***Keywords:*** *structure, analysis, recursive, cluster, similarity*

Klaster-analiz məsələsi verilən məlumat toplusunun oxşar xüsusiyyətlərə malik obyektlərini qruplara (klasterlərə) ayırmaq məqsədi daşıyır.

Qiymətlərin hesablanmasına əsaslanan alqoritmlər bu prosesdə məlumat obyektləri arasındakı məsafə və ya oxşarlıq ölçülərini istifadə edir. Bu alqoritmlər, obyektləri minimallaşdırılmış məsafəyə əsaslanaraq qruplaşdırır və onların fərqliliyini maksimuma çatdırır. Əsas metodlar arasında K-Orta (K-Means), K-Medoids, DBSCAN, və Hierarxik Klasterləşmə kimi yanaşmalar mövcuddur. Bu üsullar müxtəlif məsafə ölçüləri (məsələn, Evklid, Manhattan) və məlumat strukturuna uyğun şəkildə tətbiq edilir.

Klaster-analiz məsələsində qiymətlərin hesablanmasına əsaslanan alqoritmlər:

**1. K-Orta (K-Means):**

Məlumat nöqtələrini klaster mərkəzlərinə (centroid) olan məsafəyə görə qruplaşdırır.

Tez və sadədir, amma klaster sayını əvvəlcədən tələb edir (MacQueen, 1967)

doi.org/10.36719/2663-4619/2025/XVII

**2. K-Medoids:**

Klaster mərkəzləri real nöqtələrdən seçilir, səs-küylərə daha dayanıqlıdır.

Daha dəqiqdir, lakin hesablama yükü yüksəkdir (Kaufman, Rousseeuw, 1990)

**3.DBSCAN:**

Sıxlığa əsaslanır, qeyri-dairəvi klasterləri və səs-küyləri aşkar edir.

Parametrlərin düzgün seçilməsini tələb edir (Ester, Kriegel, 1996)

**4. Hierarxik Klasterləşmə:**

Rekursiv şəkildə klasterlər yaradır (birləşdirir və ya ayırır).

Kiçik məlumat dəstləri üçün uyğundur, amma böyük həcmdə çətinlik yaradır (Johnson, 1967)

**5. Spektral Klasterləşmə:**

Oxşarlıq matrisindən istifadə edərək qeyri-xətti klasterləri müəyyən edir.

Hesablama resurslarına yüksək tələbatı var.

Bu alqoritmlər məsafə və oxşarlıq ölçülərinə əsaslanaraq klasterləri müəyyən edir (Ng, Jordan, Weiss, 2002).

Klaster – analiz qiymətlərin hesablanmasına əsaslanaraq verilənləri oxşarlıq və fərqlilik prinsiplərinə görə qruplaşdırır. Əsas yanaşmalara məsafə (Evklid, Manhattan) və oxşarlıq ölçüləri daxildir.

Alqoritmlər (K-Orta, K-Medoids, DBSCAN, Hierarxik, Spektral) fərqli məlumat strukturlarına uyğunlaşaraq klasterlərin təyinini təmin edir. Qiymətləndirmə üçün daxili uyğunluq və klasterlərarası fərqlilik əsas götürülür. Bu alqoritmlər məlumat qruplaşdırılmasının əsasını təşkil edir.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

## Ədəbiyyat

1. MacQueen, J. (1967). "Some methods for classification and analysis of multivariate observations." *Proceedings of the Fifth Berkeley Symposium on Mathematical Statistics and Probability*.
2. Kaufman, L., & Rousseeuw, P. J. (1990). *Finding Groups in Data: An Introduction to Cluster Analysis*. Wiley.
3. Ester, M., Kriegel, H. P., Sander, J., & Xu, X. (1996). "A density-based algorithm for discovering clusters in large spatial databases with noise." *Proceedings of the Second International Conference on Knowledge Discovery and Data Mining (KDD)*.
4. Johnson, S. C. (1967). "Hierarchical clustering schemes". *Psychometrika*.
5. Ng, A. Y., Jordan, M. I., & Weiss, Y. (2002). "On spectral clustering: Analysis and an algorithm." *Advances in Neural Information Processing Systems (NIPS)*.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 96-98**
**Scientific Sources XVII Collection of Theses / 96-98**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Ləman Həsənzadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0001-0860-9342
iamlemanhasanzadeh@gmail.com

# DMS TİPLİ RƏQƏMLİ KOMMUTASİYA SİSTEMİNİN PROQRAM TƏMİNATININ QURULMASI

***Açar sözlər:*** *siqnal, sistem, telekommunikasiya, proqram, kommutasiya*
***Keywords:*** *signal, system, telecommunication, software, switching*

Telekommunikasiya sahəsində məlumatların ötürülməsi üçün istifadə edilən yüksək performansa sahib rəqəmli sistemlərdən biri də DMS (Digital Multiplexing Switching) tipli rəqəmli kommutasiya sistemidir. DMS sistemi rəqəmli kommutasiya sistemi ailəsinə daxil edilir. Bu sistemin əsas məqsədi analoq səs siqnallarını rəqəmli formata çevirməkdir. Bu zaman informasiya axını daha sabit və eyni zamanda təhlükəsiz olur. Bu da öz növbəsində keyfiyyətli rabitəni təmin edir. Sistem müxtəlif növ informasiya siqnallarını ən yüksək sürətlə daşıyır. DMS sistemləri əsasən modullar şəklində qurulur. Bu da öz növbəsində sistemin dəyişikliklərə adaptasiya olunmasını və həmçinin genişlənməsini təmin edir. Sistemi genişləndirən zaman sistemin mövcud komponentlərinə müdaxilə olunmur. DMS sistemləri vastəsilə məlumatlar fasiləsiz və etibarlı bir şəkildə ötürülür. DMS sistemləri əsasən çoxlu sayda istifadəçiyə xidmət göstərən böyük telekommunikasiya şəbəkələrində istifadə olunur. DMS tipli rəqəmli kommutasiya sisteminin proqram təminatı şəbəkə resurslarının düzgün

işləməsini təmin edən proqram təminatıdır. DMS tipli rəqəmli kommutasiya sisteminin proqram təminatının yönəldiyi əsas istiqamət sistemin müxtəlif element və komponentlərinin idarə edilməsidir. Proqram təminatının bir digər əsas vəzifəsi şəbəkə təhlükəsizliyini təmin etməkdir (Viswanathan, 2015).

DMS tipli rəqəmli kommutasiya sistemlərinin proqram təminatının qurulması xüsusi yanaşma tələb edir. Bu proqram təminatının əsas məqsədi sistemin düzgün işləməsini təmin etməkdir. DMS tipli rəqəmli kommutasiya sisteminin proqram təminatını qurarkən sistemin etibarlılığı və məlumatların təhlükəsizliyi prinsiplərinə ciddi riayət etmək lazımdır. Sistemdə hər hansısa bir xəta yarandığı halda sistem özü avtomatik olaraq özünü bərpa etməyi bacarmalıdır. Sistemin təhlükəsizliyini təmin etmək üçün identifikasiya və autentifikasiyadan istifadə edilməsi vacibdir. İdentifikasiya prosesi zamanı sistemə daxil olmaq istəyən istifadəçi uyğun olaraq öz istifadəçi adını (username) və İD nömrəsini daxil edir. Bunun nəticəsində sistemə yad şəxslərin girişi məhdudlaşdırılır (Chen, 2019).

Autentifikasiya prosesi zamanı isə sistemə daxil olmağa çalışan istifadəçidən müxtəlif biometrik göstəricilər (üz tanıma, barmaq izi və s.), şifrə tələb edilir. DMS tipli rəqəmli kommutasiya sisteminin proqram təminatı elə qurulmalıdır ki, sistem mövcud telekommunikasiya şəbəkələri ilə inteqrasiya oluna bilməlidir.

Həmçinin sistem digər proqram təminatı platformalarına inteqrasiyanı həyata keçirə bilməlidir.

DMS-100 sistemi DMS-in bir növüdür. DMS rəqəmli kommutasiya sistemi ictimai telefon şəbəkələrinə qoşulmağı təmin etmək üçün nəzərdə tutulan sistemdir. DMS-100 rəqəmli kommutasiya sistemi keyfiyyətli rabitə təqdim edir. DMS-100 rəqəmli kommutasiya sisteminin proqram təminatına aşağıdakılar daxildir (Smith, 2020):

doi.org/10.36719/2663-4619/2025/XVII

1. Resursların idarəsi üçün olan proqram vasitələri
2. Vahidin funksional proqram vasitələri
3. Kommutasiyanın idarəsi üçün olan proqram vasitələri
4. Əlavə proqram bloku

DMS tipli rəqəmli kommutasiya sisteminin proqram təminatının idarəsi asan olmalı və lazımi interfeysləri təqdim etməyi bacarmalıdır. Proqram təminatı mütləq müntəzəm olaraq test və sertifikasiyadan keçirilməlidir.

## Ədəbiyyat

1. Viswanathan, T. (2015).Telecommunication Switching Systems and Network.
2. Chen, T. L. (2019). Optimizing Performance in Digital Communication Systems.
3. Smith, J. (2020). Software Engineering for Telecommunications.
4. Patel, R. K. (2021). Standards and Protocols in Telecommunications.

Elmi Mənbələr XVII Tezislər Toplusu / 99-102
Scientific Sources XVII Collection of Theses / 99-102
doi.org/10.36719/2663-4619/2025/XVII

**Aysun Əlizadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-8035-4652
aysunalizade2002@gmail.com

# MÜASİR STANDART TRANKİNQ SİSTEMLƏRİNİN TƏDQİQİ

***Açar sözlər:*** *inkişaf, trankinq, sistemlər, texnologiyalar, süni intellekt*

***Keywords:*** *development, trunking, systems, technologies, artificial intelligence*

Texnologiyanın sürətli inkişafı, digər sahələrdə olduğu kimi biznes və maliyyə sahələrində də böyük dəyişikliklərə yol açmışdır. Trankinq sahəsində əldə olunan yeniliklər qlobal ticarətdə yeni imkanlar yaratmışdır. Bu tezisin əsas məqsədi müasir ticarət sistemlərini araşdırmaq, onların iqtisadiyyatdakı rolunu və gələcək inkişaf imkanlarını analiz etməkdir. Bu sahədə edilən araşdırmalar, ticarət sistemlərinin inkişafını və onların müxtəlif sahələrə təsirini aydınlaşdırmaqla yanaşı, yeni maliyyə texnologiyarının müasir dünyadakı əhəmiyyətini önə çıxaracaq.

İlk trankinq sistemi 20-ci əsrin ortalarında meydana gəlmişdir. Bu sistem, bir çox ölkələrin və özəl şirkətlərin maliyyə əməliyyatlarını daha sürətli və asan həyata keçirmək üçün təqdim etdiyi elektron ödəmə və ödəniş alətlərini özündə birləşdirir. Trankinq sistemlərinin tarixi, ticarət və sənayedəki məlumat axınlarının izlənməsi ilə başlamışdır. İlk zamanlarda ticarət və sənaye sahələrində xidmət və malların vəziyyətinə dair məlumatların toplanması məqsədi ilə prinsiplər tətbiq

**doi.org/10.36719/2663-4619/2025/XVII**

edilirdi. Zaman keçdikcə informasiya texnologiyalarının inkişafı, bu sistemlərin daha müasir və inkişaf etmiş versiyalarının yaranmasına səbəb olmuşdur (Tewari, 2020).

Müasir standart trankinq sistemlərinin ümumi xüsusiyyətləri:

Sürət və etibarlılıq: Müasir sistemlərdə məlumatların sürətli işlənməsi və ötürülməsi mühüm rol oynayır. Yeni texnologiyalar yarandıqdan sonra, məlumatların ötürülmə sürəti artmışdır.

Əlverişlilik: Standart sistemlər çox zaman sadə istifadə olunabilən interfeyslər təklif edir və istifadəçilərin daha səmərəli işlənməsinə imkan yaradır.

Faydalı analitik alətlər: Trankinq sistemləri məlumatların təhlili üçün güclü alətlər təqdim edir. Eyni zamanda bu sistemlər proqnozlaşdırmanı həyata keçirir.

Təhlükəsizlik: Məlumatın təhlükəsizliyi üçün xüsusi şifrələmə metodları təklif edir. Multi-factor autenfikasiya (MFA) kimi bir sıra təhlükəsizlik tədbirlərini təmin edir. Bu tədbirlər məlumatların təhlükəsizliyini icra edən əsas amillərdir (QS World University Rankings, 2023).

Müasir standart trankinq sistemlərinin tətbiq sahələri:

Maliyyə: Trankinq sistemləri, maliyyə əməliyyatlarının izlənməsi və şübhəli əməliyyatların dayandırılmasını təmin edir.

Səhiyyə: Həkimlərin və xəstəxanaların reytinqi müasir qiymətləndirmə sistemləri vasitəsilə onların xidmət keyfiyyəti və xəstələrə göstərilən tibbi xidmətin effektivliyi ölçülür.

Nəqliyyat və Logistika: Nəqliyyat vasitələrinin və yüklərin izlənməsi, marşrutların optimallaşdırılması və təhlükəsizlik tədbirlərinin tətbiqi prosesləri.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Ətraf Mühit və İqlim Dəyişiklikləri: Hava şəraiti, su resursları və digər ekoloji faktorların nəzarəti (Times Higher Education, 2023.)

Müasir standart trankinq sistemlərinin texnologiyası:

Bu sistemlər daha sürətli, etibarlı və təhlükəsiz şəkildə ötürülməsi üçün müxtəlif təkmilləşdirmədən keçir. Bu irəliləyiş əsasən yeni protokolların yaradılması, standartların təkmilləşdirilməsi, şəbəkə infrastrukturunun inkişaf etdirilməsi ilə əlaqəlidir.

1. 5G və 6G şəbəkələri: 5G texnologiyası, müasir telekommunikasiya sistemlərinin inkişafında mühüm rol oynayır. Bu şəbəkə, daha böyük məlumat ötürülməsi sürəti və cihaz şəbəkələrin eyni anda işlənməsi imkan təqdim edir. 6G şəbəkələr hələ tam inkişaf etməyiblər. Buna rəğmən, geniş əhatə dairəsi və ultra sürətli əlaqələr təmin edir. Buna görə də internetin gələcəyinə dair güclü dəyişikliklər gətirəcək.

2. Optik lifli texnologiyalar: Fiber-optik şəbəkələr, rabitə infrastrukturunda sürət və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyət daşıyır. Məlumatların minimal itki ilə sürətli şəkildə və böyük həcmdə ötürülməsinə kömək edir. Həmən texnologiyaların inkişafı gələcəkdə daha təkmilləşməsi gözlənilir.

Süni intellekt və avtomatlaşdırma: Süni intellekt və avtomatlaşdırılmış sistemlər, trankinq şəbəkələrinin effektivliyini artıraraq onların idarə olunmasını və etibarlılıq səviyyəsini gücləndirir. Bu texnologiyalar, şəbəkələrdə yaranan potensial problemləri aradan qaldırır. Xidmətlərin səmərəliliyini artırmaq və ümumi sistemin performansını yüksəltmək məqsədilə istifadə olunur. (Global Finance. Best Global Banks – 2023).

Müasir trankinq sistemlərinin inkişafı ilə hüquqi və etik məsələlər gündəmə gəlir. Şəxsi informasiyanın gizliliyi, qorunması və önəmli şəxslərin informasiyalara nəzarəti kimi

**doi.org/10.36719/2663-4619/2025/XVII**

məsələlər, tədqiqatçıların diqqətini cəlb edir. Bu sistemlər ilə informasiyaların toplanması, saxlanması ötürülməsi və analiz edilməsi zamanı etik qaydalarına riayət edilməlidir. Müvafiq qanunvericiliyə uyğunluğun təmin olunması gərəklidir.

Avropa birliyi və digər qruplar tərəfindən təqdim olunan GDPR (General Data Protection Regulation) bu qanunlar trankinq sistemlərinin iş prinsiplərini müəyyən edilmiş qaydalar çərçivəsində tənzimləyir. Bu da sistemlərin şəffaf olmasını və istifadəçilərin işini rahat olmasına gətirib çıxarır. GDPR, məlumatların toplanması, saxlanması və ötürülməsi ilə bağlı mühüm qaydalar qoyur. İstifadəçilərə şəxsi məlumatlar üzərində daha çox nəzarət imkanı verir. Beləliklə, hüquqi və etik baxımından prinsiplərə əməl etməsi, bu sistemlərinin daha geniş yayılmasına şərait yaradır. (Schwab, 2023). Müasir trankinq sistemləri resurslardan daha optimal istifadə etməyə, əməliyyatları avtomatlaşdırmağa və ümumi məhsuldarlığı artırmağa şərait yaradır. Bu sahə müxtəlif sektorlarda tətbiq olunur. Lakin, bir sıra problemlər mövcuddur. Gələcəkdə bu problemlərin aradan götürülməsi və daha inkişaf etmiş trankinq sistemlərinin yaradılması gözlənilir. Trankinq sistemlərin gələcəkdə inkişaf etməsinin bir mühüm səbəbi də süni intellektin inkişaf etməsidir. Beləliklə, bu sistem, müasir dövrün biznes şəraitinə uyğun olaraq daha önəmli rol oynayacaqdır.

## Ədəbiyyat

1. Tewari, V. (2020). Algorithmic Trading and High-Frequency Trading.
2. QS World University Rankings. (2023).
3. Times Higher Education. (2023). World University Rankings.
4. Global Finance. (2023). Best Global Banks.
5. Schwab, K. (2023). The Global Competitiveness Report.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 103-104**
**Scientific Sources XVII Collection of Theses / 103-104**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Nəzrin Babazadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0001-3616-3210
nazrinbabazade18@gmail.com

# PROQRAM VƏ APARAT TƏMİNATINDA SƏHVLƏRİN AŞKAR EDİLMƏSİ

***Açar sözlər:*** *proqram, aparat təminatı, informasiya, səhvlər, təhlil*
***Keywords:*** *software, hardware, information, errors, analysis*

Proqram və aparat təminatında səhvlərin aşkar edilməsi müasir kompüter sistemlərinin düzgün formada çalışa bilməsi və kompüter sisteminin etibarlılığı üçün vacib məsələdir. Səhvlərin aşkar edilməsi prosesi aparat və proqram təminatının səhvlərini vaxtında aşkar etmək və bu səhvləri aradan qaldırmağa xidmət göstərir. Proqram və aparat təminatında yaranan səhvlər sistemin ümumi işini poza bilir. Bu bir sıra xoşa gəlməz hallarla qarşılaşdırır. Məsələn: Sistemin yavaşlaması, informasiya itkisi, təhlükəsizlik boşluqlarının yaranması və s. Aparat və proqram təminatında səhvlərin aşkar edilməsi həmçinin xarici təsirlərin (hacker hücumları, ziyanlı proqramlar və şəbəkə zəiflikləri) qarşısını almağa köməklik göstərir (Beizer, 1990).

Proqram təminatında səhvlərin aşkar edilməsi bir neçə metodlarla aparılır.

1. Statik təhlil

Bu metodda proqram kodu analiz edilir və sintaksis səhvlərlə təhlükəsizlik zəiflikləri tapılıb aradan qaldırılır. Statik

təhlilin ən böyük müsbət cəhəti və üstünlüyü ondadır ki proqram işə salınmamışdan öncə bu proses reallaşdırılır və səhvlərin tapılıb aradan qaldırılmasına xidmət göstərir (Pressman, 2014).

2. Dinamik təhlil

Dinamik təhlil proqram işləyən vaxt ərzində səhvlərin aşkar edilərək aradan qaldırılmasına xidmət göstərir.

3. Testlərin avtomatlaşdırılması

Proqram təminatının inkişafına təsir göstərən ən önəmli amillərdən biri də testlərin avtomatlaşdırılmasıdır.Bunun üçün testlərin avtomatlaşdırılması geniş şəkildə tətbiq edilir. Proqramın müəyyən hissələri sürətlə test edilərək yoxlanılır və bu zaman səhvlərin aşkar edilməsi asanlaşır.Bura **unit testlər** və **inteqrasiya testlərini** aid edə bilərik (Myers, 2004).

Proqram və aparat təminatı üçün səhvlərin müəyyən-ləşdirilməsi əsasən sistemin təhlükəsizliyini təmin etməkdən ötrüdür. Hal hazırda proqram və aparat təminatı üçün səhvlərin aşkarlanması metodları yenilənərək inkişaf etməkdə davam edir.Aydındır ki, müasir texnologiyaların tətbiqi ilə bu proses daha effektiv və rahat üsulla aparılır (Musa, 2011).

## Ədəbiyyat

1. Beizer, B. (1990). “Software Testing Techniques.”
2. Pressman, R. S. (2014). “Software Engineering: A Practitioner’s Approach.”
3. Myers, G. J. (2004). “The Art of Software Testing.”
4. Musa, J. D. (2011). “Software Reliability Engineering.”

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 105-108**
**Scientific Sources XVII Collection of Theses / 105-108**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Qurban Şükürov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0005-5555-9068
qurbansukurov040@gmail.com

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİNDƏ MÜASİR BİOMETRİK AUTENTİFİKASİYA ÜSULLARI

***Açar sözlər:*** *barmaq izi, retinanın autentifikasiyası, iris autentifikasiyası, biometrik səs tanıma, retina*

***Keywords:*** *software, hardware, information, errors, analysis*

Biometrik autentifikasiya, insanın bioloji xüsusiyyətlərinə əsaslanaraq onun şəxsiyyətini tanıyan bir texnologiya kimi təhlükəsizliyi təmin edir. Hər hansı məlumat resursuna giriş zamanı, biometrik autentifikasiya sistemi istifadəçinin təqdim etdiyi məlumatları götürərək onları verilənlər bazasında saxlanılan məlumatlarla müqayisə edir. Əgər uyğunluq müəyyən edilərsə, autentifikasiya uğurlu hesab olunur və istifadəçiyə resursa giriş imkanı verilir. Biometrik autentifikasiya həm obyektlərə (binalara və ya fərdi binalara) fiziki girişi, həm də müxtəlif informasiya resurslarına (sistemlər, proqramlar, verilənlər bazası və s.) çıxışı idarə etmək üçün istifadə edilə bilər (Maltoni, Maio, Jain, Prabhakar, 2009)

Müasir biometrik autentifikasiya iki əsas üsula əsaslanır:

1. Statik autentifikasiya üsulu – Şəxsin ömrü boyu dəyişməyən fiziki xüsusiyyətlərinə əsaslanır. Bu xüsusiyyətlərə barmaq izləri, göz irisi, retinal naxış, termoqrafik məlumatlar, üz və əl həndəsəsi, hətta genetik kodun bir hissəsi daxildir.

2. Dinamik autentifikasiya üsulu – Şəxsin gündəlik davranışlarına əsaslanır. Bu metod müəyyən adi hərəkətlərin (imza nümunəsi, klaviatura istifadə üslubu, səs və s.) yerinə yetirilməsi zamanı nümayiş etdirilən davranış xüsusiyyətlərini təhlil edir.

Barmaq izi. İnsanların barmaqlarının uclarında fərqli qıvrımlardan, qabarlardan və silsilələrdən ibarət dəri naxışı mövcuddur. Bu naxış hər bir insanda unikaldır və dəyişməz qalır (Jain, Ross, Prabhakar, 2024).

İstifadəçi barmağını skanerin sensoruna yerləşdirdikdə və ya üzərində hərəkət etdirdikdə, əldə edilən barmaq izi məlumatı, sistemdə əvvəldən qeyd olunan nümunə ilə müqayisə edilir.

Retinanın autentifikasiyası. Göz dibindəki qan damarlarının unikal naxışları araşdırılaraq, onların təkrarsız olduğu müəyyən edilmişdir. Göz dibinin qan damarlarının strukturu o qədər unikaldır ki, hətta əkizlərdə də eyni olmur. Ciddi göz xəstəlikləri (məsələn, katarakta) olmadığı təqdirdə, bu metoddan yüksək səviyyədə qorunan obyektlərdə, şəxsi kabinetlərdə və məxfi məlumatlara çıxış üçün etibarlı şəkildə istifadə edilə bilər.

İris autentifikasiyası. Gözün diafraqmasının mürəkkəb və təkrarsız naxışlarının tanınması prinsipi üzərində qurulmuşdur (Daugman, 2023).

Bu naxışlar hələ insan dünyaya gəlməmişdən formalaşır və ömür boyu dəyişməz qalır. İris skanerləri sol və sağ gözlərdəki fərqliliklərdən istifadə edərək identifikasiyanın dəqiqliyini artırır.

Əl həndəsəsi ilə autentifikasiya. Bu üsul insan əlinin müəyyən anatomik parametrlərinin ölçülməsi prinsipi üzərində qurulmuşdur.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

Lakin, insan əlləri tamamilə unikal olmadığı üçün bu metodun etibarlılığını təmin etmək məqsədilə bir neçə fərqli parametrin eyni zamanda analiz edilməsi tələb olunur.

Üz həndəsəsinə əsaslanan autentifikasiya. İnsanın üz quruluşuna əsaslanan bu autentifikasiya üsulu biometrik təhlükəsizlik sistemləri arasında irisin tanınması və barmaq izi skan edilməsi ilə yanaşı ən əhəmiyyətli üç üsuldan biri hesab olunur (Zhang, & Liu, 2024).

Üz termoqrafiyası. Bu biometrik autentifikasiya üsulu bir insanın qan damarları ilə müəyyən edilməsində ifadə edilir. Bu texnologiya infraqırmızı işıq vasitəsilə üzün temperatur xəritəsini, yəni termoqramı yaradır (Li, & Smith, 2024). Termoqram kifayət qədər unikal olduğu üçün bu üsul barmaq izi ilə identifikasiyaya bənzər səviyyədə etibarlıdır.

Biometrik Səs Tanıma. Səs tanıma texnologiyası, avtomatlaşdırılmış nitq tanıma proqramlarından istifadə edərək fərdi şəxsləri ayırd etmək və tanımaq üçün tətbiq edilir. Səs tanıma texnologiyası konkret danışanı müəyyən etməyə yönəlib, nitq tanıma isə deyilən sözləri təhlil edib qiymətləndirməyi hədəfləyir.

## Ədəbiyyat

1. Maltoni, D., Maio, D., Jain, A. K., & Prabhakar, S. (2009). Handbook of Fingerprint Recognition (2nd ed.). Springer.
2. Jain, A. K., Ross, A., & Prabhakar, S. (2024). Introduction to Biometrics: Fingerprint Systems and Their Applications. Biometric Journal.
3. Daugman, J. G. (2023). The Iris Recognition Frontier: Progress and Challenges in Biometric Security. IEEE Transactions on Information Forensics and Security.

4. Zhang, H., & Liu, J. (2024). Facial Recognition: Applications and Developments in 2D and 3D Technologies. Journal of Visual and Media Security.
5. Li, L., & Smith, R. (2024). Thermal Imaging for Facial Authentication: A Novel Approach in Biometric Security. Journal of Advanced Biometric Systems.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 109-112**
**Scientific Sources XVII Collection of Theses / 109-112**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Rugayya Hasanova**
Lankaran State University
master student
https://orcid.org/0009-0008-7515-246X
hassanoffa.r@gmail.com

# MAİN FUNCTİONS OF MİCROPROCESSORS AND THEİR IMPACT ON DATA FLOW

***Keywords:*** *microprocessor, data flow, functions, memory, operations*
***Açar sözlər:*** *mikroprosessor, məlumat axını, funksiyalar, yaddaş, əməliyyatlar*

Microprocessors form the foundation of modern computer systems and various electronic devices. They play a crucial role in data processing, storage, and transmission by performing numerous operations. The development of microprocessors is closely linked to the advancement of information technologies and the creation of faster systems. Today, microprocessors are widely used not only in computers but also in mobile devices, automobiles, home technology, and other high-tech fields.

In the modern era, especially with the rapid development of computer and information technologies, the role of microprocessors has become even more critical. The performance of devices used in various fields is directly related to the speed and efficiency of microprocessors.

Microprocessors ensure the operation of computers and other electronic devices by performing various functions. These functions are mainly as follows:

1. Arithmetic and Logic Operations: Microprocessors perform various arithmetic and logical operations on data.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

These operations are essential tasks for data analysis and processing. Modern microprocessors, especially those with multi-core technologies, have parallel processing capabilities, ensuring faster execution of operations (Smith, Nair, 2022).

2. Control functions: Microprocessors manage the execution of programs and the sequence of operations. High-performance microprocessors ensure that multiple operations are carried out simultaneously, which increases the overall speed of the system (Hennessy, Patterson, 2020).

3. Data memory and caching: Microprocessors temporarily store data and use cache memory for faster retrieval. Optimizing this memory ensures faster data processing. Proper management of memory and its connection with microprocessors helps efficiently manage the data flow (Stallings, 2021).

4. Input-output operations: Microprocessors establish connections with external devices and ensure correct data transmission. Input-output operations ensure that the microprocessor communicates properly with other devices and facilitates data exchange (Hayes, 2021).

The impact of microprocessors on data flow directly affects the efficiency of modern information systems. These effects are mainly related to the following factors:

1. Processing speed and parallel processing: The high processing speed and parallel processing capabilities of microprocessors ensure that data is processed quickly and accurately. These features allow the microprocessor to control the data flow and ensure secure and correct transmission (Shen, Lipasti, 2021).

2. Program execution and synchronization: Microprocessors execute various programs both in parallel and sequentially, ensuring the proper and distortion-free flow of

doi.org/10.36719/2663-4619/2025/XVII

data. Synchronization maintains the order of data and allows efficient operation of tasks in the system.

3. Protocols and interface management: Microprocessors support various protocols for the correct transmission of data. Interface management increases the speed and reliability of data flow, ensuring the effective exchange of data between networks and other communication devices (Muller, 2021).

4. Flexible control and programmability: The flexible control and programmable structures of microprocessors further facilitate data flow management. These features ensure the effective operation of microprocessors in various fields and optimize the performance of the system (Smith, Nair, 2022).

Microprocessors are the backbone of modern computer systems and electronic devices. Their impact on data flow directly affects the performance and efficiency of systems. The features of microprocessors, such as processing speed, parallel processing capability, and memory management, ensure the rapid and accurate processing of data. The development of microprocessors will pave the way for creating more efficient information systems and achieving faster results in various applications in the future.

## References

1. Hennessy, J. L., & Patterson, D. A. (2020). Computer Organization and Design: The Hardware/Software Interface (6th ed.). Elsevier.
2. Stallings, W. (2021). Computer Organization and Architecture: Designing for Performance (10th ed.). Pearson.
3. Shen, J. P., & Lipasti, M. H. (2021). Modern Processor Design: Fundamentals of Superscalar Processors (3rd ed.). McGraw-Hill.

**doi.org/10.36719/2663-4619/2025/XVII**

4. Hayes, J. P. (2021). Computer Architecture and Organization. McGraw-Hill.
5. Muller, M. (2021). Embedded Microprocessor Systems: Introduction to ARM Cortex-M Microcontrollers. Newnes.
6. Smith, J. E., & Nair, R. (2022). High-Performance Computer Architecture. Pearson.

**Elmi Mənbələr XVII Tezislər Toplusu / 113-116**
**Scientific Sources XVII Collection of Theses / 113-116**
**doi.org/10.36719/2663-4619/2025/XVII**

**Ali Aliyev**
IMC University of Applied Sciences Krems
bachelors
ali.researcher@outlook.com
https://orcid.org/0009-0005-1243-8637

# BIG DATA AND AI IN IT PROJECT MANAGEMENT: SHAPING THE FUTURE OF DIGITAL TRANSFORMATION

***Keywords:*** *Big Data, artificial intelligence, IT Project Management, predictive analytics, risk management, automation*

***Açar sözlər:*** *Big Data, süni intellekt, İT Layihələrin İdarə Edilməsi, proqnozlaşdırılmış analitika, risklərin idarə edilməsi, avtomatlaşdırma*

Big data and artificial intelligence (AI) are transforming IT project management through the facilitation of predictive analytics, enhancement of risk management, and encouragement of automation. These technologies provide project managers with state-of-the-art tools to optimize processes, lower risks, and provide successful project outcomes. Below, we look at real-world applications and trustworthy data that show how much of an impact these developments have had (Motoa-Grajales et al., 2023).

One notable case study is China State Construction, which uses real-time design mistake detection using AI-powered cameras and building sensors. By cutting rework by 18%, this innovative approach significantly improved construction quality management. Important metrics include a 90 percent improvement in client satisfaction, a 20–30% increase in

resource utilization, and a 30–40% reduction in project delays (Sacks et al., 2020). These figures illustrate the value of predictive models in fostering project success. Predictive analytics not only identifies bottlenecks but also makes proactive decisions that ensure smoother project execution (Darko et al., 2020).

An outstanding example of applying AI-driven risk management strategies is provided by Turner Construction. Through proactive identification of high-risk zones, the company was able to reduce project overruns by 12%. Reductions in project hazards of 40–60% and budget overruns of 20–50% are quantifiable benefits (Ruperto & Strappini, 2021). When businesses integrate AI and Big Data into their risk assessment processes, they are better prepared to handle unforeseen challenges. These technologies enable real-time monitoring and predictive insights to ensure on-time delivery and maintain project stability (Angelov et al., 2021).

Automation is another crucial aspect of AI in IT project management. The global market for artificial intelligence (AI) in project management is anticipated to increase at a compound annual growth rate (CAGR) of 17.3%, from USD 2.5 billion in 2023 to USD 5.7 billion by 2028, according to MarketsandMarkets (2023). A 90% reduction in reporting errors, a 25% boost in team productivity, and 30–50% time savings on administrative tasks are examples of performance metrics. Automation solutions reduce errors, streamline repetitive processes, and free up critical time, allowing teams to concentrate on key goals. This ensures smooth process execution and excellent data integrity (Motoa-Grajales, Gomez-Peña, Zabala-Vargas, 2023).

AI and big data in marketing enhance targeting, customer engagement, and strategy. AI-driven analytics enable

personalized advertising that can reduce cost per lead by 30% and boost lead conversion by up to 50%. These technologies help businesses better understand their customers and make the most of their marketing budgets (Darko, Chan, Adabre, Edwards, 2020). Big data and artificial intelligence are transforming IT project management by enabling predictive analytics, improving risk management, and encouraging automation. These tools help project managers cut down on delays, optimize resource utilization, and boost customer satisfaction by foreseeing challenges, lowering risks, and simplifying procedures. As digital transformation takes up momentum, organizations that want to be competitive in IT project management need to integrate AI and Big Data (Motoa-Grajales, Gomez-Peña, Zabala-Vargas, 2023).

## References

1. Angelov, P. P., Soares, E. A., Jiang, R., & Arnold, N. I. (2021). Explainable artificial intelligence: An analytical review. Wiley Interdisciplinary Reviews: Data Mining and Knowledge Discovery, 11(2), e1424. https://doi.org/10.1002/widm.1424
2. Darko, A., Chan, A. P. C., Adabre, M. A., & Edwards, D. J. (2020). Artificial intelligence in the AEC industry: Scientometric analysis and visualization of research activities. Automation in Construction, 112, 103081. https://doi.org/10.1016/j.autcon.2020.103081
3. MarketsandMarkets. (2023). AI in project management market worth 5.7 billion USD by 2028, growing at a CAGR of 17.3%. Retrieved from https://www.marketsandmarkets.com/PressReleases/ai-project-management.asp (Accessed 18 December 2024).

4. Motoa-Grajales, C., Gomez-Peña, M., & Zabala-Vargas, S. (2023). Emerging technologies (Big-Data, Data Science and Artificial Intelligence) in project management. An initial overview. Universidad Francisco de Paula Santander.
5. Ruperto, F., & Strappini, S. (2021). Complex works project management enhanced by digital technologies. Building Information Modeling (BIM) Design, Construction, and Operations IV, 205, 235. https://doi.org/10.1061/9780784483802.011
6. Sacks, R., Brilakis, I., Pikas, E., Xie, H. S., & Girolami, M. (2020). Construction with digital twin information systems. Data-Centric Engineering, 1, e14. https://doi.org/10.1017/dce.2020.14

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

### HUMANITIES AND SOCIAL SCIENCES

**Sənan Babayev, Bayram Xəlilov**
Azərbaycan Respublikasında idmanın inkişaf perspektivləri .... 7
**Sevinc Səlimova**
Azərbaycan və ingilis dilinin lüğət tərkibində semantik və sintaktik yolla söz yaradıcılığı ................................................ 12
**Sevda İsmayılova**
1930-cu illərin repressiyaları və Bakı Dövlət Universitetinin aspirantları (1933-1936) ......................................................... 16
**Aynur Quliyeva**
C. Moyesin "Səndən əvvəl mən" əsərində olan metaforlar ..... 20
**Vaqif Dadaşzadə**
Azərbaycan-Çin əməkdaşlığının əhəmiyyəti və perspektivləri ................................................................................. 24
**Şəbnəm Seyidova**
Biologiyanın tədrisində problemli sualların tətbiqi ilə şagirdlərin tədqiqatçılıq fəaliyyətinə cəlb edilməsi ................. 28
**Məhəmməd Əsgərov, Arif İbrahimli**
Azərbaycanın qədim Qobustan ərazisində fiziki hərəkətlərin meydana gəlməsi ................................................................... 31
**Sədyar Bağırov, Elxan Cabbarov**
Qarabağın mədəniyyət tarixi ..................................................... 36
**Xatirə Qocayeva, Zərəngiz Qasımova**
Azərbaycanın Qarabağ diyarında qədim mədəniyyətin, musiqinin milli xalq oyunlarının və tamaşa oyunlarının tarixi ............................................................................................ 44
**Vəliyəddin Müsəllimov, Nizami Ağayev, Eldar Muxtarlı**
Azərbaycan milli xalq oyunlarının formalaşması .................... 50

**Səbinə Məmmədova**
Dilçilikdə təkrarların tədqiqi ........................................................ 58
**Zeynəb Əsədova**
Yeni nəsil ədəbiyyat dərsliklərində (X-XI siniflər) monoqrafik mövzuların öyrədilməsi yolları ............................ 63
**Rəşad Novruzov**
"Fizikanın tədrisində Nizami Gəncəvi irsindən istifadə" ........ 67
**Aysun Həşimi**
"Hüseyn Cavidin əsərlərinin layihə əsaslı tədris yanaşmasında tədrisi: yaradıcılıq, düşüncə və dəyərlər məktəbi" ........................................................................ 71
**İnci Hüseynzadə**
Keys menecment sosial iş müdaxiləsi kimi. Azərbaycanda sosial iş sistemində keys menecmentin mövcud vəziyyəti ...... 75
**Nazim Hüseynov**
Fizikanın tədrisində layihə metodunun tətbiqi ......................... 80
**Nərgiz İsgəndərova**
Azərbaycanda dini turizmin mövcud vəziyyəti və gələcək perspektivləri ................................................................... 83

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Gülay Əlizadə**
İyerarxik sistemlər ........................................................................ 87
**İsmayıl Teymurov**
Optimal klasterlərin tərifi və həll alqoritmlərinin analizi ........ 90
**Kənan Eyvazzadə**
Klaster-analiz məsələsinin həlli üçün qiymətlərin hesablanmasına əsaslanan alqoritmlər ..................................... 93
**Ləman Həsənzadə**
DMS tipli rəqəmli kommutasiya sisteminin proqram təminatının qurulması ......................................................... 96

**Aysun Əlizadə**
Müasir standart trankinq sistemlərinin tədqiqi .......................... 99
**Nəzrin Babazadə**
Proqram və aparat təminatında səhvlərin aşkar edilməsi ....... 103
**Qurban Şükürov**
İnformasiya təhlükəsizliyinin təminində müasir biometrik autentifikasiya üsulları ........................................... 105
**Rugayya Hasanova**
Main functions of microprocessors and their impact on data flow ....................................................................... 109
**Ali Aliyev**
Big data and AI in IT project management: shaping the future of digital transformation .............................................. 113

İmzalandı: 11.01.2025
Onlayn çap: 17.01.2025
Formatı: 60/84, 1/16
H/n həcmi: 7,5 ç.v.
Sifariş: 05

---

https://aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: info@aem.az